*Yaqut Bahadurqızı*

# *HAY VER MƏNƏ, CƏNAB LEYTENANT...*

ÇAŞIOĞLU

2016-cı ilin aprelində Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, ölümündən sonra "Azərbaycan Bayrağı" Ordeninə layiq görülmüş Əbu Bəkr Vüqar oğlu İsmayılovun əziz xatirəsinə ithaf olunur.

*Rəyçi:* **Qabil Nəsibov**
*Ehtiyatda olan polkovnik-leytenant*

**Yaqut Bahadurqızı.**
Hay ver mənə, cənab leytenant... Bakı. Çaşıoğlu, 2017 - 168 səh.

"Hay ver mənə, cənab leytenant" kitabı işğalçı Ermənistan hərbi birləşmələrinin 2016-cı il aprelin 2-də Dövlətimizə qarşı növbəti təxribatının qarşısının alınmasında qəhrəmanlıq göstərərək şəhid olmuş, Mi-24 hərbi helikopterinin ekipaj üzvü, baş leytenant Əbu Bəkr İsmayılovun qısa, eyni zamanda şərəfli həyatından, şəxsi keyfiyyətlərindən bəhs edir. Eləcə də, onun doğmaları, dostları müəllimləri və iş yoldaşlarının söylədikləri maraqlı xatirələr, kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə onun haqqında yazılanlar da kitabda öz əksini tapmışdır.

İnanırıq ki, hər bir şəhidimiz haqqında yazılan kitablar onların unudulmaması və örnək olaraq gənc nəslə hərbi vətənpərvərlik ruhunun aşılanması məqsədi daşıyacaq.

ISBN 978-9952-27-431-8

© Yaqut Bahadurqızı, 2017

## ÖN SÖZ

Qısa, lakin şərəfli ömür sürmüş Şəhid təyyarəçi baş leytenant Əbu Bəkr İsmayılovun əziz xatirəsinə ithaf olunmuş, onu tanıyanların xatirələri ilə zəngin olan bu kitab, itirilmiş torpaqlarımız uğrunda şəhid olmuş minlərlə əsgərimizin ruhu qarşısında bir müəllifin vətəndaşlıq borcu, bizim və gələcək nəsillərin bu yolu davam etdirmək çağrışı, harayı, yanğısıdır. Əsərdə Azərbaycan zabitinin uşaqlıq illərindən orta məktəb illərinədək, kursant illərindən mükəmməl zabit olmaq dövrünədək, peşəkar zabit kimi xidmət etdiyi illərdən döyüş günlərinədək olan dövr ustalıqla işıqlandırılmışdır. Müəllif şəhid zabitin ata-anasının, həyat yoldaşının və digər qohumlarının xatirələrini incə, kövrək notlarla başlasa da, sonda hər kəsin fikrini “Vətən sağ olsun!” çağrışına kökləyə bilmiş, qələbəyə inam, düşmənə qarşı ümumi nifrət hissi yarada bilmişdir. Şəhidin komandirləri və zabit dostlarının xatirələri oxucuya “Biz varıq! Bitməmişik! Olacağıq! Qalib gələcəyik!” kimi qəti fikirlər aşılamaqla yanaşı, Lələ təpə yüksəkliyində olduğu kimi, Azərbaycan Bayrağının tezliklə hərbçilərimiz tərəfindən Xankəndində, Şuşada, Laçında, Kəlbəcərdə, Füzulidə, Ağdamda, Cəbrayılda, Qubadlıda, Zəngilanda və işğal olunmuş digər şəhər və kəndlərimizdə dalğalandırılacağı günlərin tezliklə olacağına əminlik yaradır.

Baş leytenant Əbu Bəkr İsmayılovun və Mi-24 döyüş vertalyotunun digər heyət üzvləri mayor Vəlizadə Urfan Üzeyir oğlu, mayor Musazadə Təbriz Tariyel oğlunun hərbi həyatlarını əks etdirən xatirələri oxuduqca müəllifin Vətən uğrunda canından keçməyə hər an hazır olan Azərbaycan oğullarının ümumiləşmiş obrazını ustalıqla yaratdığını görürük. Müəllifin əsərdə şəhidliyin adi ölüm olmadığını, Vətən, Torpaq, böyük amallar uğrunda candan keçmək, özünü şüurlu şəkildə qurban vermək olduğunu, verilmiş ömür payını gələcək nəsillərin xoşbəxtliyinə bağışlamaq olduğunu obrazlı şəkildə oxucuya çatdırdığının şahidi oluruq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprel döyüşlərində şəhid olanların ailələri və yaralananların yaxınlarının bir qrupu ilə görüşündəki “Biz öz torpağımızda vuruşuruq, öz torpağımızı qoruyuruq! Bizim işimiz haqq işidir!” cümlələri ilə bitən nitqi Böyük Qələbəyə aparan yolda hər birimiz üçün mayak olacaqdır.

***Qabil Nəsibov***
***Ehtiyatda olan polkovnik-leytenant***

Vətənin, ölkənin müdafiəsi uğrunda şücaət, qəhrəmanlıq nümunələri göstərmiş insanlar qiymətləndirilir və unudulmur. Vətənin, ölkəmizin müdafiəsi uğrunda şəhid olmuş insanların adı daim qəlbimizdədir, onların xatirəsi bizim üçün əzizdir, onlar bizim qəlbimizdən çıxmaz, unudulmaz.

*Heydər Əliyev*

## Şəhid ailələrinin və yaralıların yaxınlarının bir qrupu ilə görüşü zamanı İlham Əliyevin nitqi

Bildiyiniz kimi, aprelin 2-də erməni işğalçıları Dövlətimizə qarşı növbəti silahlı təxribat törətmişlər, Hərbi mövqelərimizə hücum çəkmişlər. Mülki əhalini, kəndlərimizi atəşə tutmuşlar. Qəhrəman Azərbaycan Ordusu, qəhrəman əsgərlərimiz, zabitlərimiz düşmənin təxribatının qarşısını aldılar, düşmənə layiqli cavab verdilər və təmas xəttində öz üstünlüklərini daha da möhkəmləndirdilər. Birinci dəfə deyil ki, erməni işğalçıları bu təxribatlara əl atırlar. Mən dəfələrlə demişəm ki, onlar işğal edilmiş torpaqları daim öz nəzarətində saxlamaq istəyirlər, sülh istəmirlər. Beynəlxalq hüququn bütün normalarını, əxlaqi normaları pozurlar. Mülki əhaliyə atəş açırlar. Azərbaycan əsgəri, Azərbaycan zabiti heç vaxt mülki əhaliyə qarşı vuruşmamışdır, vuruşmur və vuruşmayacaqdır. Biz öz torpağımızda vuruşuruq, öz torpağımızı qoruyuruq. Bizim işimiz haqq işidir.

Azərbaycan Ordusu bu dəfə də düşmənə yerini göstərdi, onu yerinə oturtdu. Bu gün də biz tam üstünlüyü əldə etmişik... Biz müharibə istəmirik. Biz istəyirik ki, məsələ sülh yolu ilə həll olunsun... Bu təxribatı erməni tərəfi ona görə törədib ki, onlara beynəlxalq ictimaiyyət, bu məsələ ilə məşğul olan vasitəçilər tərəfindən təzyiqlər artır. Artıq heç kimə sirr deyil ki, kim işğalçıdır, kim işğalın qurbanıdır. Ona görə, danışıqlar prosesini pozmaq üçün onlar bu təxribata əl atdılar. Bu təxribat nəticəsində Şəhidlərimiz olubdur, yaralılar var. Azərbaycan xalqı bilir ki, düşmənə çox böyük sarsıdıcı zərbə vurulubdur...

Bu gün mən döyüşlərdə qəhrəmancasına vuruşmuş hərbiçilərlə, yaralı uşaqlarımızla görüşdüm, onları təbrik etdim. Bir vətəndaş, Ali Baş Komandan, Prezident kimi onlara Azərbaycan xalqı, Dövləti adından təşəkkürümü bildirdim. Biz onlarla fəxr edirik. Mən bir daha sizə təşəkkürümü bildirmək istəyirəm ki, Vətən üçün belə övladlar böyütmüsünüz.

## Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın Heydər məscidində şəhid anaları ilə görüş zamanı çıxışından

Bu gün bizim qəhrəman döyüşçülərimiz vətən qarşısında müqəddəs borcunu yerinə yetirir. Bu günlər bütün xalqımız həm qələbə sevinci, həm qələbə duyğusu, eyni zamanda, kədər içində yaşayır. Əziz analar, mən bir ana kimi sizin qarşınızda baş əyirəm. Siz elə övladlar böyütmüsünüz ki, bu gün bütün Xalq onlarla fəxr edir. Əlbəttə, heç bir ana istəməz ki, müharibə olsun, övladlarımız gənc yaşlarında dünyasını dəyişsin. Azərbaycan Dövləti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün artıq bütün səylərini göstərib. Biz istəyirik ki, bütün torpaqlarımız geri qaytarılsın. Biz istəyirik ki, insanlarımız öz doğma yurdlarına qayıtsın. Biz işğalçı deyilik, biz işğalçı dövlətlə mübarizə aparan dövlətik. Bizim heç bir başqa xalqın, millətin torpağında gözümüz yoxdur. Biz, sadəcə, öz torpaqlarımızı qaytarmaq istəyirik. Bu həqiqəti bütün dünya bilir və bu həqiqəti qəbul etməlidir. Ədalətsiz, işğalçı siyasətin qarşısını almaq üçün bizim qəhrəman ordumuz var, bizim qəhrəman övladlarımız var. Azərbaycan xalqı üçün hər bir əsgərimiz dəyərli və əzizdir. Vətən naminə dünyanın ən böyük sərvəti olan ömrünü qurban vermiş hər bir övladımız Azərbaycanın tarixində qəhrəman kimi yaşayacaq. Bu günlər bütün Xalqımız bizim ordumuza dəstək verir. Əziz analar, sizin qəlbinizdə yaşayan ağrı və kədər əminəm ki, hər bir azərbaycanlı qadının qəlbində yaşayır. Bir daha çox sağ olun. Çox sağ olun ki, belə övladlar böyütmüsünüz. Çox sağ olun ki, ömrünüzün ən ağır anlarını belə ləyaqətlə qəbul edirsiniz. Mən əminəm ki, ədalət bərpa olunacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq. Bütün qaçqınlarımız, məcburi köçkünlərimiz öz doğma torpaqlarına qayıdacaq. Bunun üçün biz güclü və birgə olmalıyıq və əminəm ki, birlikdə biz bu sınaqdan da şərəflə çıxacağıq. Allah Azərbaycanı hər zaman qorusun!

# GİRİŞ

Dağlıq Qarabağ münaqişəsinin müasir mərhələsi 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı iddiaların əsasında başlayıb. 1991-1994-cü illərdə Azərbaycanın Dağlıq Qarabağ ərazisi uğrunda Ermənistanla Azərbaycan arasında şiddətli müharibə olub. Nəticədə Azərbaycan ərazilərinin 20 faizi – Dağlıq Qarabaq və ətraf 7 inzibati rayon işğal olunub, 1 milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Hərbi əməliyyatlar 1994-cü ilin may ayında Bişkekdə Azərbaycan və Ermənistan arasında imzalanmış atəşkəs sazişi ilə başa çatıb. Dağlıq Qarabağ münaqişəsinin həlli ilə ATƏT-in Minsk qrupu məşğul olmağa başladı. 1996-cı ilin dekabrından isə Minsk qrupunun Rusiya, ABŞ, Fransadan ibarət həmsədrlik institutu fəaliyyət göstərir və münaqişənin sülh yolu ilə həllini tapması üçün danışıqlar aparır. Əfsuslar olsun ki, Ermənistan tərəfi ötən bu müddət ərzində müxtəlif bəhanələrlə münaqişənin həllini uzadıb, cəbhə xəttində atəşkəsi dəfələrlə pozub, hətta mülki əhalini də hədəfə alıb. Keçən ilin aprel ayında da erməni silahlı birləşmələri növbəti dəfə atəşkəsi pozub, təxribat törədərək mövqelərimizə soxulmağa cəhd edib. Lakin Azərbaycan ordusunun güclü müqaviməti və əks-hücumu nəticəsində düşmən geri otuzdurulub, ona sarsıdıcı zərbə vurulub, bir sıra strateji yüksəkliklər işğaldan azad edilib. Aprelin 5-də tərəflər arasında yenidən atəşkəs haqqında razılıq əldə edildi. Buna baxmayaraq, Ermənistan silahlı birləşmələri yenə də razılaşmaya əməl etmir, cəbhəyanı yaşayış məntəqələrimizi iri çaplı silahlardan, artileriya qurğularından, minatanlardan və zirehli texnikadan atəşə tuturlar.

## Şəhidlər ölməz, Vətən bölünməz!

Yadıma 90-cı illərin əvvəlləri gəldi. İcra aparatında işləyirdim. Mənə təhkim olunan iş, şəhid ailələri, Qarabağ əlilləri və aztəminatlı ailələrlə iş idi. İşim çox gərgin və çətin idi. Hər gün gözü yaşlı, dərdli, ələmli insanlarla ünsiyyətdə olmaq, onların problemlərini çözmək, şikayətlərini araşdırmaq asan iş deyildi. Demək olar ki, tez-tez cəbhə bölgəsindən şəhid olan əsgərimizin cənazəsini evlərinə aparmaq, o evdəki, həyətdəki müsibət, qıy-qışqırıq, ana-ata, sevgili, cavan gəlin, körpə uşaq harayı günlər, həftələrlə gözlərimin qarşısından getmirdi. İstər-istəməz bu dərdli insanların ələmi, kədəri gözlərimə, ürəyimə çökmüşdü...

O işdən ayrıldığım xeyli zaman olsa da, hər dəfə şəhidlər xiyabanına gedəndə, televizordan tək-tək şəhid xəbərləri eşidəndə həmin anlar gözlərimin önündə canlanır, kino lenti kimi fırlanır...

* * *

Hər kəs həmişəki yeknəsək həyatını yaşayırdı bu ilin yazının gözəl çağında.

Kimi toy-düyün, kimi ev-eşiyində, həyət-bacasında səliqə-səhman, kimi əkin-biçin, kimi də gündəlik ev, iş, məişət qayğıları ilə məşğul idi. Hər gün efirdən eşitdiyimiz qulağımızı döyənək, yağır edən “38-42-ci paralellərdə yerləşən Azərbaycan Respublikası 20 ildən çoxdur ki, Ermənistanla müharibə şəraitində yaşayır. Torpaqlarımızın 20 faizi erməni işğalçıları tərəfindən zəbt olunub. Bir milyondan artıq vətəndaşımız qaçqın düşüb, işğal olunmuş ərazilərin qeyd-şərtsiz boşaldılması haqqında BMT təhlükəsizlik şürasının 822, 853, 874, 884 saylı qətnamələri indiyədək yerinə yetirilməyib. Bu ədalətsizliyə dünya birliyi hələ də dözür…” kimi xəbər başlığı da həmişəki kimi təkrarlanmaqda idi. Aprelin biri “aldatdı günü”, “gülüş günü” olsa da heç kəs nə zarafat, nə gülüş, nə də ki, aldatma

əhvalında idi. Sakit yaz gecəsinin ahəngini pozan ağır təyyarə gurultusu ətrafa vahimə saçırdı. Hərbi xidmətini Daxili Qoşunlarda keçirmiş yoldaşım pəncərədən vahiməli, qaranlıq səmaya baxaraq:

- Allah xeyrə calasın, bunlar adi təyyarə deyil, döyüş təyyarələridir. Qarabağ səmtə uçurlar – dedi.

Və sübh tezdən bütün ölkə çalxalandı. "Müharibə başladı bu gecə, hər iki tərəfdən itki var" - cümləsi ildırım sürətilə inlanları səksəndirdi. Sonra dalbadal döyüş bölgəsindən cəbhə xəbərləri... Bu dəfə qulağımıza: "Ordumuz düşməni cavab atəşi ilə susdurdu" kimi xəbər deyil, hər kəsi silkələyən, qanını coşduran, yumruğunu düyünlədən, qisas hissini alovlandıran xəbərlər gəlməyə başladı.

- Ermənistan qoşunları təmas xəttində növbəti dəfə təxribat törədib, Azərbaycanın mövqelərinə hücum çəkib. Azərbaycan silahlı qüvvələri hücumu dəf edib, qarşı tərəf lazımı cavabını alıb.

- Azərbaycan Ordusu bir neçə strateji yüksəkliyi və yaşayış məntəqəsini düşməndən azad edib.

- Ordumuz şücaət göstərir.

- Azərbaycan Ordusu erməni işğalçılarına sarsıdıcı zərbələr endirdi.

- Döyüşlərdə ermənilərə məxsus tanklar, artileriya qurğuları məhv edilib.

- Düşmənin yüzdən çox hərbi qulluqçusu ölüb və yaralanıb.

- Əks hücum zamanı strateji əhəmiyyətli yüksəkliklər ordumuzun nəzarəti altına keçib.

- Döyüşlərdə Sillahlı qüvvələrimizin hərbi qulluqçularından da şəhid olanlar var...

Və nahayət qocalı-cavanlı, uşaqlı-böyüklü, qadınlı-kişili hər kəsin içində mürgüləyən Vətən sevgisini ildırım sürətilə oyadan xəbər:

- Horadiz şəhərinin düşməndən qorunması məqsədilə Füzuli rayonu istiqamətində yerləşən strateji əhəmiyyətli "Lələ təpə" adlandırılan yüksəklik də bölmələrimizin nəzarəti altına keçib. Lələ təpədə Azərbaycan bayrağı dalğalandı...



***Lələ təpə yüksəkliyi***

İtki xəbərləri də çox oldu. Sanki cənnət üçün seçilmiş, boy-buxulu, yaraşıqlı oğullarımızın – şəhidlərimizin bir-birinin ardınca gətirilən bayrağa bükülmüş cənazələrinə kədərlənsək də, üzülsək də, “Vətən sağ olsun!”, “Şəhidlər ölməz, Vətən bölünməz!” dedik.

Bu aprel zarafatla, gülüşlə başlamadı. Top-tüfəng, atəş səsi, qan-qadayla başladı. Bu aprel tarix yazdı deyim, tarixə yazıldı deyim, bilmirəm. Onlarla şəhid verdiyimiz kədərli aymı deyim, xalqımızın şanlı qəhrəmanlıq səhifəsini yazan, alnımızın, üzümüzün qarasını silən şərəfli aymı deyim, bilmirəm.

...Çox qızğın, gərgin döyüşlər getdi bu aprelin cəmi üç günündə. Onlarla şəhid, yaralı xəbəri, dağıntı sorağı aldıq. Ancaq bu aprelin üç günü, iyirmi beş ilin sükunətini, ətalətini, adımıza, tariximizə yazılan ləkəni yudu, Xocalı, Şuşa, Laçın, Zəngilan, Füzuli, Cəbrayıl, Xocavənd, Ağdam, Kəlbəcər, Xankəndi, Ağdərə Qubadlı itkisinin xəcalətini, ərpini, pasını çartlatdı.

Heyrətlə, vaysınmaqla qarşılamadıq bu qədər itkini, qanı. Qürurla, şərəflə baxdıq ölümün gözünün içinə.

Vətən torpağının hər bir qarışını qanı ilə murdar düşmən ləpirindən, izindən təmizləyən, hər qurşuna sinəsini sipər edən igidlərimizin nəşini coşquyla qarşıladıq, “Vətən sağ olsun!” – dedik. Cənazələrini uğrunda şəhid olduqları torpağa toy-düyün kimi, izdihamla, təm-təraqla, bayraqla tapşırdıq. Körpəsindən qocasınadək “Şəhidlər ölməz, Vətən bölünməz!” – dedik.

## Toy sürprizi

**Yuxuda ağ köynək geymişdim, ana,**
**Ağ köynək ağ günün ağ yollarıymış.**
***Zəlimxan Yaqub***

Həyətdə toy hazırlığı sona çatmışdı. Hər yer səliqə-sahmanda, qırmızı parçalar, lentlər ağaclardan, qapılardan asılmışdı. Toy şadlıq evində olacaqdı. Buna baxmayaraq, həyət cavanlarla dolub-boşalırdı. Qız-gəlin, qohum-qonşu - hamı geyim-kecimli ora-bura qaçışır, heç bir əyər-əskik qalmamasına çalışırdılar. Günortadan bir neçə dəfə qaynayıb boşalan samovar yenə tüstülənirdi. Çalğıçılar, ağsaqqallar, qız-gəlin üçün həyətdə stol-stul düzülmüşdü. Əbu Bəkirin dostları maşınları bəzəyirdilər. Göy, qırmızı, yaşıl - bayrağımızın rəngində lentlər eyni qaydada maşınlara bağlanmışdı. Əbu Bəkr “gəlin maşını”nın bəzəyi ilə şəxsən özü məşğul idi. Lentləri, gülləri bağladıqdan sonra, bükülü bayrağı açıb maşının qabağına bağladı. Sonra gördüyü işdən zövq alan kimi kənardan maşına baxıb gülümsündü.

- Hə, hər şey qaydasındadı. Gedim geyinim. Gecikmək olmaz, - dedi.

Artıq musiqiçilər gəlmişdi. Həyətdə çal-çağır başlamışdı. Xonçalı, güzgülü, şamlı qızlar oynayırdılar. Bəy atası Vüqar telefonla şadlıq evində hazırlığın vəziyyəti ilə maraqlanır, son tapşırıqlarını verirdi. Əkbər maşınlarda gedəcək adamların bölgüsünü aparırdı. Rəna isə, yerimirdi, sanki uçurdu. Gah çalanlara nəmər verir, gah qolunu qaldırıb süzə-süzə oğul toyunun sevincini yaşayır, gah da bəy otağının qapısına bağladığı tülün büküklərini düzəldirdi. Həsrətlə oğlunu bəy geyimində görünməsini gözləyirdi. Ürəyi quş kimi çırpınır, hövsələsi daralırdı.

- Əbu, oğlum, nə yaman ləngidin, gəlim kömək edim?



- Yox, ay ana, hazıram, Vahid yanımdadı. Hamı həyətə düşsün, elə sən də. İndi çıxıram. Rəna başa düşdü ki, Əbu Bəkr sürprizinin daha maraqlı olması üçün hamını birdən təəccübləndirmək istəyir.

Əbu Bəkr toyda onlara möhtəşəm bir sürpriz edəcəyini demişdi. Maraqdan az qala bağrı çatlasa da, oğlunun xasiyyətini bildiyi üçün, artıq bir kəlmə də soruşmurdu.

Nəhayət, bəy otağından çıxıb qapıda göründü. Musiqi səsi qəfil kəsildi. Həyətə yığılan toy əhli heyrətdən dondu. Tel-tumarlı, ağ rəngli, general libasına bənzər hərbi geyimli bəy – Əbu Bəkr qeyri-adi sürprizi ilə hamını təəccübləndirə bilmişdi. Sükutu dostları pozdu. Fit çalan kim, əl çalan kim...

Rəna oğlunun generala bənzər görkəminə, boy-buxununa baxıb fərəhdən, sevincdən ağladı.

- Bu ağ general libası balama nə gözəl yaraşdı. Allahım, sən özün balamı nəzərdən qoru! Geydiyin ağ libas kimi günün də ağ olsun, oğlum!

Vüqar fəxrlə oğlunu süzüb, dolmuş gözlərini silib, pıçıldadı:

- Niyyətin hara, mənzilin də ora. Sən, doğrudan da general olacaqsan...

Əkbər isə qardaşının boynuna sarıldı. Cavanlar onu dövrəyə alıb, rəqs etməyə başladılar...

Xalalar, bibilər üzərlik yandırdılar, artıq gəlin gətirmək üçün yola düşən maşın karvanının arxasınca su atdılar...

## Bu qala, daşlı qala...

Bir həftənin yorğunluğu, səs-küyü, gərgin, kədərli anlarından ac-susuz, yuxusuz, gözü yaşlı Rənanın solğun bənizinə, şişkin gözlərinə baxıb, onu yalvar-yaxar yataq otağına keçirən bacısı xısıltıyla Şəbnəmi göstərib dedi:

- Özünə yazığın gəlmir, heç olmasa bu uşağa yazığın gəlsin. Sənə baxıb o da yemir, içmir, yatmır. Səbrli ol. Ac-susuz, yuxusuz qalmaqla, özünüzü üzməklə nə qazanacaqsız? Keç, otağına, keç bircə hovur çimir elə, o gəlin də azca dincəlsin...

Bu boyda gərginlik, nigarançılıqla yatmaq, dincəlməkmi olardı?! Şəbnəmi düşünüb, əlacsız yerinə uzandı, gözünü məchul bir nöqtəyə dikib, Əbu Bəkirin son gedişini anbaan xatırlamağa başladı...

* * *

Martın 31-i idi. Son günlər təmas xəttindəki gərginlik bir az canını sıxsa da, işinin başında idi. Əbu Bəkirin zəngi onu bir anlıq işdən ayırdı.

- Salam, ana. Necəsən?

- Can, bala, salam! Yaxşıyam, başına dönüm, təki, sən yaxşı ol! İşdəyəm.

- Yaxşıyam, yaxşıyam, narahat olma. Bir azdan yola çıxırıq, Fizuliyə gedəcəyik. Əvvəl rayondakı hərbi hissəyə baş çəkməliyik. İmkan olsa, yolüstü evə gələrəm. Amma, tədarük görmə. Bilmək olmaz, vaxt olacaq, ya yox.

- Mən gözləyəcəm, ana qurban.

İşdən qayıdan kimi axşam yeməyinə Bəkirin sevdiyi yeməklərdən hazırladı. Ev-eşiyin səliqə-səhmanına göz gəzdirib, həyətə düşdü...

Artıq şər qarışmışdı. Vüqar həyətdə ağacları sulayırdı, Əkbər isə yoldaşları ilə şəhərə çıxmışdı.

Rəna gah açılmış süfrəyə, gah pilətə üstündə buğlanan çaydana,

qazana, gah da divardakı saatın əqrəblərinə baxaraq, böyük otaqda o baş, bu başa var-gəl edirdi. Əbu Bəkrgil gedən bircə həftə olsa da, sanki, illərlə görmədiyi oğlunun yolunu gözləyirdi...

Dəmir darvazanın səsi gəldi. Pəncərədən Əbu Bəkirin boyunu görəndə, Rəna özünü həyətə atdı. Ana-bala illərin ayrısı kimi görüşdülər.

- Hər şey hazırdı, ana qurban. Sən əl-üzünü yuyana qədər yeməyini çəkim - dedi.

Əbu Bəkr əvvəl dəstəmazını alıb, namazını qıldı və " Bismillah" deyib əlini çörəyə uzatdı...

Rəna, soyuyan yeməyinə əl uzatmadan əlini çənəsinə dirəyib oğlunun iştahla çörək yeməsinə elə diqqətlə baxırdı ki, sanki bir daha onu görməyəcəkdi.

- Bəs, sən niyə yemirsən? Yeməyin nimçədə qalıb, - Əbu Bəkr anasının sual dolu baxışlarını yayındırmaq üçün araya söz saldı.

- Mən ac deyiləm, bişirə-bişirə bir az dalanmışam - narahatçılığını gizlədən Rəna oğluna şirə süzdü.

Bayaqdan televizora baxan Vüqar da ehtiyyatla soruşdu:

- Cəbhədən nə xəbər var?

- Narahat olmayın, hər şey yaxşı olacaq.

Bu qısa, həm də kəskin cavab qardaşı Əkbəri də sual verməkdən çəkindirdi.

- Ana, gecə zəng etsələr, mən tez gedəcəyəm. Səni oyatmasam, narahat olma. Yorğunam, mən bir az dincəlim. Gecəniz xeyrə qalsın! - deyib otağına keçən Əbu Bəkr kiçik yol çantasını, saatını çarpayısının yanına qoydu...

Rəna Əbu Bəkirin səhər tezdən vaxt itirməməsi üçün hər şeyi hazır qoyub, barmağının ucunda oğlunun otağına keçdi. O, şirin-şirin yatırdı. Rəna bir xeyli oğlunu süzdü. Əlini saçlarına çəkmək istəsə də, oyanacağından ehtiyyat edib, fikrindən daşındı. Əyilib xəfifcə alnından öpdü.

- Allah sizi qorusun! – pıçıldadı...

Əbu Bəkr heç kəsi durğuzmamaq üçün nə qədər ehtiyyatla, asta hərəkət etsə də, Rəna artıq mətbəxdə idi.

- Tələsmə, qayğanağı sonacan ye!... Baldan mütləq dad, ürəyində durum olsun... Çayını şirniyyatla iç... Sanki ana ürəyi oğlunun ata evindən son ruzisini götürdüyünü duymuşdu...

Ana-bala bir-birinə sarıldılar. Rəna başını oğlunun sinəsindən, əllərini kürəyindən ayırmaq istəmirdi. Balası bu gün körpə uşaq kimi daha şirin, daha yaraşıqlı, daha ətirli idi və bu ətri, şirinliyi ana son dəfə hiss edəcəkdi...

- Ana, gecikə bilərəm. Bax, əsirsən, soyuqdu, qayıt evə.

Əbu Bəkr maşını işə salıb, şüşədən son dəfə alatoranlıqda əlində su qabı tutmuş anasını, evlərini süzüb gülümsündü, əlini yellədi və uzun, ağır, dönüşü olmayan, sonu müqəddəs məkan olan bir yola çıxdı....

Hələ də həyətdə, qapı ağzında donub qalmış Rəna isə titrəyirdi. Aprel səhərinin sazağı, xəfif rüzgarı idimi, yoxsa, ayrılıq qoxusu idimi onu titrədən?...

Uzaqdan, radio dalğalarından musiqi sədası gəldi qulağına:

**Bu qala daşlı qala,**
**Çınqıllı, daşlı qala.**
**Qorxuram gəlməyəsən,**
**Gözlərim yaşlı qala....**

* * *

**Rənanın dediklərindən:**

Səhər saat 9 idi. İşə təzə çatmışdım. Telefonuma zəng gəldi. Bildim ki, Əbu Bəkr olacaq. Hal-əhval tutdum:

- Nə var, nə yox, Əbu. Vəziyyət necədi? Özün necəsən? Səndən nigaranam.

- Narahat olma, ana. Vəziyyət burda çox yaxşıdı. Mən lap əlayam, irəliləyirik.

Çaş-baş qaldım, sanki yuxudan ayıldım.

- Necə yəni irəliləyirik? Müharibədi?

- Mənə zəng eləməyin, zəng çatmayacaq. Özüm zəng vuracağam.

Əbu Bəkr elə tez-tələsik danışdı ki, suallarım ağzımda qaldı. Sən demə, ikinci dəfə döyüşə qalxırlarmış. Tez bibisinə zəng vurdum ki,

Əbu Bəkirlə danışdım. Məndən sonra ona da zəng vurub ki, narahat olmasın. Səhər tezdən Şəbnəmə də zəng vurubmuş. Ona da deyib ki, Lələ təpəni düşməndən geri almışıq, bayram edirik. Bir də, ikinci döyüşə qalxanda təkrar Şəbnəmə zəng edib, - gedirik düşməni biçməyə...

Bir də, Elşad adlı yoldaşı xəstələnibmiş. Sonralar bizə gələndə Elşad mənə danışdı ki, hamı yeməyə gedib, Əbu Bəkr onun yanında qalıb. Aptek tapıb, dərman alıb. Dərmanları içirəndən sonra, isti çay verib, üstünü basdırıb ki, tərləsin. Bir neçə saat sonra döyüş əmri verilib...

Saat 12-yə qalırdı, hiss elədim ki, işləyə bilmirəm, istilənirəm, həyəcanlanıram. Şənbə günü qısa iş günü olduğu üçün, mən adətən, 3-ə, 4-ə qədər işləyirdim. Həmin gün mənimlə işləyən bacım qızına dedim ki, dur gedək, özümü narahat hiss edirəm. İşdən evə qədər olan məsafəni o qədər sürətlə getdim ki, elə bil, kimsə məni qovurdu. Əbu Bəkirə zəng vurdum, zəng çatmadı. Başımı ev işlərinə qatsam da, əlim telefonda qalmışdı. Telefona gah zəng çatmır, gah da məşğul göstərirdi. Öz-özümə deyirəm ki, yəqin komandirlə danışır. İncik-incik gileyləndim ki, niyə mənə bircə kəlmə demir ki, ay ana, narahat olma, yaxşıyam. Artıq günorta saat 3 idi. Yenə telefona zəng çatmırdı. Məni ağlamaq tutdu. Bacımgilə dedim ki, bu iş xeyirə oxşamır. Ürəyimə damıb ki, Bəkirin başında nəsə var. O, heç vaxt məni narahat qoymazdı, mütləq zəng edərdi... Az keçmiş Şəbnəm zəng elədi ki, Bəkirin dostu Faiqin anası Qəmər xala zəng edib deyir ki, Füzuliyə yasa gedirlər. Bəkir də xahiş edib ki, Şəbnəm tək qalmasın, onu da götürün, yolüstü Kürdəmirə - evimizə düşürərsiz.



***Ağ atım, dəmir atım,***
***Uçum, murada çatım...***

Bu sözdən şübhələndim, ürəyim çırpınmağa başladı:

- Ay bala, Əbu Bəkr sənə niyə zəng vurmayıb? Ona zəng çatmırsa, Faiqə necə zəng vurub?

- Bibi, Bəkir olan yerdə şəbəkə yoxdu. Uşaqlara - yoldaşlarına tapşırıb ki, Faiqə xəbər etsinlər.

Ürəyimdə ümid qığılcımı yandı ki, ola bilər, telefon işləməz, başqasına zəng elətdirər...

Həmin dəqiqə oğlum Əkbər zəng elədi:

- Ana, Əbu Bəkirlə danışmamısan? Mən yığıram, zəng çatmır. Vəziyyət çox gərgindi cəbhədə, müharibə gedir.

- Yox, səhər danışdığımdı. Zəng çatmır. Mənə dedi ki, özüm zəng vuracağam – dedim.

Telefonda onun həyəcanla ağladığını eşitdim. Əkbərin ürəyi zəif olduğundan xalası oğlunu göndərdim ki, onu evə gətirsin. Narahat olsam da, Əkbəri sakitləşdirmək istəyirdim. O isə telefonda nəsə axtarırdı. Həyətə düşdü, küçəyə çıxdı. Sonra telefon əlində qışqıra-qışqıra geri qayıtdı:

- Bəs deyirsən qardaşıma heç nə olmayıb?! Qardaşım şəhid olub. Şəklin qoyublar internetə...

Dünya gözümdə qaraldı. Ağ kostyumda, toy paltarında şəklini gördüm, üzümü çevirdim, baxmaq istəmədim, qışqırdım:

- Yox, ola bilməz, Əbu Bəkr ölə bilməz. Mənim balam mənə deməmiş ölə bilməz.

Əbu Bəkr məni elə inandırmışdı ki, məndən icazəsiz, mənə demədən heç bir iş görə bilməz, hətta, ölə də bilməz. İnanmırdım, inanmaq istəmirdim...

Bir az özümə gələndən sonra dostlarına - Elvinə, Sadiqə, Faiqə zəng vurdum. Telefonu açmadılar. Artıq həyət dolmuşdu adamlarla, hamı bilirmiş. Təkcə eşitməyən, eşitmək istəməyən bizikmiş...

Sən demə, mənim başım telefona – Əbu Bəkirə zəng etməyə qarışanda, hamı onun şəhid olması xəbərini eşidibmiş. Dostları, tanışları onun telefonuna zəng vururmuşlar. Ona görə telefonu məşğul imiş. Və bu məşğulluq məni bir az ümidləndirmiş, bir az oyalamışdı...

Şəbnəm həyətə girəndə, artıq başa düşüb ki, Bəkirə nəsə olub, onu aldadıb gətiriblər. Onun alacalanmış gözlərində donan suallara, leysan kimi axan göz yaşlarına dözmək çətin idi. Öz dərdimi unudub Şəbnəmi qucaqladım:

- Qorxma, bala, qorxma, ölməyib, yaralanıb, ayağından yaralanıb. Allahın mənə dedirtdiyi sözə baxın. Mən heç bilmirdim ki, o, bir ay deyilmiş ki, ayağından zədələnibmiş. Həmin zədəli ayağına da düşmən gülləsi dəyibmiş...

Aprelin 2-dən 10-na qədər - tabut evə gətirilənə qədər, Allah mənə dözüm verdi. İnanmırdım ölümünə, ümidimi itirmirdim. Özümü inandırmağa çalışırdım ki, ölməyib, yaralıdı, əsir düşüb, alınacaq, gələcək... Özümdən xəyal uydururdum ki, vurulub, düşüblər meşəyə. Əbu Bəkr yaralı yoldaşlarını yəqin sürüyüb təhlükədən uzaqlaşdırıb, gizləniblər. Bizim əsgərlər onları axtarıb tapacaqlar, mütləq tapacaqlar... Uydurduğum bu şirin nağılla, xəyalla, ümidlə 9 gün ac-susuz, yuxusuz balamın yolunu gözlədim...



***Vida gecəsi***

## O, Şəhid anasıdır...

**Həm şəhid olanlar, həm də onların valideynləri nə qədər pak, nə qədər vicdanlı insanlardır!**

***Heydər Əliyev***

Yanvarın əvvəli idi. Rənanın Bakıdan, müalicədən qayıtdığını eşidib, zəng etdim, hal-əhval tutdum, görüşmək istədiyimi bildirdim:

- Rəna bacı, müalicən qutardısa, səhətin imkan verirsə, yarım qalan işimi davam etmək, Əbu Bəkirin xatirəsinə başladığım kitabı bitirmək istəyirəm. Görüşək, söhbətləşək, - dedim.

Apreldən 9 ay keçmişdi. 9 ayda insan nə qədər dəyişə bilərmiş, nə qədər yaşlana bilərmiş... Çox sınıxmış, gözləri çuxura düşmüş, bənizi solmuşdu Rənanın.

Baxışlarını məchul nöqtəyə dikib, fikirə getmişdi. Əvvəllər şən, mehriban, danışıb-gülən, əlindən-ayağından od tökülən Rəna çox susqun və qəmgin idi. O, sanki canlı deyil, ruh idi. Ağır-ağır nəfəs alırdı, səsi də zəifləmişdi. Əbu Bəkirin şəhid xəbəri gələndən, dəfninə qədər, hər kəsin qarşısına vüqarla çıxan, “Mənim balam ölməyib, “Vətən yolunda şəhid olub” deyən, heç kəsi ağlamağa qomayan qürurlu ananın beli bükülmüş, qəddi əyilmiş, gözlərinin nuru sönmüşdü sanki.

Onun bu halına baxıb astaca soruşdum:

- Rəna bacı, narahat görünürsən, söhbət edə bilərikmi?

Çox asta, zəif, titrək səslə:

- Yaqut xanım, mən 9 aydı xəyalnan yaşayıram. Mənim balam heç bir əskiyi, qüsuru olmayan, mükəmməl övlad, şəxsiyyət idi. Hər işi, hər addımı bizə ancaq baş ucalığı, iftixar gətirib. Ölümü də fəxarətli, şərəfli oldu. Vətən sevgisi ilə böyüdü, yaşadı, Vətən sevgisi ilə də Şəhid oldu. Arzusu da bu idi. Arzusuna çatmasına,

qəhrəmancasına Şəhid olmasına, əbədi ad, müqəddəs zirvə qazanmasına görə oğlumla fəxr edirəm. Ancaq, mən anayam, qeyrətli, qayğıkeş, sağlam, yaraşıqlı, savadlı, boy-buxunlu, oğul itirmişəm. Arzuları yarım qalan, evinin çırağı sönən, sevdiyini boynu bükük, ata-anasının, qardaşının gözün yolda qoyan arxa-dayaq itirmişəm. Söz-söhbətimə sirdaş, həmdəm itirmişəm. Üç bacıma vermədiyim sirrimi bölüşdüyüm sirrdaşım, yoldaşımdan, qardaşımdan daha çox güvəndiyim dərddaşım, həm də, qız övaladı qədər canıyananım, həmdəmim idi Əbu Bəkr. Mən 9 aydır ki, içimdə, ürəyimdə, yuxularımda danışıram balamla. Qəlbimdən keçənləri bir az yazmışam bu kağıza. Əlində tutduğu qatlanmış vərəqi mənə uzatdı. Daha heç nə soruşmadım. Mən də ana idim, onu çox gözəl başa düşürdüm. Təsəlli verməyə, ovutmağa da aciz idim. Səssiz, lal baxışlarımızı yerə zillədik. Hər ikimizin yanağından damcılayan göz yaşı, içimizdə qaynayan qəm bulağı idi sanki... O bulağın züm-züməsində bala itirən anaya layla çalınırdı:

**Kür deyil, Ana sudur,**
**O, Şəhid anasıdır.**
**Qəddin əyən, ay ellər,**
**Qəhrəman balasıdır...**

Əziz oxucu, Rənanın ürək sözlərini xırdaca düzəlişlə, hisslərinə, düşüncələrinə, xəyallarına toxunmadan sizə təqdim edirəm.

* * *

Əbu Bəkr Azərbaycan şəhidlərinin sədası bütün dünyaya yayılan, qərənfil şəhid qanına bələnən bir zamanda - 20 yanvardan 21 gün sonra, 10 fevral 1990-cı ildə, at ilində dünyaya gəldi. Deyirlər at müharibə, döyüş deməkdir. Bir deyim də var: At arzu, muraddır. Əbu Bəkr azadlıq, müstəqillik uğrunda başlanan savaşla - 20 yanvarla doğuldu və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda başlanan müharibə - 2 aprel ilə də şəhid olub dünyasını dəyişdi. Döyüşdü, vuruşdu və torpaqlarımızın qismən də olsa bir qisminin düşməndən azad olunmasında böyük şücaət göstərərək muradına, arzusuna çatdı.



***8 aylıq Əbu Bəkr***

Əbu Bəkr Azərbaycan bayrağının Lələ təpəyə sancılmasında, minlərlə hektar torpağımızın düşmən tapdağından azad olunmasında öz döyüş, ekipaj yoldaşları ilə birlikdə dastanlara yazılacaq bir qəhrəmanlıq göstərdi. Torpağını, ailəsini, Vətənini, Xalqını sevən və qorumağı bacaran oğul öz cavan canı üçün bir an belə qorxmadı, çəkinmədi.

10 fevral - ilk övladım Əbu Bəkirin doğulduğu gün, mənim həyatımın ən əziz, ən şirin günü idi. Sağlam doğulmuşdu. Doğum evində qoluna bağlanan qol bəndini hələ də sandığımda saxlamışam: Çəkisi 3,7 kiloqram, boyu 52 santimetr. Hər dəqiqəsi, hər saniyəsi yadımdadı. Gözlərimin qabağından getmir. Çox sakit, gözəl, həssas uşaq idi. Deyirlər ki, adətən, qız uşağı diribaş olur, tez yeriyir, tez dil açır, möhkəm olur, ancaq Əbu Bəkr digər oğlan uşaqlarından fərqli idi. Tez-tez xəstələnməzdi, yaxşı inkişaf edirdi. Beş aylığında nənnisinin kənarlarından tutub qalxmağa çalışırdı. 7 aylığında divanın küncünə söykəyib otuzdururdum, əlinə oyuncaq verirdim ki, oynasın, mən də ev işlərinə əl yetirim. Bir gün gördüm ki, divanın kənarından tutub qalxmaq istəyir. Nənəsinə dedim ki, daha bundan nəzərimizi çəkməyək, qalxmaq, hərəkət etmək istəyir. Artıq 8 aylığında divandan, divardan tuta-tuta gəzirdi. Nənəsi nəzərə gələcəyindən qorxur, üzərrik yandırıb başına dolayırdı. Almanı çəkib püresini qaşıqla yedizdirmək istəyirdim, qaşığı itələyir, əlini almaya uzadırdı. Mən də almanı soyub, bütöv



***Rəna 2 yaşlı Əbu Bəkirlə***

verirdim əlinə. Bir də baxırdım ki, ikicə dişi ilə almanı yeyib qurtarıb, heç üstünə də tökməyib... Şirin, çox şirin uşaq idi, dili ilə hamının diqqətini özünə çəkirdi... Yatızdıranda saçını sığallayardım, o da mənim saçımı oynada-oynada yatardı... Sonralar, Bakıda oxuyan vaxtlarında da rayona gələndə, gecə yatan zaman məni yanına çağırar, başını dizimin üstünə qoyub:

- Söhbət elə, görək nə var, nə yox, - deyərdi. Bilirdim ki, darıxıb balam əlimin sığalı üçün...



***3 yaşlı Əbu Bəkr***

Bir ana kimi mən oğlumun mərdliyinə lap kiçik yaşlarından bələd idim. Dediyi sözün üstündə durmaq, vədinə əməl etmək, hər işi dəqiqliklə görmək, özündən əvvəl ətrafdakıları düşünmək, kimlərəsə yaxşılıq etmək ona məxsus xüsusiyyətlər idi. Həyatın mənası ömrün uzun və ya qısa olmasında deyil. Onun əsas mənası, bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdadır.

Hərdən Şəbnəmlə oturub dərdləşirik.Bir-birimizə təskinlik veririk ki, Əbu Bəkr başqa cür ölə bilməzdi.Ona Şəhidlikdən qeyri ölümü yaraşdıra bilmirik. Onun arzusu Vətən uğrunda Şəhid olmaq idi, arzusuna da çatdı.

Əbu Bəkr həyatda az yaşadı, amma nümunəvi ad qazandı.

Oxuduğu orta məktəbdə, Ali Hərbi Təyyarəçilik məktəbində, C.Naxçıvanski adına hərbi liseydə, Milli Aviasiya Akademiyasında və işlədiyi hərbi hissədə, qohumlar, dostlar arasında sakit təbiəti, dərin düşüncəsi, zəkası ilə özünə layiqli yer tutmuş, etibar qazanmışdı. Bunları mən desəm, qeyri-təvazökarlıq etmiş olaram, öz dostları, hərbçilərin fikirləridi. Kursant yoldaşları əbəs yerə onu özlərinin lideri adlandırmırdılar. Yoldaşlarının toy məclislərində həmişə söz Əbu Bəkirə verilərdi. Çünki onlar onun natiqliyinə, söz

deмək qabiliyyətinə, hələ C.Naxçıvanski adına liseyi bitirəndə, buraxılış tədbirində generallar, mayorlar, polkovniklər, müdafiə nazirliyindən gələn nümayəndələr qarşısında, heç bir yazıdan istifadə etmədən söylədiyi çıxışından bələd idilər. Bir müdavim dostunun toyu zamanı, toy qurtarandan sonra, oğlanın atası Əbu Bəkirin alnından öpərək deyib:

Toy başlamazdan mən çox həyəcanlı idim, oğlumun anası olmadığı üçün bu toyun çox sönük keçəcəyini təsəvvür edirdim. Amma sənin öz dostlarınla və söylədiyin təbrik çıxışınla məclisə gətirdiyin əhval-ruhiyyə mənim həyəcanımı tamam yox etdi. Sənin toyunda oğlumla bərabər özüm də iştirak edəcəyəm.

Əbu Bəkr atasız, anasız uşaqlara kömək etmək, onları sevindirməkdən zövq alırdı. O, belə anlarda qəlbən rahatlıq tapardı. Ölümündən sonra bizə tez-tez baş çəkən dostlarından Ruslan danışdı ki, atam dünyasını dəyişdiyi üçün toyum ərəfəsində təşkilatçılıq eləmək, ev-eşiyə əl yetirməkdə çətinlik çəkirdim. Əbu Bəkr toydan bir gün qabaq harayıma çatdı. Elə canfəşanlıqla işləyir, hər işin dalınca elə yüyürürdü ki, doğma qardaş belə can yandırmazdı. Atamdan sonra ağsaqqalım olan əmim, dayım Əbu Bəkirin toya xüsusi ab-hava, şənlik, şuxluq verdiyini görüb, məclisin ağsaqqallığını da ona həvalə etdilər. Elə o vaxtdan da Əbu Bəkiri özümə təkcə dost yox, həm də arxa, dayaq bildim.

Hərdən Ruslan mənə zəng vuranda tez-tez xatırladır:

- Bəkir mənə ömrüm boyu unuda bilməyəcəyim yaxşılıqlar edib. Anam kimi sizə həmişə qulluq eləməyə hazıram.

Təkcə toy məclisində deyil, yas məclislərində də o, dostlarına dayaq olar, doğmalarından tez Əbu Bəkr özünü onlara yetirərdi. Oğlum bir dəfə mənə belə demişdi: - Həyatda yaxşılıqdan gözəl şey yoxdu. O zaman onun hələ 21 yaşı var idi. Çalışırdı ki, gördüyü işlərin hamısı xeyirli olsun, kimsə ondan faydalansın. Ən yaxın dostu Sadiq rayona gələndə, evlərinə getməmiş birinci mənim qapımı açır, görüşür, bayramlaşır, sonra evlərinə gedir. Xiyabana, qəbir üstə gedəndə də çox vaxt onu orda görürəm. Söhbət eləyəndə gözümün içinə baxmır ki, dolduğunu görməyim... Ömür vəfa

etsəydi o, öz dost və tanışları arasında özünün necə sədaqətli dost, cəsur oğlan, etibarlı sirdaş, mərd yoldaş, bir sözlə, bütün insani keyfiyyətlərin hamısını özündə cəmləşdirən şəxsiyyət olduğunu sübuta yetirə-yetirə yaşayacaqdı. Cəmi 26 il - qısa bir ömür sürdü. Şərəfli, ləyaqətli, ağıllı, savadlı, cəmiyyət üçün yararlı. Amma bu qısa ömürlə yaddaşlardan silinməyəcək bir iz buraxdı. Vətənin, torpağın azadlığı üçün canından keçdi, şəhidlik zirvəsinə yüksəldi. Şəhidlik şahidlik deməkdir. Ölümlə üzbəüz durmaqdır. Birinci dəfə döyüşə atılıb, ölüm-dirim mübarizəsinin canlı şahidi olub. Çəkinmədən ikinci döyüşə atılıb, ölümün gözünün içinə dik baxıb. Düşməni məhv etmək, verilən döyüş tapşırığını yerinə yetirib, Şəhid olmaq. Bax, budur əsl şəhidlik və ölümə şahidlik.

Uşaqlıqdan çox qoçaq idi. Uşaq olmasına baxmayaraq mükəmməl, işini dəqiq icra edən idi. Ona tapşırdığım işdən heç bir narahatlıq hiss etməzdim, bilirdim ki, o, bu işin öhdəsindən layiqincə gələcək. Deyərdim ki, Əbu Bəkr çox rahat insan idi. Heç vaxt qarşı tərəfə narahatçılıq yaratmazdı. Hər nə qədər yorğun olsam belə, onun bir telefon zəngindən yorğunluğum çıxar, ruhum dincələrdi. Hər bir insanın həyatda çətinliyi, problemi olur. Həmin anlarda Əbu Bəkirin bircə anlıq səsini eşitmək mənə bəs edirdi. Sadəcə, ona zəng edirdim, hal-əhval tuturdum. Bununla da, bütün gərginliyim yox olurdu.

Onunla tanış olan insanlarda da ilk baxışdan xoş təəssurat yaradırdı.

Çünki, o, çox səmimi, mədəni, hər bir hərəkətinin, sözünün yerini bilən, nəzakətli, ağıllı idi. Həm də, Əbu Bəkirim çox yaraşıqlı, gözəgəlimli oğlan idi. Hərdən dost-tanışları arsında hər cəhətdən seçildiyini görəndə, bu qədər cismani, fiziki, mənəvi gözəlliyə malik olmasından qürurlansam da, gözə gələ biləcəyindən qorxardım. Onun haqqında ötənlərdən danışmaq mənim üçün çox ağırdır. Tale onu məndən heç cismani də ayıra bilmədi. O, hər gün gözümün önündə durub mənimlə danışır, hər saniyə onunla söhbət edir, dərdləşirəm. Bir an belə, o, mənim fikrimdən, gözümdən çəkilmir. Gecənin hansı saatında gözümə yuxu getsə, ona qədər

mən onunla söhbət edirəm. Hər gecə yuxuma gəlməsini istəyirəm. Yuxuma gələndə də həyatda olduğu kimi mənə təskinlik verir. Darıxma ana, yaxşı olacaq - deyir. Təkcə üzünü, gözlərini məndən gizlədir...

Əbu Bəkr 8 mart qadınlar bayramında məni zənglə, mesajla yox, şəxsən, gəlib təbrik edərdi. Sonuncu dəfə təlimdə idi, zəng edib üzrxahlıq elədi ki, gələ bilmirəm. Dedim, heç narahat olma, həmişə gəlmisən. Sənin bir zəngin mənə bəsdi.

Gecə saat 12 idi. Son xəbərlərə baxıb yatmaq istəyirdim ki, qapı açıldı. Gözlərimə inanmadım, Əbu Bəkr gəlmişdi. Təlaşlandım:

- Nə olub, niyə qəfil gəlmisən?

- Səni təbrik etməyə gəlməsəydim narahat qalardım, - deyib boynumu qucaqladı. Çox xoşladığı fransız ətrini mənə hədiyyə almışdı. Səhər saat 6-da qayıdacaqdı. O ki var danladım ki, gecənin bu vədəsində o boyda yolu gəlib, tezdən qayıtmaqla canına qəsd edirsən...

Balamın son hədiyyəsini açıb istifadə edə bilmədim. Sandıqda saxladığım miras paltarlarının - üstü imzalı, yazılı məzun köynəyinin, buraxılışda geydiyi hərbi formasının, son günü geydiyi palçığı qurumuş çəkmələrinin yanına qoydum. Vəsiyyət etdim ki, məni məzara bunlarla qoyarsız. Ətri də məzarıma səpərsiz...




***Düzər tər qərənfil məzarı üstə,***
***Oxşayar balasın Şəhid anası***

## Yaşasaydı, mütləq general olacaqdı...

**Hər gün küçəmizdən sakit, dərin düşüncələrə dalmış, düşüncələri kimi ağlı-qaralı saçları da dalğın bir adam keçir. Kimsəni görmədən, kimsəni eşitmədən, eləcə, öz aləmində. Salamlaşmaq, hal-əhval tutmaq istəyirəm, qıymıram.Xatirələrlə, düşüncələrlə yaşayir. Səfini dağıtmaq istəmirəm xatirələrinin, düşüncələrinin. Bu adam-Əbu Bəkirin atası Vüqar İsmayılovdur. Özünə qapanan, xatirələri ilə baş-başa qalmaq istəyən Vüqarı tək bircə dəfə söhbətə çəkə bildim…**

* * *

Əbu Bəkr qeyri-adi uşaq idi. 2001-ci ilin payızı idi. Evimizə təzə köçmüşdük. Bəkirin 11, Əkbərin isə 9 yaşı vardı. Uşaqları da götürüb atamgilə getdik. Bir qədər oturduqdan sonra, Əbu Bəkirə dedim ki, qardaşını da götür gedin evimizə, ananla bizim gedəsi yerimiz var.

Uşaqlar evə getdilər, biz də işimizin dalınca yollandıq. Bir-iki saat keçmişdi, birdən yadımıza düşdü ki, darvazanın açarını uşaqlara vermişik, evin yox.

Tələsik evə qayıtdıq. Eyvana yaxınlaşanda gözümüzə inanmadıq. Sazaq havada Əbu Bəkr eyvanın küncünə qısılıb oturmuşdu, qardaşını ayaqlarının üstündə otuzdurub, üşüməsin deyə bərk-bərk qucaqlamışdı. Kövrəldik. Həmən hadisəni xatırladıqca, əzab çəkirəm.



***Bəxtəvər günlərdən xatirə***

Evimizdə qız uşağı olmadığı üçün uşaqlar ev işlərində analarına yardım edirdilər. Biz səhər işə gedəndə anası bölgü edərdi. Əbu Bəkr öz işlərini

bitirib, Əkbərin də işlərinə yardım edərmiş ki, axşam anası evə qayıdanda onu danlamasın.

Əkbər çox dəcəl idi. Onu tez-tez danlayırdım, bəzən cəzalandırırdım da. Ancaq Əbu Bəkiri danladığım, cəzalandırdığım yadıma gəlmir. O, çox təmkinli, ağıllı, diribaş, cəsarətli uşaq idi. Onun qərarlarına qarışmaz, fikirlərinə, arzularına qarşı çıxmazdım. Güvənirdim ona, arxayın idim ki, düşünülməmiş addım atmaz, yüz ölçüb, bir biçər, sonra qərar verər.

Elə C.Naxçıvanski adına Hərbi Liseydə oxumaq da uşaqlıq arzusu idi.

**- Bibisinin oğlanları hərbiçi idi. Bəlkə onlara baxıb hərbiçi olmaq həvəsinə düşüb?**

- Düzü, bu fikirləri heç evdə də deməmişəm. Söhbət açıldı, deyim. Əbu Bəkirin uşaqlıqdan hərbiyə həvəsinin olduğunu görüb, bacım oğlanlarının tətildə evə gəldikləri vaxt, Əbu Bəkiri də götürüb onlara getdim.

- Əbu Bəkr də hərbiçi olamağı arzulayır. C.Naxçıvanski adına Hərbi Liseydə oxumaq istəyir, - dedim.

- Yox, dayı, bacarmaz, çətindi, – bacım oğlu dedi. O anda Əbu Bəkirin gözlərindəki qığılcım nəzərimdən yayın-madı.

- Nəyi bacarmaz, nədi çətinlik? – soruşdum.

- Fiziki hazırlıq, savad, dözüm, iradə lazımdı hərbiçiyə.

Bir-iki idman hərəkətləri etdirdim Bəkirə, həvəslə özünü göstərdi.

- O ki qaldı savadına, iradəsinə, ona yüz faiz əminəm, - dedim.

Anası hərbiçi olmaq istəyinə çox etiraz etdi, mən də ona dəstək verdim. İnadla qərarında qəti olduğunu bildirdi. Fikrindən döndərə bilməyəcəyimizə əmin olduqda, - işin avand olsun! – deməkdən başqa çarəmiz qalmadı.

1 saylı məktəbdə oxuyurdu. Sinif rəhbəri Respublikanın Əməkdar müəllimi Əlisa İsayev idi. Məktəbin ən savadlı uşaqları o sinifdə idi. Valideyn yığıncaqlarına özüm gedirdim. Həmişə də Əbu Bəkr haqqında tərifli, xoş sözlər eşidirdim, fərəhdən ürəyim dağa dönürdü. Bir dəfə də valideyn iclasında eşitdiyim bir sözü heç vaxt unutmaram. Rəhmətlik Əlisa müəllim iclasın sonunda:

- Bu sinifdən çox tanınmışlar həkim, hüquqşünas, alim, mühəndis çıxa bilər. Ancaq əsas odur ki, bu sinifdən iki insan çıxacaqsa, onun biri Əbu Bəkrdir...

Sevincimin, fərəhimin həddi-hüdudu yox idi. O gündən oğlumla qürur duydum və içimdə bir hiss doğdu: - Mən səninlə əbədi qürur duyacağam.

Uşaqlıqdan bədii kitab həvəskarı idi. Uşaq kitabxanasından qucaq-qucaq kitab gətirər, oxuyar, aparıb qaytarardı. Əlisa müəllim də şəxsi kitabxanasından ona kitablar verərdi. IV-V sinifdən şeirlər yazırdı. Məndən gizlətsə də, tapıb oxuyardım.

Deyirlər, oğul atadan örnək götürər. Ancaq mən oğlumdan örnək götürürdüm, öyrənirdim. Həyətdə, evdə nə iş görsəydim, onunla məsləhətləşərdim. Onun bacarığına, qabilliyyətinə, savadına, işgüzarlığına arxayın idim. Bilirdim ki, səhv söz deməz, yanlış məsləhət verməz. Çox güvənirdim ona. Musiqi məktəbinə, fortopiano sinfinə gedirdi. Orda da fərqlənirdi.

Öz toyunda da heç nədən xəbərimiz olmadı. Hər işin təşkilatçısı özü oldu. Ən xırda detallara qədər fikirləşmişdi. Hətta, onun bizə toy sürprizi etməsi üçün Türkiyədən generalların mərasim geyiminə bənzər hərbi forma gətizdirməsi hər kəsi təəccübləndirmişdi. Elə bir gün olmur ki, Əbu Bəkirin həmin görkəmi gözümün önündən keçməsin. Gəlin gətirməyə hazırlaşırdıq. Əbu Bəkr toy karvanına qatılacaq maşınların sürücülərini - dostlarını bir yerə toplayıb tapşırıq verdi:

- Ötüşmək, səs-küy, sürət olmasın. Bir-birinizi gözləyin, qəza şəraiti, yolda başqa maşınlara narahatçılıq yaratmayın. Diqqətli olun ki, peşmançılıq olmasın... Sonra musiqiçilər həyətdə çalmağa başladı. Əbu Bəkr hər şeyin qaydasında olmasına əmin olduqdan sonra, geyinmək üçün otağına keçdi. Qız-gəlin, qohum-qonşu, dostları rəqs edirdilər. Birdən qəfil musiqi



***Qoşa qanadım-***
***Bəkirim, Əkbərim***

səsi kəsildi. Musiqiçilər də, rəqs edənlər də bəyi hərbi geyimdə, əlində bayraq görüb, maddım-maddım baxırdılar. Dostları onu bu görkəmdə alqışladılar. Anası fərəhindən ağladı. Əbu Bəkir anasını qucaqladı:

- Demişdim axı, sizə sürpriz edəcəyəm – dedi.

Həmin anda hansı hissləri keçirdiyimi təsvir etmək çətindir. Ancaq ona bütün varlığımla inanırdım ki, mənim oğlum əsl vətənpərvərdi, cəsur hərbiçidi, vətənini sevir və uğrunda canından keçər. Keçdi də...

Aprel hadisələrindən bir az qabaq, Novruz bayramında gəlmişdilər. O, adətən, bütün bayramları evə gələrdi. Martın 24-də səhər kompüterə baxırdım. Yaxıınlaşıb dedi ki, ata, biz gedirik. 27-də sənin ad günündü. Həmin gün yaxın dostumun toyudu. Orda iştirak etməliyəm. Ona görə də, səni indidən təbrik edirəm – deyib bükülüb, lentlə bəzədilmiş ətri mənə verdi. Həmin ətri onun son hədiyyəsi kimi ömrümün sonuna qədər saxlayacağam...

Diqqətcil idi, dost-tanışları, bizi, qohumları ad günlərində, bayramlarda mütləq hamıdan əvvəl o, təbrik edərdi. Evcanlı, ailəcanlı idi.

Evə gələn kimi də birinci soyuducunu açıb baxardı ki, görüm nəyiniz var, nəyiniz yoxdu?! Bəlkə, korluq çəkirsiz, bildirmirsiz...

Martın əvvəlində həyəti o baş, bu baş gəzib, ölçüb-biçdikdən sonra:

- Ata, qalanı hörmək lazımdı. Evdə qadınlar var, məhlənin iki tərəfi tel hasardı. İnşallah, məzuniyyət götürüb gələrəm, qalanı daşdan hördürərik – dedi.

Soyuducu, su qızdırıcısı xarab olmuşdu, onları da son gəlişində düzəltdirdi...

İşində ciddi, evdə, dostları arasında zarafatcıl idi, hamını parodiya edə bilirdi. O, kimisə yamsılayanda uğunurduq gülməkdən. Bəzən, evdə gərginlik, qanıqaraçılıq və ya pis xəbər olanda, məzəli parodiyaları, danışığı ilə gərginliyi aradan götürərdi.

Son görüşümüz martın 31-də oldu. Cəbhə bölgəsinə getmək üçün tapşırıq almış, Kürdəmirdəki N saylı hərbi hissəyə gəlmişdilər. Hərbi

hissədə yoldaşları orda qalmasını israr etsələr də, etiraz etmişdi.

- Evimizə gedim, anam bilir gəlməyimi, hazırlıq görüb – deyib dostlarına. Dostu Kamalın maşını ilə gəlmişdi ki, gecə qəfil çağırış olsa, tez özünü çatdırsın.

Görüşdük. Çörəyini yedi, namaz qılıb yatdı. Nə mən sual verdim, nə də, o, danışdı. Əslində, Əbu Bəkirlə mənim uzun-uzadı söhbətimiz olmazdı. Aramızda pərdə vardı. Anasına qız uşağı kimi daha çox bağlı idi. Bütün fikirlərini onunla bölüşürdü, məsləhətləşirdi. Məndən bir az da çəkinirdi, çünki, mən onun bütün hisslərini, düşüncələrini anlayırdım, hərbidən, siyasətdən sual verirdim. Məni aldada, yanılda bilməyəcəyini bildiyi üçün, ünsiyyətdən, sorğu-sualdan qaçırdı. Döyüşlərdən bir az əvvəl, təlim vaxtı ayağının zədələnməsini hamıdan gizlətmişdi.

- Ayağım burxulub, - deyirdi. Ancaq mən ona baxan kimi, ciddi xəsərət aldığını bildim.

Aprelin 1-də, səhər yuxudan duran kimi, Əbu Bəkiri soruşdum. Anası:

- Səhər tezdən, 6-da getdi. Heç kəsi narahat etmək istəmədi, – dedi.

İçimdə bir xof yarandı:

- Kaş durğuzaydın! – dedim.

Gedən gün, ayın 1-də anası, bibisi ilə bir neçə dəfə danışmışdı. Hamı cəbhə bölgəsində bir gərginlik olduğunu hiss edirdi. Ancaq, heç kəs, o cümlədən, biz də ağlımıza gətirmirdik ki, həmin gecə müharibə başlayacaq, əsl döyüş gedəcək və mənim oğlum həmin döyüşlərdə Şəhid olacaq...

Aprelin 2-də evdə ürəyim darıxırdı. Rəna da Bəkir zəng etmədiyinə, zənglərə cavab vermədiyinə görə özünə yer tapmırdı. Bacımgilə getdim. Yol boyu hiss edirdim ki, hamı mənə qəribə baxır, xısın-xısın söhbət edirlər. Bacım Maya da məni görcək narahatçılıqla:

- Ay Vüqar, cəbhədə vəziyyət çox gərgindi, şəhidlərimiz var. Deyirlər ki, bizim bir vertalyotomuzu da vurublar. Yenə ağlıma heç nə gəlmədi. Bacımın oğlanları da hərbiçi olduğuna görə, narahat olduğunu düşündüm, təskinlik verdim:

- Narahat olma, heç nə olmaz, inşallah! Ermənilərdi də, hərdən-

biz də varıq - deyib, atırlar.

Burda da dayana bilməyin, evə döndüm. Yenə yol boyu hamının qəribə nəzərlərlə baxdığını hiss etdim. Köhnə tanışlardan biri maşınını yanımda saxlayıb:

- Otur gedək, - dedi.

Oturmaq istəmədim, yolum yaxındı, – dedim.

İsrarla:

- Otur, yolum siz tərəfədi, aparım, - dedi.

Sonradan bildim ki, mənim bu barədə məlumatım olub, olmadığını bilmək istəyirmiş. Evə gələn kimi kompüteri açdım. Televizorda heç bir dəqiq məlumat verilmirdi. "Samanyolu" kanalında 12 əsgərimizin şəhid olduğu deyilirdi.

Həyət qapısının qəfil açılmasına, Əkbərin qışqırtısına özümü bayıra atdım. Əkbər əlində tutduğu telefonu anasına göstərib ağlayırdı:

- Bəs deyirdin Əbu Bəkirə heç nə olmaz, qardaşım şəhid olub, ana, saytlar yazır.

Doğrudan da, Əbu Bəkirin, Təbrizin, Urfanın Mi-24 hərbi helikopterində şəhid olmalarından yazılırdı, şəkilləri də vurulmuşdu.

- Yox, bizim Əbu Bəkr deyil, görmürsən adı başqadı. Əbu Bəkr İsmayılov yazmırlar. Bəkir İsmayılov yazırlar - deyə Əkbəri də, elə özümü də sakitləşdirməyə çalışırdım.

Heç yarım saat keçməmişdi ki, həyət doldu adamla. Şəhər İcra nümayəndəsi də gəldi. Məni qucaqlayıb:

- Vüqar, çətin də olsa, sənə bu xəbəri verməliyik. Oğlun şəhid olub – dedi.

- Arxadan vurmayıblar ki? - soruşdum.

- Yox, qəhrəmancasına şəhid olub – dedi.

- Allahu Əkbər! – dedim.

Heç kimə heç nə deməsə də, Bəkir gedəndən evə-eşiyə sığmayan, canını qoymağa yer tapmayan, xəbərin sarsıntısından donmuş Rəna da özünü toxdadıb:

- Vətən sağ olsun! – dedi.

Bizim bu reaksiyamız hamıya bəs elədi...

Qəribədi, mən bu xəbəri haçansa eşidəcəyimi, Əbu Bəkr hələ

Ali Hərbi Təyyarəçilik məktəbində oxuyanda hiss etmişdim. Düzü, onun nəşinin gətirilməsini istəmirdim. Ürəyimdən keçirdi ki, kaş yaralı olsun, əsir olsun, haçansa qayıdacaq. Ancaq, cənazə gələndə əlimi hər şeydən üzdüm. O gecəki izdiham...

Fəxri xiyabandakı dəfn zamanı qürur hissi keçirirdim ki, bu şərəfdə, bu şan-şöhrətdə ölüm də hər kəsə qismət olmur. Dəfn zamanı Müdafiə Naziri Zakir Həsənov Azərbaycan bayrağını Təbrizin, Urfanın uşaqlarına təqdim etdi. Ürəyim sızıldadı. Mənə yaxınlaşanda, Şəbnəmi göstərib:

- Əbu Bəkirin bir uşaq kimi qayğısını çəkdiyi yoldaşına verin. O, Əbu Bəkirin övladı kimi bizə əmanətidir, – dedim.

Bir tərəfdən də təəssüf hissi keçirirdim ki, Əbu Bəkr ən böyük arzusuna çata bilmədi, general ola bilmədi. Yaşasaydı, mütləq general olacaqdı...

* * *

**Simasında adamın içini göynədən bir ələm vardı Vüqarın. Vüqarlı görünməyə çalışsa da, hər kəsdən yayındırdığı gözlərində kədər, həsrət donmuşdu. Gözünün yaşı yanağına yox, içinə axırdı. Daha sual vermədim, cavab da gözləmədim. Zatən, bütün hisslərini, acısını simasından oxumaq mümkün idi...**

**Arxayın ol, şəhid atası! Sənin oğlun generaldan da üstün, ən ali, ən uca zirvəyə ucalıb – Şəhidlik zirvəsinə.**



***Səsinə, nəfəsinə həsrətəm, bala!***



***Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın Heydər məscidində şəhid anaları ilə görüşündən***



***Ana vüqarla, fəxrlə danışırdı***



***TTM – də vida mərasimi***



***Onurla Tayfun ataları ilə qürur duyurlar***



***TTM – də vida anı***



***Könül Vəlizadə körpə qızı ilə Urfan Vəlizadənin tabutu qarşısında***



***Şəhidlər Fəxri xiyabana aparılır***



***II Fəxri xiyabanda dəfn zamanı***




*Qısa ömrün anları*



***Əbu Bəkr təlim vertalyotunda***



***Əbu Bəkr anası və bibisi ilə C. Naxçıvanski adına Hərbi liseyin buraxılış günündə***




***Əbu Bəkr İsmayılov***



Əbu Bəkr kursant yoldaşları ilə



Kursant Əbu Bəkr təlim zamanı



*Kursant Əbu Bəkr*



*Əbu Bəkr dərsdə*



*Dostu Sadiqin toyunda*



*Əbu Bəkr Qız qalasında*



***Urfan Vəlizadə ailəsi ilə***




***Urfan Vəlizadə və Təbriz Musazadə***



***Təbriz Musazadə helikopterdə***




***Əbu Bəkr rəsmi medallı şəkli***



***Əbu Bəkirin naşinin gətirilməsi***



***Əbu Bəkr , Şənbnəm və Rəna ilə dostunun toyunda***



***Əbu Bəkr dostları Vahid, Yusif, Zaur və İlhamla stadionda***



*Təlimdən sonra*



*Bu torpağın hər qarışı doğmadır*



*Kursantlar dərs zamanı*



***Əbu Bəkr***



***Şəbnəm, Əbu Bəkr, qardaşı***



***Hərbiçilər Şəhid dostlarını yad edirlər***



***Rəna və Şəbnəm məzar başında***




***3 dost, 3 məzar:***
***Təbriz Musazadə, Urfan Vəlizadə, Əbu Bəkr İsmayılov***




***Məktəblilərdən Şəhid anasına məktublar gəlir***

## Etiraf

**Ox atdım düzə düşdü,**
**Kirpiklər gözə düşdü,**
**Hamıya püşk atıldı,**
**Ayrılıq bizə düşdü...**

**Xeyli vaxt idi Şəbnəmlə görüşmürdük. Sentyabrdan Bakıya – işinə dönmüşdü. Rayonda görüşlərimizdə şəhərə qayıtmaq istəmədiyini, daha işləməyə həvəsi olmadığını bildirmişdi. Ancaq iş yoldaşlarının, qohum-qonşunun, 3 il dərs dediyi şəgirdlərin, valideynlərin təkidi Şəbnəmi işə qayıtmağa vadar etdi. Məktəb direktoru da ona fikrini cəmləməyi, özünü toplamağı tövsiyyə etdi:**

**- Qızım, səni başa düşürəm, sevdiyin insanı itirmisən, təkliyi qəbul edə bilmirsən. Ancaq sən kədərə belə məğlub ola bilməzsən. Əbu Bəkirin ruhun incidə bilməzsən. Sən tək deyilsən. Bu boyda kollektiv sənin arxandadır. 3 il əziyyət çəkmisən sinfindəki körpə balalara. Onları yarı yolda buraxmağa ixtiyarın yoxdu. Ən çətin vaxtlarında əllərindən tutmusan, yazıb-oxumağı öyrətmisən. Son sinfin məsuliyyətini, müvəffəqiyyətini də görməlisən. Həm uşaqlar, həm də valideynləri sənin qayıtmağını istəyirlər...**



***Püşkünə ayrılıq düşən gəlin...***

**Qayıtdı. İlk dərs günü sinfə girəndə fikirləri qarışıq**

**idi. Düşündü ki, ixtiyarım yoxdu işimə məsuliyyətsiz yanaşmağa, baş girləməyə... Bu əhvalla keçdiyim dərsin keyfiyyəti nə olacaq? Hansı həvəs, hansı stimulla sinfə girim?**

**- Müəllimə, biz sizi çox sevirik.**

**Bu söz, bu səs onu diksindirdi. Sanki, bir güclü əl onu silkələdi. Şagirdlərinin simasındakı təbəssüm, gözlərindəki işıq, baxışlarındakı istilik, hərarət bir andaca bütün vücudunu, donmuş həyat eşqini isitdi. Gülümsüyüb:**

**- Salam, uşaqlar! – dedi...**

*** * ***

**Şəbnəmlə bir xeyli susqun addımladıq İstiqlaliyyət küçəsi ilə. Nə soruşum, nədən başlayım? Necə oyadım mürgülü xatirələrini?**

**Dönüb üzünə baxdım. Baxışları, üzü gülürdüsə də, fikri, düşüncəsi ayrı idi.**

*** * ***

- Bax, o skamyada oturardıq tez-tez, - Sabir bağındakı skamyanı göstərdi. Bu daşların üstü ilə o qədər gəzmişik ki... Qala divarlarını, İçəri şəhəri çox sevirdi. Nizami küçəsində (Tarqovıda), lap yaxında bir kitab mağazası var - "Əli və Nino". Məni tez-tez ora aparardı. Bir gün:

- Sənə nə hədiyyə etsəm sevinərsən? - soruşdu.

- Kitab, - dedim. Tarixi kitabları çox sevirdim. Təzə çapdan çıxan Yunus Oğuzun "Nadir şah" tarixi romanını axtarırdım.

O kitabı mənə hədiyyə etmişdi 8 martda.

- Bilirsiz, Yaqut xanım, indi mən heç şəhərə çıxmaq, gəzmək istəmirəm. Hara baxıram onu görürəm. Bakının hər daşında onun xatirələri, ləpiri, izi var...

5 ilə yaxın bir-birimizi sevmişik, 1 il nişanlı olmuşuq, 7 ay 2 həftə də ailə həyatımız olub. Bəzən, qohum olduğumuz üçün elə düşünürlər ki, biz validenlərimizin istəyi ilə ailə qurmuşuq. Yox, elə deyil. Hər ikimiz 9-cu sinifdən gəlmişdik Bakıya. O,

C.Naxçıvanski adına Hərbi Liseyə, mənsə, Sabir adına Azərbaycan Dövlət Pedaqoji kollecinə qəbul olmuşduq. O, məndən 2 yaş böyük idi. C.Naxçıvanski adına hərbi liseyi bitirdikdən sonra o, Ali Hərbi Təyyarəçilik Akademiyasına qəbul oldu. Tez-tez kirayə qaldığım evə gəlir, çətinliyim olub-olmadığını soruşur, dərslərimlə maraqlanır, tapmadığım kitabları tapıb gətirirdi. Çox vaxt bayramlarda rayona da birlikdə gedərdik, dayıqızı-bibioğlu kimi. Ancaq hər ikimiz hiss edirdik ki, bizi qohumluqdan savayı, bir-birimizə bağlayan daha mübhəm bir hiss var. Bir-birimizə biganə olmadığımız ikimizə də bəlli idi… 2009-cu il dekabr ayının 31-i – bayram axşamı idi, tətildə idik. Mən 3-cü kursda, o, isə Akademiyanın II kursunda idi. Televizorda "Yuxu" filmi göstərilirdi. Filmdə bir epizod var: Əlabbas danizdə yoxa çıxır, hamı axtarır, tapmır. Sevgilisi dəniz kənarında təpənin üstündə oturub qəmli-qəmli dənizə baxır. Əlabbasın dostlarından olan oğlan, uşaq da olsa ona təsəlli verir:

- O, səni çox sevirdi.

- Yox, sevsəydi, etiraf edərdi.

- Bəs, qız necə, etiraf edərdi?

- Məncə, sevgini birinci oğlan etiraf eləməlidi…

Filmin bu yerində telefon zəng çaldı. Bəkir idi.

-Filmə baxırsan? – soruşdu.

-Hə, baxıram.

-Bəs, sənin buna münasibətin necədi?

-Nəyə?

Özümü bilməməzliyə vurdum.

- Səncə, sevgisini birinci kim etiraf etməlidi?

- Əlbəttə, oğlan. Axı, kişilər daha cəsarətli olur.

- Düz deyirsən. Elə isə, mən də bir etiraf edim. Məni sənə təkcə qohumluq hissi bağlamır, bir ayrı tellər, hisslər də var...

Mən bu etirafı gözləyirdim. Onun mənə biganə olmadığını çoxdan anlamışdım. Hər gün zəng edir, ismarıc göndərirdi. Mən də onsuz darıxdığımı bilirdim. "Hə" deyəcəkdim, fikrim qəti idi. Amma yenə də:

- Mənə düşünməkçün bir az vaxt lazımdı, – dedim.

3 gündən sonra bir-birimizi ölənədək sevəcəyimizə, sədəqətili olacağımıza söz verdik. Və o andaca bütün dünya bizim idi...

Rəsmən nişanlanmağımız 2014-cü ilin avqustun 17-də oldu, Bəkirin valideynlərinin toylarının il dönümündə. Toyumuz isə, düz bir il sonra, 2015-ci ilin avqustun 16-da oldu. Həmişə zarafatla deyirdi ki, 365-ci günün sonunda evləndik.

Bəkir həmişə deyirdi ki, "Sevgililər günü" məfhumunu mən anlamıram. Sevginin günü olar? Sevən insan üçün hər gün ümidlə başlayar, səhərlər sevgiylə açılar, sevgi nağılları ilə yuxulayar. Bizim sevgililər günümüz toyumuzun günü olacaq həmişə. Mən də eyni cür düşünürdüm. Açığı mənimçün də 14 fevral - sevgililər gününün heç bir anlamı yox idi. Ancaq, gözləmədiyim halda, fevralın 11-də Bəkir mənə sürpriz edəcəyini dedi.

- Nə sürpriz? – soruşdum.

- Soruşma, deməyəcəyəm. Desəm sürpriz olmaz ki... 3 günə biləcəksən.

Təəccübləndim, 14 fevralda – sevgililər günündə. Bəs, axı bu bizim günümüz deyildi. Bəkir niyə fikrini dəyişdi? Daha üstünü vurmadım...

Fevralın 14-ü - bazar günü idi. Hər ikimiz evdəydik. Səhər yuxudan duranda dedi ki, hazırlaş, bir yerə gedəcəyik. Yenə də soruşmadım, hazırlaşdım. Günortadan sonra məni Musiqili komediya teatrına apardı. Hüseyn Əlili və həyat yoldaşı sevgililər gününə musiqili kompazisiya hazırlamışdılar. Bəkirin dostu da həyat yoldaşı ilə gəlmişdi. Biz tanış olduq, birlikdə konsertə tamaşa etdik. Tamaşadan sonra da birlikdə restoranda şam etdik. Dedik, güldük, əyləndik. Bir sözlə, çox maraqlı keçdi günümüz. Gecə evimizə qayıdanda maşında əyilib qulağıma pıçıldadı:

- Xoşuna gəldi sürprizim?

- Sənin gördüyün hər iş mənim üçün xoşdu, – dedim.

Və bu bizim ilk və son sevgililər günümüz oldu...

* * *

**Şəbnəmin iri qara gözləri məchul bir nöqtəyə dikildi. Dupduru göz yaşları yanağından damcı-damcı süzüldü. İlk dəfə idi ki, onu Əbu Bəkirdən danışanda ağlayan gördüm. Şəbnəm Əbu Bəkirdən, Bəkirli günlərindən, xoş xatirələrindən danışanda üzü gülür, gözləri nur saçır, dodaqlarına təbəssüm qonurdu. Xatirələrin qanadında xoşbəxt günlərinə qayıdırdı həmişə. İndi isə... Qəhərini boğazında boğub:**

- O zaman məni təəccübləndirən həmin sualın cavabını Bəkiri itirəndən sonra tapdım. Sanki, Bəkir bilirmiş, ürəyinə damıbmış ki, o, toyumuzun ildönümünə - bizim sevgililər günümüzə qədər yaşamayacaq. Ona görə də, həmin günü mənə özündən sonrakı qalan ömrüm boyu xatırlamaq üçün hədiyyə etdi...

Bəkir çox diqqətcil, qayğıkeş idi. İstər mənim, istərsə də, qohum-əqrəbanın, dostlarının ad günlərində, bayramlarda çalışardı ki, birinci o, təbrik eləsin. Gecə saat 12 olan kimi zəng vurub bir-bir hamını təbrik edərdi. Əzizlərindən kim xəstələnsəydi, bütün günü narahat olardı. Gün ərzində mənə bir neçə dəfə zəng edərdi. Evin bütün məişət qayğılarını öz üzərinə götürərdi. Çox səliqəli, zövqlü idi. Ev işlərində mənə kömək edərdi. 2-3 günlük təlimə gedəndə



*Fəxri xiyabanda*

soyuducunu doldurub gedərdi ki, heç nədən ehtiyacım olmasın. Rayona gedəndə də birinci  anasıgilin, bibisinin soyuducunu açıb baxardı ki, görsün boşdu, ya dolu.

Hər gün səhər tezdən işə gedəndə vərəqə iri hərflərlə “Səni çox sevirəm” yazıb stolun üstünə qoyardı. Son gedişində də belə eləmişdi.

Bəkir mütaliəni sevirdi. Xüsusilə, şeir kitabları oxuyurdu. Xoşuna gələn şeirləri mənə də bərkdən oxuyardı, ən çox da qəzəlləri. Vahidin, Seyid Əzimin qəzəllərinin çoxunu əzbər bilirdi. Özü də şeir yazırdı. Gözəl səsi, intonasiyası, diksiyası vardı. Ona görə də, onun şeir söyləməyi, lətifə danışmağı, parodiya etməyi hamıya xoş gəlirdi. Oxumağı, rəqs etməyi də bacarırdı. Mən ona zarafatla deyirdim:

- Gərək sən aktyor olaydın.

- Yox, bunlar mənim həvəsimdi. Mən hərbiçi olmağı uşaqlıqdan arzulamışam. Oldum da. Hərbiçi peşəsi ən şərəfli peşədi.

- Yox, ən gözəl, müqəddəs peşə müəllimlikdir, mənim sənətim. Generalları da, admiralları da müəllim yetişdirir, - demişdim.

- Düzdü, müəllim peşəsi müqəddəsdi. Ancaq hərbiçi həyatını, ömrünü Vətənə həsr edir. Təsəvvür elə ki, bir müəllim dünyasını dəyişib. Onu kimlər yad edəcək? Qohum-əqrəbası, dost-tanışı, şagirdləri, uzaq başı bir kənd, bir rayon, bir şəhər. Ancaq, hərbiçi şəhid olanda, onun ölümünü bütün ölkə bilir. Televizorda göstərirlər, qəzetlər yazır, həmişə yad edilir.

Arzuları vardı, 4 övlad atası olmaq , tərbiyəli, savadlı uşaqlar böyütmək.

- İstəyirəm birinci oğlum olsun, adını Murad qoyacağam – deyirdi...

Martın sonunda, Novruz bayramından sonra özümü narahat hiss edirdim, ürəyim bulanır, başım gicəllənirdi. Əvvəl fikirləşdim ki, yəqin soyuq olub, sonra gördüm ki, yox, keçənə oxşamır, yuxudan da gözüm açılmır. Bəkirə bildirmək istəməsəm də, narahatçılığımı başa düşdü, gözlərinə işıq gəldi sanki:

- Şəbnəm yoxsa...?

Səhəri gün son səfərə getdi. Evdən çıxmazdan qabaq yenə də

vərəqə “Səni çox sevirəm” yazdı və bunu saxla, - dedi.

- Səni həkimə apara bilmədim, vaxt olmadı. Günü bu gün həkimə get, mütləq get. Nəticəsini soruşacağam. Bir də, tək qalmağa vərdiş elə, heç nədən qorxma! Unutma ki, sən hərbiçi ailəsisən...

Bu onun mənə son tapşırığı oldu. O qədər ciddi, amiranə tapşırdı ki, hərbi tapşırıq kimi qəbul elədim. İşdən çıxanadək 2 dəfə zəng vurdu. Həkimə gedib-getmədiyimi soruşdu. Arxayın elədim ki, sabah mütləq gedəcəyəm. Səhəri gün işdən çıxıb həkimə getdim.

...Sevincimdən otaqda var-gəl edirdim ki, Bəkir zəng elədi. Telefonu açan kimi təlaşla soruşdum:

- Birinci, sən de görüm, orda vəziyyət necədi?

- Vəziyyət əladı, Şəbnəm, irəliləyirik. Ermənilər geri çəkilir. İndi yenidən qalxırıq, gedirik düşmənləri biçməyə. Hə, araya söz salma. De görüm, həkimin cavabı nə oldu?

Üzmək istəmədim onu, elə bil tələsirdi. Birbaşa dedim:

- Müsbət – dedim, kövrəldim.

Bəkirin səsi gəlmədi.

- Sevindin? – soruşdum. Nəfəsini eşidirdim telefonda, deyəsən qəhərlənmişdi.

Qəfil rabitə kəsildi. Sonra bildim ki, Bəkirgilin helikopteri ikinci - sonuncu həmləyə qalxırmış…

Verdiyim sual cavabsız qaldı. Əslində cavabını bilirdim. Əlbəttə, sevinəcəkdi. Ən büyük arzusu idi ata olmaq...

Ancaq sevincini necə ifadə edəcəkdi? Nə deyəcəkdi? Hər gün bu suallarla yatıb, bu suallarla da dururam…

* * *

**Sevincin də, kədərin də rəngi olurmuş, çəkisi, qoxusu olurmuş. Mən bunu bu qədər dərindən, bu qədər içdən duymamışdım... Bəkir sevinmişdi ata olacağına. O sevinclə də getdi axirətinə. Bilmədi, bilmədi ki, onun ölümü, hələ çox sonralar doğulacaq körpəsinin də qətlinə fərman verəcək, Murad da şəhid olacaqdı…**

**Bu dəfə Şəbnəmin gözlərindəki damcılar axmırdı, donmuşdu, kristallaşmışdı sanki...**

**Axan mənim göz yaşlarım idi. Bağrımın başı sızıldadı. Uzaqdan, lap uzaqdan qulağıma bir bayatı gəlirdi, sızıltılı, göynəltili:**

**Yara sızlar,**
**Yar dəyər, yara sızlar,**
**Yaralının halından,**
**Nə anlar yarasızlar…**

* * *

Toyumuzda hər ikimiz ağ geymişdik, o, ağ hərbi kiteldə, mənsə gəlinlikdə.

Qol-qola pilləkənləri düşəndə səslər dəyirdi qulağıma:

- Bir cüt ağ göyəçindilər elə bil…

-Ağappaq mələk kimidilər…

Maşında əyilib qulağıma pıçıldadı:

- Xoşbəxtsənmi?

-Sənin yanında olduğum hər dəqiqə, hər saniyə xoşbəxtəm, - dedim…

Şadlıq evində Əbu Bəkr dostları ilə - hərbiçilərlə rəqs edəndə, içimdə nəsə titrədi.

Sanki, bir narahatçılıq, xof yarandı qəlbimdə. Özüm öz xoşbəxtliyimdən qorxdum, üşəndim deyim, xoflandım deyim… Bəkir bunu hiss edib soruşdu:

- Niyə narahatsan?

- Bir gün səni itirə biləcəyimdən qorxuram. Allahın mənə bəxş etdiyi xoşbəxtliyimdən qorxuram, - dedim və qəfil ağzimdan çıxan sözlərə peşman oldum. Bəkirin də üzü ciddiləşdi, gözləri yol çəkdi. Əlimdən bərk-bərk tutub:

- Qorxma! - dedi...





***Bir cüt göyərçindik, xoşbəxt, bəxtəvər...***

Yeddi ay boyunca o xof məni tərk etmədi, qarabaqara bizi izlədi... Bəkir 2 dəfə təhlükə ilə üzləşdi, bəladan qurtardı. Birinci dəfə, iş yerində böyük bir dəmir parçası qopub onun üstünə düşən zaman qolu, ayağı zədələnmiş, sıyrılmışdı. İkinci dəfə, martın əvvəlində təlimdə olarkən paraşütdən tullananda ayağı çuxura düşüb ciddi zədə almışdı. Hətta, 2 həftəyə yaxın ayağı gipsdə, sarğıda qaldı. Ona dəyməyə gələn dostlarından xahiş edirdi ki, zədələndiyini rəhbərliyə bildirməsinlər, yoxsa 6 ay Bəkiri bortdan kənarlaşdıra bilərdilər. Zədəli ayağı ilə də axsaya-axsaya döyüşə getdi... Üçüncü bəladan qurtula bilmədi...

Yeddi ay yarım bir yerdə olduq. Heç ondan incidiyim bir an, bir gün olmadı.Yeddi ay yox, yetmiş ilə bərabər bir ömür yaşadıq sanki. Şirin xatirələrlə dolu bir ömür. İndi məni yaşadan onun xatirələridir. Başımı kitablarla, mütaliyə ilə qatıram. Hər oxuduğum kitabda onun obrazını tapıram. Çox diqqətcil, qayğıkeş, mehriban, düzgün, bir sözlə, indiyə qədər tanıdığım insanlar içində ən mükəmməl insan idi mənimçün, əvəzedilməz idi mənimçün...



***Əbu Bəkirlə Şəbnəmin qız toyundan***

## Qardaşımla fəxr etdim

Əbu Bəkr mənimçün qardaş olmaqla bərabər, həm də dost, sirdaş idi. Aramızda 2 il yaş fərqi olmasına baxmayaraq o, mənim qayğımı valideynlərim kimi çəkirdi. Hərdən mənə elə gəlirdi ki, ondan atamdan çəkinən kimi çəkinirəm. Hər işdə harayıma çatırdı.

Atam, anam işləyirdilər. Qardaşımla mən dərsdən sonra ev işlərini öz aramızda bölüşürdük ki, anam işdən yorğun gələndə çox da əziyyət çəkməsin. Əbu Bəkr ona düşən işi diribaş və təmiz yerinə yetirərdi. Sonra da mənim işlərimə kömək edərdi.

Balaca uşaqlar idik, 8-10 yaşlarımız vardı. Həyətdə oynayırdıq. Nəyə görəsə mübahisə etdik və küsüşdük. Əbu Bəkirin kini yox idi. O tərəf-bu tərəfimə keçdi. Ona əhəmiyyət vermədiyimi görüb, həyət qapısına tərəf gedə-gedə:

- Küs də, neyləyim?! Gedib qonşunun oğlu Əkbərlə qardaş olaram, – dedi. İnandım onun sözünə. Hirslə ağlamağa başladım:

- Niyə özgəsi ilə qardaş olursan. Bəs mən sənin qardaşın deyiləm? – dedim...

Əbu Bəkr əlaçı idi, bütün fənləri həvəslə oxuyurdu. Riyaziyyatla, dil-ədəbiyyatı daha çox sevirdi. Mən də yaxşı oxuyurdum. O, orta məktəbdə də, Bakıda oxuduğu müddətdə də mənim dərslərimlə, imtahanlarımla çox maraqlanırdı. Sinif yoldaşlarıma, müəllimlərimə zəng edib onlardan da davranışımı, necə oxumağımı soruşur, evə gələndə də sorğu-sual edir, imtahana çəkirdi.

O, dəcəl uşaq deyildi. Heç kəsi incitməzdi. Ancaq mən çox dəcəl idim.

1-3-cü sinifdə oxuyurduq. Babam filtirsiz siqaret çəkirdi. Böyük Vətən müharibəsi iştirakçısı idi. Siqaretini cibindən götürüb Bəkirə göstərdim:

- Gəl biz də çəkək.

- Olmaz, ana hirslənər, - dedi.

İsrarla dirəndiyimi görüb:

- Yaxşı, çəkək, - dedi.

Babamın gözünü oğurlayıb, qonşunun qalamıza bitişik damına çıxdıq və siqareti yandırdıq. Elə birinci qullabda yaxalandıq. İstintaq başladı, nə başladı – babam, anam, atam... Ən çox Əbu Bəkirin üstünə düşmüşdülər. Ancaq, o, məni satmadı, bu təşəbbüsün mənim olduğunu demədi. Qardaşımın cəzasının “ağır” olacağını hiss edib, hər şeyi boynuma aldım, mən götürmüşəm - dedim.

Birinci sinifdə oxuyanda məktəbə alışa bilmirdim. Sinifdən tez-tez qaçırdım.

Qardaşım da hər gün bizim sinifə gələr, mənə nəzarət edərdi ki, görsün dərsdəyəmmi, müəllimin sözünə baxırammı?

Bir dəfə yenə dərsdən çıxıb, məktəbin arxasındakı qalanın yanında çantamı atıb, bir daşa ip bağlayıb sürməyə başladım. Qardaşım sinfimizə gəlib məni görməyəndə, Sabir müəllim:

- Səhər gəlmişdi, indi yoxdu, – deyib.

Əbu Bəkr məni axtarıb tapdı. O ki var danladı, sinfə qaytardı, ancaq evdə demədi.

Bir dəfə də 5, ya da, 6-cı sinifdə oxuyurdum. Dərs qurtarmışdı, evə gəlirdik.

Məni yanına çağırıb, çantasını, paltosunu verib: - Sən get evə, mən də indi gələcəyəm, – deyib, kənarda toplaşmış oğlanların yanına getdi. Məktəbin qalasından baxanda gördüm ki, oğlanlar dairəvi düzülüblər. Əbu Bəkirlə Kamal adlı oğlan ortada üzbəüz dayanıb, davaya hazırlaşırlar. Kamal ondan yaşca böyük idi. Qaladan hoppanıb özümü arxadan Kamala çatdırdım və təpiklə onu yıxdım. Kənardan baxan, aranı qızışdıran uşaqlar mənim bu hərəkətimdən sonra onları aralaşdırdılar. Evə qayıdandan sonra Əbu Bəkr əlini çiynimə qoyub:

- Mən indi bildim ki, sən mənim həm kiçik qardaşım, həm də ən yaxın dostumsan. Və bu dostluq, qardaşlıq tədricən sirdaşlığa da çevrildi. 24 ilin o qədər gözəl, o qədər şirin, kövrək xatirələri var ki... Hər gün kino lenti kimi gözlərimin önündən keçir, yuxularımı şirinləşdirir.

Haçansa onu itirəcəyimdən qorxmuşam.

Qardaşlı, sirdaşlı, arxalı günlərimin bir anını geri qaytarmaq üçün bütün gələcək günlərimi qurban verərdim.

Son görüşümüz də martın 31-də oldu. Axşamüstü xalam oğlu ilə şəhərdə çay içirdik. Anam zəng elədi ki, qardaşın gəlib, evə gəl. Tez yaxınlıqdakı mağazadan şirniyyat, xoşladığı şirələri alıb evə getdim. Əbu Bəkr çörək yeyirdi. Görüşdük. Qısaca hal-əhval tutduq. Çox yorğun görünürdü. Narahat eləmək istəmədim. Çörəyini yeyib otağına keçdi.

- Bir az dincəlim, - dedi.

Səhər tezdən ayağının ucunda durub, heç kəsi narahat eləmək istəməyib.

Anam dedi ki, çox astaca mənim otağıma keçib, üzümdən öpüb və gedib. Kaş oyanaydım, kaş onu yola salaydım, kaş gecə yorğun olsa da, onunla söhbət edəydim... Hələ də son dəfə onunla doyunca vaxt keçirmədiyimə təəssüf edirəm.

Bəkir təhsilində, işində çox ciddi olsa da, həyatda çox həssas, mehriban, qayğıkeş, diqqətli, kövrək, bir az da məzəli adam idi. Aktyorluq qabiliyyəti, musiqi duyumu, natiqliyi, bədahətən şeir deməyi, peşəkarcasına rəqs etmək bacarığı, idmana, mütaliəyə meyli vardı. Parodiya eləməyi də çox sevirdi.

Bu qədər bacarıq, qabiliyyət, istedadın bir şəxsdə cəmlənməsi nadir hadisədir. Mən fəxr edirdim ki, mənim qardaşım ən yüksək, ən ali insanlıq keyfiyyətləri ilə yanaşı, istedadı ilə də seçilən nadir şəxslərdən idi.



***Əbu Bəkr, anası, qardaşı***

Qardaşımın şəhid olması xəbərini də evdə birinci mən bildim. İşdə hamı bilirmiş, rəhbərlik də, iş yoldaşlarım da. Nədənsə, ürəyim sıxılırdı işdə, dilxor halda instaqram

səhifəmə göz gəzdirdim. Bildirişləri vərəqləyirdim ki, birdən qardaşımın şəklini gördüm, Təbrizin, Urfanın şəkli ilə birlikdə. "Şəhid pilotlarımız" yazılmışdı... Elə bil, məni ildırım vurdu. Yox, – dedim, səhv düşüb yəqin, mənim qardaşım ölə bilməz. Bildirişləri geri çəkdim. Təkrar-təkrar baxdım, oxudum. Ola bilməz, mənim qardaşım ölə bilməz – deyərək qışqırırdım. İş yoldaşlarım məni sakitləşdirmək istədilər. Anam xalam oğlunu dalımca göndərmişdi. Özümüzü qaranəfəs evə çatdırdıq. Heç cür sakitləşə bilmirdim:

- Bəs deyirsiz qardaşıma heç nə olmaz, sağ-salamatdı, uçuşdadı, ona görə zəng eləmir?! Hamı bilirmiş, hamı görübmüş. Qardaşım şəhid olub...

Ayılanda anam başımı qucaqlamışdı, atam təskinlik verirdi:

-Səhv yazıblar, görmürsən adını Bəkir yazıblar?! Sənin qardaşın Əbu Bəkr İsmayılovdu.

Anam da gözünün yaşını sil-silə atamın sözünü təsdiq edirdi.

- Bizim Əbu deyil (evdə ona Əbu deyirdik), səhv düşüb. Mənim balam ölə bilməz, mənim balam düşmənə can verməz. Mənim balam Qələbəni çalmamış getməz. Yaralıdı yəqin...

Ancaq həmin gündən evimizə insanlar - tanıdığımız, tanımadığımız insanlar axışmağa başladı. Küçəmiz avtomobillərlə dolub, boşalırdı...

Həmin gecə heç birimiz yatmadıq – atam, anam, gəlinbacım və mən səhərədək bütün saytları, bütün mətbuat mənbələrini araşdırdıq. Dostlarına, iş yoldaşlarına zəng vurduq, bəlkə kimsə dəqiq məlumat bilər, kimsə görər, kiməsə zəng edər deyə... Ancaq heç kəs dəqiq bir söz demirdi. Bütün hospitallara – Ağdam, Horadiz, Tərtər... zəng vurduq ki, bəlkə orada ola. Belə şaiyələr də yayılırdı ki, yaralı halda əsir düşüblər. Ona görə də, aprelin 2-dən 10-a qədər, cənazə həyətə gələnə qədər ölüm xəbərinə inanmadıq, ümidlə gözlədik. Tez-tez telefon nömrəsini yığırdım, bəlkə götürər, açar ümidilə. Telefonu ermənilərin əlində olduğu üçün Azərbaycan tərəfindən diaktiv edilmişdi, zəng çatmırdı...

Artıq aprelin 10-da səhər cəsədlərin düşmən tərəfindən alındığı xəbərini verdilər və biz – bütün rayon sakinləri qardaşımın tabutunu

gözləyirdik. Şəhid pilotların tabutunu gətirən vertalyot hərbi hissəyə enməli idi. Dəfn aprelin 11-də Fəxri Xiyabanda olacaqdı. Anamın xahişi ilə qardaşımın cənazəsi həmin gecə evimizdə bir gecəlik qonaq olacaqdı... Həyətimiz, küçəmiz, hətta, ətrafdakı küçələr də izdihamla dolu idi. Avtomobillər girib-çıxa bilmirdi. Uşaq-böyük, hər kəs şəhidi qarşılamağa çıxmışdı. Hərbi hissədən evimizə qədər yol boyu insanlar: "Şəhidlər ölməz, vətən bölünməz!" sözləri ilə hörmət-ehtiramlarını bildirirdilər.

Mən də bayraqla hərbi hissənin qarşısında dayanmışdım. Nəhayət, avtomobil karvanı, insan izdihamı asta-asta tabutu evimizə gətirdilər. O gecəki izdiham, o gecəki mərasim bir daha qardaşımın bizdən fərqli, əbədiyaşar, ən uca zirvəni – şəhidlik zirvəsini fəth edən qəhrəman olduğunu sübut etdi...

Həmin gecə hamı dağılışandan sonra anamdan da səhər tezdən Bakıya yola düşəcəyimiz üçün bir az dincəlməsini xahiş etdim. Tabutun yanında tək qalmaq, qardaşımla son dəfə dərdləşmək istəyirdim. Elə də etdim.

Bir xeyli ürəyimi boşaldandan sonra əlimi tabutun üstünə çırpıb:

- Qardaş, məni eşitmirsən, bu qədər söz danışdım, bu qədər dil tökdüm, niyə cavab vermirsən, niyə məni kiritmirsən? Qalx, qardaş! Sən belə deyildin axı? Birdən diksinib, sanki ayıldım. Fikirləşdim ki, mənim hərəkətim normal adam hərəkəti deyil, mən dəli olmuşam deyəsən, özümə gəlməliyəm...

Səhər Kürdəmirdən Bakıya qədər yol boyu post patrul işçiləri sıraya düzülüb, şəhidi aparan karvana hərbi salam verməklə ehtiramların bildirirdilər. Müdafiə Nazirliyinin Təlim Tədris mərkəzində, vida mərasimində elan ediləndə ki, mərasim sona çatdı, şəhidlərimiz II Fəxri Xiyabana - son mənzilə yola salınır, artıq bütün ümidlərim, xəyallarım bitdi. TTM-dən II Fəxri Xiyabanadək cənazə maşınlarının ardınca piyada getdik. Və bu yolda da insanların ehtiramla yol verməsinin, baş geyimlərini çıxarmasının, göz yaşı tökməsinin şahidi oldum və Əbu Bəkr İsmayılovun tək mənim qardaşım yox, bütün Azərbaycanın oğlu olduğunun şahidi oldum.

## Əbu Bəkirim

Tək getdin döyüşə, xalqınla gəldin,
Şəhidlik məqamın amalın bildin,
Qatil düşmənləri torpağa sərdin,
Qəhrəman qardaşım, Əbu Bəkirim.

Həyatın gərdişi amansız oldu,
Baxçanda güllərin xəzansız soldu,
Anan fəryad etdi, saçını yoldu,
Qəhrəman qardaşım, Əbu Bəkirim.

Adın tək şərəfli ömür yaşadın,
Uca zirvələr tək ucaldı başın,
Səninlə fəxr edir dostun, qardaşın,
Qəhrəman qardaşım, Əbu Bəkirim.

## Qardaş

Zalım fələk nə tez qıydı canına,
Mənfur düşmən əl batırdı qanına,
Uca Rəbbim səni aldı yanına,
Şəhidlik qanınla yazıldı, qardaş,
Məzarın göylərdə qazıldı, qardaş.

Sən gedən yollara boylanıb qaldım,
Sənsizlik adlanan xəyala daldım,
Sənin gül ətrini mundirdən aldım,
Mundir də yerini vermədi, qardaş,
Hamı gəldi, bir sən gəlmədin, qardaş.

Həyat çox sınağa çəkdi bizləri,
Gözüm gəzir səndən qalan izləri,
Büküldü ailənin beli, dizləri,
Cavan canından nə tez doydun, qardaş,
Arxanda min kədər-qəm qoydun, qardaş.

Hər bəşər övladının arzusu varkən,
Tərk etdin dünyanı nə yaman erkən,
İnsanlar özünə mənzil qurarkən,
Məzarda tək otaq tikdirdin, qardaş.

## Bibi, mənə laylay çal!

**Bu gecə gecənin nəfəsi qordu,**
**Bu gecə gecəmdən yuxumu qovdu...**
***Məmməd Araz***

Əbu Bəkr sevimli balam idi. Balam deyirəm, ona görə ki, gec ailə qurmuşdum, övladım olmamışdı. O, mənə doğma baladan daha əziz idi, qucağımda böyümüşdü. Hara getsəm, onu özümlə gəzdirmək istəyirdim. O, da mənə ata, anası qədər isnişmişdi. Heç bir övlad valideyninə bir gecədə üç dəfə zəng etməz. Ancaq Əbu Bəkr bir gecədə üç-dörd dəfə mənə zəng edib hal-əhval tutardı...

15 il Bakıda yaşadım. Yoldaşım da mənim kimi Əbu Bəkirin dəlisi idi. Uşaq bizə gələndə sevindiyindən uçurdu. Deyirdi ki, bu, bizim evin günəşi, nurudu. Onu özü ilə gəzməyə aparır, şəhərin mədəniyyət ocaqların, gəzməli-görməli, tarixi yerlərin, institutların, texnikumların ona tanıdırdı. Şəhərin əsas prospektlərin, mərkəzi küçələrin, meydanların ona öyrətmişdi ki, gözüaçıq, diribaş böyüsün.

Mən o vaxt Ali Hərbi Təyyarəçilik məktəbində işləyirdim. Əbu Bəkiri ara-sıra özümlə işə aparırdım. Onda onun 7-8 yaşı olardı. Əbu Bəkr orda oxuyan uşaqlara diqqət və heyrətlə baxır, onlara oxşamağa çalışırdı. Hər şeylə maraqlanırdı.



***Körpə Əbu Bəkr anası və bibisi ilə***

İsmət adlı türk komandirimiz var idi, gənc, bəstəboy, sarışın. Əbu Bəkirdən xoşu gəlirdi. Deyirdi ki, xala, sənin nə gözəl cocuğun var?! Demişdim ki, mənim yox,

qardaşımın cocuğudu. Bir dəfə Əbu Bəkiri götürüb masanın üstünə qoydu. Kitelini çıxarıb uşağın çiyninə saldı, furaşkasını da başına qoyub dedi:

- Hərbi forma bu uşağa nə gözəl yaraşır...

Elə həmin vaxtdan da hərbiçi olmaq onun arzusuna çevrildi. İsmət komandirin otağında Atatürkün şəkli vardı. Stulun üstünə çıxıb diqqətlə şəkli süzüb demişdi:

- Bibi, onun gözləri niyə  belə işıqlıdı?

İsmət komandir otağa girib onun sözlərini eşitmişdi və mənə:

- Xala, bu cocuq çox ağıllıdı, mənalı gözləri var, elə bil üzündə peyğəmbər nuru var. Nə gözəl adı var?! Bu adı ona kim qoyub?

Əbu Bəkirin adının tarixcəsini danışdım türk komandirinə.

- Əbu Bəkr Hz.Peyğəmbərimiz (s.) ən yaxın silahdaşı, xəlifə olub. Həm də, Əbu Bəkr adı bizə Azərbaycan tarixindən doğmadır. Əbu Bəkr Atabəylər dövlətinin parçalanmasının qarşısını alan hökmdar olub. Anam - uşağın nənəsi öz babasının adını qoyub nəvəsinə. Ulu babamız Əbu Bəkiri keçən əsrin əvvəllərində ermənilər öldürüb. Nənəm bizə danışardı ki, atası Əbu Bəkr oğlunu – anamın atasını meyidlərin altında gizlədibmiş ki, ermənilər tapıb öldürməsin...

Bir əsr keçəndən sonra da əbədi düşmənlərimiz nəticəsi Əbu Bəkiri öldürdülər...

Qonşuluğumuzda ərzaq mağazası vardı. Satıcısı Əzim adında ağsaqqal kişi idi.

Əbu Bəkiri göndərdim ki, gedib evə lazımı ərzaqları alsın. Satıcı Əzim ərzağın pulunu hesablayıb, qalığını qaytaranda Əbu Bəkr deyib ki, Əzim əmi, pulu düz qaytarmamısan, mənə artıq vermisən. Satıcı deyib ki, yox, düz qaytarmışam. Uşaq aldıqların boşaldıb piştaxtanın üstünə. Əzim kişi təzədən hesablayanda görüb ki, doğrudan da atrıq qaytarıb. O, sonra bizi görəndə dil-ağız edirdi:

- Maşallah, düzgün, ağıllı uşaqdı...

Bakıda hərbi jurnalist Zəminə Xınalı ilə qonşu idik. Onun oğlu Ayazla Əbu Bəkr yaşıd idilər. O da çox ağıllı uşaq idi. Həmişə həyətdə bir oynayar, dostluq edərdilər. (Sonradan tale onları hərbi liseydə də, Ali Hərbi Təyyarəçilik məktəbində də rəstlaşdırdı. Birgə



***Fəxri Xiyabanda***

oxudular, birgə işlədilər, dost oldular. Döyüşə gedəndə də bir yerdə olublar)

Ayazla şər qarışanadək futbol oynayar, idman edərdilər. Hava qaralanda altdan yuxarı çağırardı:

- Bibi, isti su var? Tərləmişəm, yuyunacam.

- Su istidi, gəl! – deyərdim.

Əbu Bəkr səliqə ilə yuyunub geyinər, idman ayaqqabılarının ipinə qədər mənə yuduzdurardı, özü də üzrxahlıq edə-edə:

- Bibi, qurban olum, bağışla, sənə əziyyət verirəm.

- Bibi sənə qurban olsun, mənə xoşdu – deyib onu bağrıma basardım...

Yoldaşım ağır xəstəliyə düçar olandan sonra anamgilə - rayona qayıtdıq. Əbu Bəkr bizə hər gün zəng edir, hal-əhval tuturdu. Nənəsini – anamı da çox istəyirdi. Paysız onun yanına gəlməzdi. Hər bayramda, tətildə ona ətir, dəsmal, corab, yaylıq, ətirli sabun alardı. Tortsuz, şokoladsız qapıdan girməzdi...

Mən onu iki dəfə ağlayan gördüm, bir yoldaşım öləndə, səndən nigaran qalacağam demişdi. Bir də anam öləndə, tək qaldın - dedi.

Heç vaxt qapını döyməzdi, zəng edərdi:

- Bibi, evdəsən? Yatmamısan?

- Yox, ay bala, evdəyəm, yatmamışam.

- Onda qapını aç, burdayam, – deyərdi.

Evə girən kimi soyuducunu açıb baxardı ki, nəyim çatmır, alıb gətirsin. Elə ki, soyuducunu dolu görürdü, Allaha şükür edirdi.

Hər gələndə diqqətlə əyər-əskiklə maraqlanar, qapının qıfılını dəyişər, televizorun antenasını düzəldərdi. Aprelin 2-də səhər tezdən zəng eləmişdi – sonuncu zəngi:

- Bibi, narahat olma, hər şey əladı, irəliləyirik. Bir də sənə bir sözüm var - atamı, anamı, Şəbnəmi, Əkbəri sənə, səni də Allaha əmanət edirəm...

Bir ildir ki, telefonum susur, bir zəng gözləyirəm...

* * *

Dekabrın sonunda, bayram axşamı ürəyim sıxılırdı, durub pəncərəni açdım. Bir anlıq sanki, pəncərənin qabağından burnuma tanış ətir gəldi. Bu, Əbu Bəkirin ətri idi. O, həmişə bu ətri vururdu. Tez küçəyə yüyürdüm, o tərəf-bu tərəfə boylandım. Heç kəs yox idi. Hər tərəf qaranlıq idi. Təkcə qala divarımıza vurulmuş Əbu Bəkirin barelyefinin lanpası yanırdı. Dəqiq bilirdim ki, onun ruhu gəlib, evin ətrafında dolanır.

- Mən dəli olmuşam! – özümü qınadım. Evə qayıdıb, onun ara-sıra bizdə qalanda yatdığı çarpayıdan yorğanını götürüb qucağıma aldım. O vaxtdan bura yorğanın üzünü yumamışdım. Bu yorğanda Əbu Bəkirin ətri qalmışdı. Səhərəcən yata bilmədim. Səhərə yaxın gözümə yuxu getdi. Yuxuda gördüm ki, gəlib dayanıb başımın üstündə, deyir:

- Bibi, mənə laylay çal!...

**Hz. Məhəmməd Peyğəmbər (s.) kəlamları**

Öz ailəsini zülmdən qoruyaraq öldürülən şəxs şəhiddir.

* * *

Zülmü aradan qaldırmaq yolunda öldürülən şəxs şəhiddir.

* * *

Qiyamət günündə üç dəstə izzət və cəlal sahibi olan,
Allahın qarşısında şəfaət edər və onların şəfaəti
qəbul olar: peyğəmbərlər, alimlər və şəhidlər.

* * *

Cənnətə ilk girən şəxs şəhid olacaq.

* * *

Şəhid ölüm anında əziyyət
çəkməz və cənnətdəki yerini görər.

## Azərbaycan Respublikasının Müdafiə Naziri general-polkovnik Zakir Həsənovun Mi-24 hərbi helikopterində şəhid olmuş pilotların dəfn mərasimindəki çıxışı

Bu gün burada danışmaq ağır və çətindir. Ancaq biz həqiqəti deməliyik. Yüz illərlə bizim millətə qarşı ermənilər cinayət, soyqırım törədiblər. Əgər biz bunların qarşısın almasaq, yenə davam edəcəklər. Mən burada xüsusi qeyd etmək istəyirəm ki, bizim şəhidlər bütün dünyaya sübut elədi ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Silahlı Qüvvələr, Ali Baş Komandan başda olmaqla öz müqəddəs borcunu yerinə yetirəcək. Mən burda Ümummilli Liderimiz Heydər Əliyevin sözlərini bir daha təkrar etmək istəyirəm. Azərbaycan ordusunun hər bir əsgəri, hər bir zabiti bilməlidir ki, Azərbaycanın ərazi bütövlüyü nəyin bahasına olursa olsun, bərpa olunmalıdır. Bu gün Ali Baş Komandanın rəhbərliyi ilə Silahlı Qüvvələrdə yüksək ruh, döyüş hazırlığı var. Ordumuz Azərbaycan Xalqının etimadını doğruldur. Mən xüsusi qeyd etmək istəyirəm ki, şəhidlərin qisası alınacaq. Heç kim buna şübhə eləməsin və bizim torpaqlar işğaldan azad olunacaq.



## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və Silahlı Qüvvələr qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıda adları göstərilən hərbi qulluqçuları təltif edilsin:

### "AZƏRBAYCAN BAYRAĞI" ORDENİ

**Musazadə Təbriz Tariyel oğlu**
***mayor (ölümündən sonra)***

**Vəlizadə Urfan Üzeyir oğlu**
***mayor (ölümündən sonra)***

**İsmayılov Əbu Bəkr Vüqar oğlu**
***baş leytenant (ölümündən sonra)***





## Urfan Üzeyir oğlu Vəlizadə



*Urfan Vəlizadə*

Vəlizadə Urfan Üzeyir oğlu 1978-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1985-ci ildə Bakı şəhəri Nizami rayonu 251 saylı orta məktəbin 1-ci sinfinə daxil olmuş, 1995-ci ildə həmin rayonun 210 saylı məktəbində orta təhsilini başa vurmuşdur. 1995-ci ildə Türkiyədə Ali Hərbi Hava məktəbinə daxil olmuş, 2000-ci ildə ali təhsilini başa vurduqdan sonra, bir il İzmir şəhərində təlim mərkəzində təhsil almışdır. Təhsilini başa vurduqdan sonra Kürdəmir rayonunda yerləşən N saylı hərbi hissəsində təyyarəçi işləmiş, 2005-ci ildən Qala qəsəbəsindəki N saylı hərbi hissəsində işinə davam etmişdir. Urfan Vəlizadə təyyarəçi, şturman, manqa, eskadrilya şturmanı vəzifələrini icra etmişdir. İşlədiyi müddətdə 4 medalla təltif edilmişdir. U.Vəlizadə gənc təyyarəçilərə kömək məqsədi ilə rus və ingilis dillərindən dərslik vəsaitləri tərcümə edərək çap etdirmişdir. 02.04.2016-cı ildə Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olmuş, 11.04.2016-cı il tarixdə II Fəxri Xiyabanda dəft olunmuşdur.

Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Azərbaycan Bayrağı" Ordeni ilə təltif olunmuşdur.

***Allah rəhmət eləsin!***

## Təbriz Tariyel oğlu Musazadə



*Təbriz Musazadə*

12.08.1981-ci il tarixdə Gürcüstan Respublikasının Dmanisi rayonunda anadan olmuşdur. 3-cü sinifə qədər Gürcüstan Respublikasında oxumuş, daha sonra Bakıya köçərək təhsilini 165 saylı orta məktəbdə başa vurmuşdur. 1999-cu ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyi, 2003 -cü ildə Azərbaycan Ali Hərbi Təyyarəçilik məktəbini bitirmiş, 2004-cü ildə Uçuş Hazırlığın Təlim mərkəzində oxumuşdur. 2011-ci ildə Türkiyə Respublikasının Uçuş Təhlükəsizliyi kursunu bitirmişdir. 2003 -cü ildən Hərbi Hava Qüvvələrində xidmətə başlayıb. Xidmət müddəti ərzində Azərbaycan Respublikası Prezidenti tərəfindən və Müdafiyə Nazirinin əmri ilə 4 döyüş medalı ilə təltif olunub. Təyyarəçi- operator, təyyarəçi, baş təyyarəçi, manqa komandiri, eskadriliyanın qərargah rəisi vəzifələrində çalışıb. 02.04.2016-cı ildə Fizuli istiqamətində döyüş zamanı şəhid olmuş və II Fəxri Xiyabanda dəfn olunmuşdur. Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Azərbaycan Bayrağı" Ordeni ilə təltif olunmuşdur.

***Allah rəhmət eləsin!***

## Əbu Bəkr Vüqar oğlu İsmayılov

İsmayılov Əbu Bəkr Vüqar oğlu 1990-cı il fevralın 10-da Kürdəmir şəhərində anadan olmuşdur. 1996-cı ildə Kürdəmir şəhər Tofiq İsmayılov adına 1 saylı orta məktəbin 1-ci sinfinə daxil olmuş və 2005-ci ildə həmin məktəbdə əsas təhsilini başa vuraraq C.Naxçıvanski adına Hərbi liseyə daxil olmuş, 2008-ci ildə liseyi başa vurmuşdur. Təhsil aldığı 3 il ərzində manqa komandiri olmuşdur. 2008-ci ildə Ali Hərbi Təyyarəçilik məktəbinə daxil olmuş, "Elektrotexnika və Elektromexanika" ixtisası üzrə Uçan aparatların elektrik avadanlığı ali peşə istiqaməti bakalavr təhsili almışdır.

Ali təhsili ərzində bölük baş çavuşu vəzifəsini icra etmişdir.

2012-ci ildə Ali təhsili başa vurmuş, iyunda leytenant rütbəsi almışdır.

2012-ci ilin avqust ayından 2013-cü ilin iyun ayınadək Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi Hava Qüvvələri Uçuş-texniki hazırlığı təlim mərkəzində dinləyici olmuşdur.

23 iyun 2013-cü ildə baş texnik təyin edilmişdir.

26 iyun 2013-cü ildə Silahlı Qüvvələrin "95 illik Yubiley Medalı" ilə təltif olunmuşdur.

2014-cü il fevralın 28-də Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Hərbi Hava Qüvvələri Komandirinin 022 saylı əmri ilə 843 saylı Hərbi hissədə Baş Aviasiya texniki təyin edilmişdir.

2015-ci ilin fevral ayından may ayınadək Milli Aviasiya Akademiyası nəzdində bort texnikliyi kursunda ixtisasını artırmışdır.

2015-ci il 25 iyunda Baş leytenant rütbəsi almışdır.

2015-ci il 2 avqust tarixindən 843 saylı hərbi hissənin baş texnik atıcısı təyin edilmişdir.

2 aprel 2016-cı il tarixdə Ermənistanın ölkəmizə qarşı silahlı təxribatının qarşısının alınması zamanı Mi-24 hərbi helikopterinin ekipajı düşmənin xeyli sayda hərbi texnikası və canlı qüvvəsini məhv etmiş və sonda qəhrəmancasına həlak olmuşlar. Qəhrəman təyyarəçilər - o cümlədən Əbu Bəkr İsmayılov ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən "Azərbaycan Bayrağı" Ordeni ilə təltif edilmişdir.

Əbu Bəkr İsmayılov Bakı şəhərində II Fəxri Xiyabanda dəfn edilmişdir.

**Milli Məclisin deputatı, akademik Rafael Hüseynov**

Bu kürdəmirli gənc, baş leytenant Əbu Bəkr İsmayılov səmada – Mi-24 vertolyotunda, Vətən göylərində həlak oldu.

Orduya bir ailənin övladı kimi getmişdi, öz kəndinin, rayonunun və bütöv Azərbaycanın istəkli balası kimi qayıdıb gəldi!

Düşmən tapdağındakı torpaqlarımızı azad edəndən sonra qələbə müjdəsi ilə dönəcəkdi ata evinə.

Bir neçə il idi ki, hərbi pilot idi. Hələ çox-çox uçuşları olacaqdı.

Sevinclərdən qanad taxacağı daha bir günün, o biri uçuşlarına bənzəməyən ayrı bir məsud uçuşun da intizarında idi.

7 ay idi evlənmişdi, ata olmağın fərəhiylə heç bir təyyarənin qalxa bilməyəcəyi yüksəklərə ucalacağı, çox da uzaqda olmayan günün arzusu da çırpınırdı ürəyində...

Əbədlilik uçub getdi. Mələklərin yanına uçub getdi.

Ey şəhid oğlu şəhid, istəmə məndən məqbər!

Sənə ağuşunu açmış da durub Peyğəmbər!

Əbu Bəkirin müqəddəs bayrağımıza bükülmüş cəsədini gətirdilər ata-baba ocağına.

Adi bir kənd uşağı kimi çıxmışdı bu evdən, qəhrəman kimi qayıtdı.

Onun doğma kəndinin adı Xırdapaydır. Amma Əbu Bəkr Vətənə çox böyük pay verdi - məsum varlığını bağışladı!

Anası ürək dağlayan sözlər deyir. Söyləyir ki, Əbu Bəkirlə telefonla danışdım. Qayıtdı ki, ana, irliləyirik, irəliləyirik. Ola bilsin ara kəsilsin. İmkan düşən kimi özüm zəng vuraram.

Zavallı, bu anlarda sən demə düşmən tərəfə son həmləsini edirmiş. Ara doğrudan da kəsilir, rabitə ömürlük qırılır.

Daha onlar bir-birlərinin səslərini eşidə bilməyəcəklər.

Əbu Bəkr və vertolyatdakı 2 mərd silahdaşı yağıya vura bilcəkləri son zərbəni endirirlər. Hər şeyin bitdiyini hiss edincə, vurularaq

alışmış vertolyatlarını düşmən mövqeyinə çırpırlar ki, son nəfəsdə də axırıncı faydalarını verə bilsinlər.

Dərd içində qovrulan anasının bu məğrur sözləri mənə elə Əbu Bəkirin qəhrəmanlığı qədər möhtəşəm gəlir: "İrəliləyirik, dedi balam, irəliləyib şəhidliyə ucaldı!"

Cəsur Əbu Bəkr şirin canı bahasına böyük qələbəmizi bir qədər də yaxınlaşdıranlardan oldu.

Vətən uğrunda, amal, məslək yolunda şəhid olmaq, əlbəttə, şərəfdir. Amma bu gözəl balalar dünyaya bunca erkən ölməkçün yox, yaşamaq, sevmək, qurub-yaratmaq, sabahın Azərbaycanını daha xoşbəxt etməkçün gəlmişdilər!

Nə acı ki, qismət belə gətirdi!

Millətimizin başı sağ olsun!

Aprelin 10-u gecəsi Kürdəmir rəşadətli balasını son dəfə qarşıladı və Əbu Bəkr Fəxri Xiyabanda əbədi rahatlıq tapmaqçün Bakıya yollandı...

Bizi bu bəlalara düçar edənlərin Tanrı və Tarix cəzasını versin!

Gözlərinizdəki kədər yaşlarının əvəzinə möhtəşəm QƏLƏBƏMİZİN köksə sığmayan iftixarı və şadlığının gətirəcəyi bəxtəvər göz yaşlarının yanaqlarınızda görünəcəyi gün lap yaxındadır, əziz vətəndaşlarımız!



***O gecə Əbu Bəkirin cənazəsi ona uzanan minlərlə əl üçün müqəddəs Kəbə idi...***

***C.Cəfərov***
***Kürdəmir rayon İcra Hakimiyyətinin Başçısı***

Azərbaycan Respublikası prezidenti cənab İlham Əliyevin ölkəmizin hərbi gücünün artırılması üçün həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində bu gün Azərbaycan Ordusu hərbi potensialına, döyüş qabiliyyətinə, təchizatına görə dünya miqyaslı, qüdrətli ordular sırasındadır.

2016-cı ilin aprel ayında təcavüzkar Ermənistanın ölkəmizə qarşı növbəti silahlı təxribatının qarşısının peşəkarcasına alınması, həyata keçirilən operativ döyüşlər zamanı cavab tədbirləri nəticəsində sarsıdıcı zərbələrlə düşmənin xeyli sayda canlı qüvvə və hərbi texnikasının rəşadətlə məhv edilməsi, hətta hərbi baxımdan strateji əhəmiyyətli bir neçə yüksəkliyin və yaşayış məntəqəsinin, minlərlə hektar torpağın düşmən işğalından azad olunması Ordumuzun nə qədər güclü olduğunu bir daha nümayiş etdirdi. Aprel döyüşləri Azərbaycan prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuz ölkəmizin işğal altında olan hissəsini qısa bir müddət ərzində işğaldan tam azad etməyə, ölkəmizin ərazi bütövlüyünü təmin etməyə qadir qüdrətli bir ordu olduğunu sübut etdi və Azərbaycan əsgərinin yüksək vətənpərvərliyini, döyüşkənlik əzmini, hünərini nümayiş etdirdi. Ermənistanın isə bütün sahələrdə olduğu kimi, hərbi sahədə də nə qədər aciz olduğu bir daha öz təsdiqini tapdı.



***Cənazə namazı***

Ordumuzun hər bir əsgəri vətənimizin hər qarış torpağı uğrunda döyüşlərdə əzmlə, rəşadətlə vuruşdu və bu yolda şəhidlər də verdik. Kürdəmir

rayonu da aprel döyüşlərində 2 şəhid verdi – Xırdapay kənd sakini Əbu Bəkr Vüqar oğlu İsmayılov və Sığırlı kənd sakini Tural Gürşad oğlu Qurbanov da qəhrəmanlıq göstərərək şəhid oldular.

Baş leytenant Əbu Bəkr İsmayılov, mayor Urfan Vəlizadə, mayor Təbriz Musazadədən ibarət Mi-24 hərbi helikopterinin ekipajı uğurlu əks hücum əməliyyatının keçirilməsində müstəsna rol oynayaraq düşmənin xeyli sayda hərbi texnikasını və canlı qüvvəsini məhv etmiş, sonda qəhrəmancasına həlak olmuşlar. Qəhrəman təyyarəçilər - o cümlədən, Əbu Bəkr İsmayılov göstərdikləri igidliyə görə ölümlərindən sonra ölkə başçısının sərəncamı ilə "Azərbaycan Bayrağı" Ordeni ilə təltif edilmişlər.

Prezident cənab İlham Əliyevin tapşırığı əsasında aprel döyüşlərində qəhrəmancasına həlak olmuş hərbiçilərin ailələri və bu döyüşlərdə əlil olmuş hərbiçilərimizin dövlət qayısı ilə təmin edilməsi, ölkəmizdə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir. Bu məqsədlə Kürdəmir rayon İcra Hakimiyyətinin Aparatı bir sıra məqsədyönlü tədbirlər həyata keçirmişdir. Belə ki, Kürdəmir rayon İcra Hakimiyyətinin sərəncamı ilə qəhrəman şəhidimiz Əbu Bəkirin xatirəsini əbədiləşdirmək məqsədilə Kürdəmir şəhərinin küçələrindən birinə onun adı verilmiş, şəhərin Heydər Əliyev prospektində - doğulduğu evin divarına barelyefi vurulmuşdur.

Əbu Bəkirin ailəsi – atası Vüqar İsmayılov, anası Rəna xanım çox qürurlu, dəyanətli insanlardır. Onlardan ancaq: - "Biz övladı Vətən üçün böyütmüşük, oğlumuz Vətən, Torpaq uğrunda Şəhid olub. Vətən sağ olsun!" – kəlməsini eşitmişik. Atalar yaxşı deyib: "Ot kökü üstə bitər." Belə qürurlu, vətənpərvər valideynlərin böyütdüyü, tərbiyə verdiyi oğul da qəhrəman olmalı idi.

Şəhid övladlarımızın əziz xatirəsi qəlbimizdə, xalqımızın yaddaşında əbədi olaraq yaşayacaq və heç zaman unudulmayacaq.

Bu gün bizim hər birimizin qəlbi tarixi bir qələbə hissi ilə döyünür və inanırıq ki, işğal olunmuş torpaqlarımızın azad olunacağı gün heç də uzaqda deyil.

*Vəsilə Əsgərli*

**Həqiqət dolu hekayət:**

**“Bir günlük general”**

Bəzən ailədə elə uşaqlar doğulur ki, onlar doğuluşdan fərqli olurlar. Fərqli hərəkətləri, fərqli həyata baxışı, fərqli görünüşləri ilə...

1990 – cı ilin fevral ayında dünyaya gələn Əbu Bəkr də fərqli uşaqlardan idi. Açıq gözlü, diqqətcil, hər şeyi vaxtında görüb, düzgün qərar vermək bacarığı ilə yaşıdlarından seçilirdi. Anası Rəna xanımın dediyi kimi, adətən, uşaq evdə problem yaradır, bu uşaq həmişə problem həll edib...

... Bu uşaqda hərbiyə meyl çox uşaqlıqdan bəlkə də, anadangəlmə olub. Bibisi onu fotoqrafa aparanda, fotostudiyaya girən kimi yanındakıların gözündən yayınıb, hərbiçi papağını başına qoyub şəkil çəkdirmək üçün dayananda hələ təzə-təzə ayaq açırdı...

Əbu Bəkr ucaboylu, düz qamətli, iti baxışlı idi. Dərslərini yaxşı oxuyurdu, ancaq hərbiyə meylli olduğu çox hiss olunurdu. Hər tətildə həyət-bacanın işlərində valideynlərinə yaxından kömək edərdi ki, onu tətillərdə hərbiçi qohumlarıgilə qoysunlar.

Anası oğlunun hərbiyə meylli olduğunu çoxdan duymuşdu, lakin razı deyildi. O, oğlunu həkim kimi görmək istəyirdi. Ancaq Əbu Bəkr o qədər öz sözündə dəqiq, düşünülmüş addım atan olub ki, ana bu qərarın qarşısnda bir söz deyə bilmir:

Nəhayət, ana oğlunun qərarında qətiliyini görüb, razlışmaq məcburiyyətində qalır və deyir:

- ”Onda sənə bir şərtlə halallıq verirəm, söz ver ki, general olacaqsan”.

Əbu Bəkr anasını yola gətirdiyinə çox sevindi, ona söz verdi və uça-uça arzularının dalınca getməyə başladı. Yaxşı oxudu, yüksək

təhsil aldı, hərb elminin bütün incəliklərini öyrəndi, çətinliklərinə sinə gərdi. Daim öz təhsilində yüksələrək pillələdi – general olmağa doğru...

Əbu Bəkr 24 yaşında olanda könlünə sevda quşu qonur. Çox sevdiyi dayısı qızı Şəbnəm ilə evlənmək qərarına gəlir. Amma, elinə, obasına, torpağına, vətəninə dərindən bağlı olan Əbu Bəkr fikirləşir ki, bəlkə bir gün itirilmiş torpaqlarımızı azad edərik, mən qəhrəmanlıq göstərərəm və şəhid olaram, anam general olmağımı görməz. Ona görə də, o öz toyunda bir sürpriz etmək qərarına gəlir. Dostları ilə birlikdə bir general paltarı tikdirir. Toy günü geyinəndən sonra anasının qarşısına keçib dayanır. Rəna xanım oğlunu ağappaq general paltarında görüb çaşır. Sonra qucaqlayıb deyir: "General boyuna qurban olum, bala".

Əbu Bəkr elə bil bilirdi ki, o bir gün şəhid olacaq, anasına söz verdiyi general rütbəsinə ucala bilməyəcək. Ona görə də, anasının qarşısına bir günlük general paltarında çıxdı.

Amma bilmirdi ki, bir gün şəhid olduqdan sonra, generaldan da yüksək pilləyə ucalacaq, adı dillər əzbəri olacaq. Bütün eli-obası onun fədakarlığından danışacaq.

Aylar, illər ötəcək, hamımız dünyadan köçəcəyik, ən böyük generallar belə. Amma şəhidlərimiz həmişə yaşayacaq. Elə Əbu Bəkr kimi.

***Kürdəmir rayonu***
***Feysbuk səhifəsindən***

*Kərim Şükürov*

## Şəhid bacım nəvələri…

## Elegiya

Ağlamadım. Axı, kişilər ağlamır. Amma ağladım da. İçimdə ağladım. Parçalandım, çilik-çilik oldum. Gözümdən çıxacaq yaş bir tornado şəklində qıvrılıb içimə çırpıldı. İçimdə nə vardısa, hamısını vurub dağıtdı…

Adi axşamlardan biri deyildi bu axşam. Cəbhədən həyəcanlı məlumatlar gəlməkdə idi. Oturub kompüterdə, feysbuk səhifəsində yazılara baxırdım. Gözləmədiyim anda iri planda şəkli qarşıma çıxdı. Üstə də yazılmışdı: “Şəhid baş leytenantımız”. Adı yox idi. Gözlərimə inanmadım. İnanmaq istəmədim. Özümü inandırmaq istədim ki, bu, o deyil.  Diqqətlə baxdım. Cəmi 6 ay əvvəl olan toyundan çəkilmiş elə yarı zabit formasındakı şəkli idi. Yenə də son ümid qığılcımını qəlbimdə bayraq edib ora-bura zəng etdim. Zəng etdim ki, bəlkə yalan ola, bəlkə yaralı ola. Cavablar da o qığılcımı söndürməkdə idi. Amma hələ tam sönməmişdi. Səhəri müxtəlif saytlara baxdım. Nəhayət, vuruşduqları helikopterin  vurulması videosunu tapdım. Məlum oldu ki, cəsədlər ermənilərdədir.

Məni bu cəsədlərin alınması müddətində ən çox ağrıdan şəhidin anası – bacım qızı Rənanın Əbu Bəkirin ölümünə inanmaması, bizim də məcbur olub onun inamına şərik olmağımız idi.

Bu arada başımız ikinci bir dərdə qarışdı. Nəvə dərdinə  dözə bilməyən nənə (bacım) beyin insultu keçirtdi və Əbu Bəkirin 3-ü gecəsi dünyasını dəyişdi. Şəhid oldu desəm, məni qeyri-təvazökarlıqda günahlandırarlar. Hər halda, o da mənim üçün şəxsən şəhiddir. Şəhid nəvənin yolunda şəhid olmuş nənə.

Əbu Bəkir mənim bacım nəvəsidir. Cəmi 6 ay ömür-gün yoldaşlığı etdiyi Şəbnəm də, bacım nəvəsidir. O, qeyri-adi bir

tərbiyə sahibi idi. Hər bir tapşırığı sözsüz, səssiz-səmirsiz yerinə yetirərdi. Elə səssizcə, "baş üstə" deməklə. Vətənin də tapşırığını sözsüz yerinə yetirdi. Hətta, paraşütlə tullananda ayağının birinin zədələnməsinə baxmayaraq, döyüşə gedən zaman məzuniyyətdə olmasına baxmayaraq.

Yazıda "ayrı-seçkilik" etdiyim üçün bütün şəhidlərimizin ruhu qarşısında özümü günahkar saymıram. Əslində, bu yazı – matəm elegiyası, birmənalı olaraq onların hamısına aiddir. Şəhid zabit və əsgərlərimiz. Onların hamısı mənim bacım nəvələridir. Torpaqlarımızın bir hisssəsini düşməndən həyatları bahasına azad etmiş şəhid bacım nəvələri.

Ağlamadım deməklə bir qədər yalan da demişdim. Hərdən ağlayırdım da. Açıq şəkildə, amma elə sakit-səssiz. Gözlərimdən yaş süzülür. Bu, içimdən çölümə çıxan vulkandır. Axı kişilər ağlamır…

Sağ olan çox bacım nəvələri var. Onlar mütləq qalan torpaqlarımızı da düşməndən azad edəcəklər. Onda şəhid bacım nəvələrinin məzarı başına daha qürurla gedəcəyik.

***"Azadlıq" qazeti. 28 aprel 2016***



***Şəhid nəvənin Şəhid nənəsi***

*Vaqif Alıoğlu*

## Bir günlük "general" və ya qəhrəmanlığın tarixi

**Aprelin 2 - də Ermənistan – Azərbaycan təmas xəttində düşmən təxribatının qarşısını alarkən qəhrəmancasına şəhid olmuş, Mi – 24 hərbi döyüş heikopterinin ekipaj üzvü, borttexnik, baş leytenant İsmayılov Əbu Bəkr Vüqar oğlunun əziz xatirəsinə ithaf edirəm.**

Xatırlayıram. Onun qəhrəmanlığı bizi doğmalaşdırdı. Kiçik oğlum Sadiqlə dostluğu onunla görüşməyimə səbəb olubmuş. Sadəcə uşaq hesab edib, qəhrə-man olacağını düşünməmişəm.

Xəbər yel qanadlı olur deyirlər. Fərqi yoxdur şad xəbər olsun, ya bəd xəbər. Bu xəbər də qəfildən haqladı bizi. Elə həmin an mən də həyətə getdim. Adamların içərisində məni görən keçmiş şagirdim olmuş Rəna yalnız qəhrəman analarına xas olan bir soyuqqanlıqla yaxınlaşıb əlimdən tutdu.

– Müəllim, nə olar siz deyin o, ölməyib. O, ölə bilməz, inanmıram. Mən qəhrəman böyütmüşəm, o, ölməz – söylədi.

Düzü şokda idim. Əlimdən tutaraq yarı hüzün, yarı inam ifadə edən gözlərini üzümə dikmiş keçmiş şagirdimə, bu günün qəhrəman anasına nə cavab verəcəyimi bilmirdim. İçimdən gələn bir səs yox, o ölməyib, yalandır, söylətdi mənə. Özüm də öz cavabıma inanmırdım. Şəhid olduğunu dəqiq bilirdim. Həmin anda isə bu cavabdan "dəqiqi" yox idi.

Şəhid olduğunu bilsəm də əbədiyyətə qovuşduğunu, qəhrəmanlıq, şücaət göstərdiyini artıq bilirdim. Mənim qəti cavabımı eşidən xalası Güləbatın da müəllim inamına sığındı.

Hə, bu xəbər hələ təzə idi. Alışdırmaq lazım idi yaxınlarını bu xəbərə.

Atası Vüqar sadəcə "Vətən sağ olsun! Biz onun fizioloji

validеynləriyik. O, hərbi forma geyinəndən bu Vətənin, bu yurdun, bu xalqın oğludur" – dedi.

İlk anlar idi. Ağlayan kim, sızlayan kim. Təkcə Rəna ana və Vüqar ata ağlamırdılar. Hər ikisi sadəcə "Təki Vətən sağ olsun!" söylədilər. Aprelin 2 – si idi. Azğın erməni faşizminin iç üzü bir daha görünmüş, öz torpağımızda illərdir təmas xətti adlandırdıqları ərazidə atəşkəsi pozmuşdular. Düşünmədikləri cavabı almış, Azərbaycan ordusunun əks zərbələrinə tuş gəlmişdilər.

Oğlunun şəhidlik xəbərinə acımaq əvəzinə, Rəna xanım da ordumuzun müzəffər yürüşünə sevinir, hər an dəyişən cəbhə xəbərlərini izləyirdi.

Təxminən, hamı eyni fikirdə idi. Qəhrəman anaları elə bu xasiyyətdə olur. O, ağlamır, cəmi altı – yeddi ayın gəlini olan, qardaşı qızı Şəbnəmi ovundururdu. Əslində, Şəbnəm də, bizim təbirimzcə, "dünənki uşaq" olan gəlin də dözümlülük göstərirdi. Cəmi, bir neçə ay əvvəl toyları olmuşdu. Onların bu izdivacı çoxlarının fikirləşə biləcəyi kimi qohumluq əlaqələrindən yox, saf sevgidən yoğrulmuşdu. Onların ailə qurmasına ata – analar, sadəcə, xeyir – dua vermiş, el adətincə toy çalınmışdı.

Dünyaya qeyri – adiliklə gələn qəhrəmanlar həyatı boyu təəccübləndirməyi bacarırlar. 2015 – ci ilin avqust ayında baş tutan bu toyda hər şey fəqrli idi. İştirakçıların çoxu Əbu Bəkirin dostları – hərbiçilər, pilotlar, orta məktəb yoldaşları idi. Toy günü üçün hamı kimi özünə bəy kostyumu seçmişdi. Hamı kimi səliqəli və təzə geyinməli , "Vağzalı" sədaları altında öz bəxtinə düşəni – Şəbnəmi ağ gəlinlik libasında əlindən tutub ata evindən götürməli, bir cüt göyərçin olub, ilk əvvəl şadlıq evinə, sonra isə ata ocağına uçmalıydılar.

Nə "Vağzalı" çalındı, nə də ki... Onlar xoşbəxt cütlük kimi uçdular. Səmanın ənginliklərindən zövq alan, könlü daim Vətən göylərində olan Əbu Bəkr öz sevgilisini ata evindən, dayısı Asifin ocağından götürdü və "Vağzalı" çaldırmadı. Amma, onun üçün dünyanın ən qiymətli musiqisi olan bir musiqini "Azərbaycan marşını" çaldırdı. Hamı heyrətlənmişdi. Bəli, bu toyun ssenarisini də,

musiqi tərtibatını da, iştirakçılarını da o, özü seçmişdi. Sən demə bu adi bir gənc təyyarəçinin yox, gələcək qəhrəmanın, Vətəni, torpağı canından əziz tutan bir fədainin "yaradıcılığı" imiş. Toya yığışanları heyrətləndirən digər cəhətlər də var idi. Toy maşınlarına qırmızı xələtlər əvəzinə, Azərbaycan bayraqları asılmış, əksər sürücülər isə onun hərbçi dostları idi.

Toyda ən böyük qeyri – adiliyi isə indi söyləmək istəyirəm. Bəy Əbu Bəkr İsmayılov hərbi geyimdə idi. Onun zər paqonları və enli qırmızı zehli "general" şalvarı hamını heyrətləndirmişdi. Bəli, əziz oxucum, general paltarında.

Bu barədə anası Rəna xanım söyləyir: "Əbu Bəkrin ən böyük arzusu general olmaq idi. Mən onu həkim görmək istəyirdim. İstəsəm də, onu arzusundan döndərə bilmədim. Hərbçi olacağam, general olacağam. Səni, Vətəni, torpağı qoruyacağam, ana - söylədi. Elə o vaxt hiss etdim ki, oğlum Vətən yolunda şəhid olmağa hazır olan bir vətənpərvər kimi yetişəcək. Ürəklə-get bala, yolun uğurlu olsun, – söylədim. Tək getmişdi, indi gör nə qədər adamla gəlir". (Şəhid anası Rəna İsmayılovanın dəfn mərasimində çıxışından)

Atası Vüqar İsmayılov isə "Təki Vətən sağ olsun! Əbu Bəkirin şəhid olmasından təəssüflənmirəm. Oğlum Vətən yolunda, xalq yolunda şəhid olub. O, tək mənim yox, Azərbaycanın övladıdır" - söylədi.

Hamı heyrətdə idi. Gənc ana və atadakı bu dözümə, mətanətə, vüqara heyrətlənməmək mümkünsüzdür.

"Mən fəxr edirəm ki, şəhid pilot, qəhrəman Əbu Bəkr İsmayılovun həyat yoldaşıyam. Onunla fəxr edirəm, qürur duyuram", - söyləyən həyat yoldaşı Şəbnəm İsmayılovanın cavabı isə, nəinki müsahibə götürən jurnalistləri, bütün ölkəni şoka saldı, ağlatdı. Bu qürurlu gəlin isə ağlamadı, hamıya dözüm nümayiş etdirdi.

Təkcə başındakı qara ləçək və üzündəki kədər cizgiləri onun qəhrəman bir şəhidin həyat yoldaşı olduğunu təsdiqləyirdi.

Ağlamağı bacarmıram. Arzulayıram ki, heç kim də ağlamasın. Amma, Şəbnəmin qüruru, dəyanəti qarşısında on minlərdən biri

kimi mən də ağladım. O, isə dözdü, içindəki sızıltını, kədəri vüqara qatıb dəyanətli oldu. Göz yaşlarını axıtmadı.

Günlərlə həsrətli qaldıq. Bəlkələr gümanına sığınıb bəlkə əsir düşüb, bəlkə yaralıdır, bəlkə sağdır, düşmən tərəfdədir, təmas xəttindən keçib gələ bilmir? Bu bəlkələr və gümanlar hamını intizarda saxlamışdı.

Yurd və Vətən sevgisi hamı kimi onları da dəyanət zirehinə bürüdü. Rəna ana da, Vüqar ata da, gənc gəlin Şəbnəm də bircə şeylə təsəlli tapırdılar. Ölsə də, qalsa da artıq qəhrəmanlığı xalq tərəfindən təsdiq olunmuşdu. El – oba hamı onların həyətinə axışır. Onlara həmdəm olmağa, dərdlərini bölüşməyə çalışırdılar. Təsəlli isə bircə idi. Əbu Bəkr də, onun döyüş yoldaşları Ürfan da, Təbriz də Vətən yolunda, yurd torpağında azadlıq fədaisi olmuşdular. Təmas xətti adlanan yerin hər iki tərəfi özümüzünkü idi. 20 ildən çoxdur ki, düşmən əsarətində olan bu torpağın hər qarışı qiymətli idi. Vətən, yurd naminə şəhid olmağa dəyərdi.

Mi – 24 helikopterinin düşmən tərəfindən vurulması xəbəri təsdiqlənsə də Rəna xanım heç cür Əbu Bəkirin ölümü ilə razılaşmırdı. Onun sağ qayıdacağını əminliklə söyləyirdi. Rayon rəhbərliyi, rəsmi şəxslər həyətə gələndə də Rəna ana öz inamında israrlı olurdu. “Mənim oğlum ölə bilməz. Şəhid olub ölümsüzlük qazana bilər”, - söyləyirdi.

Rənanı uşaq vaxtından tanıyırdım. Heç uzaq qohum da deyildik. Sadəcə bir kənddə yaşayırdıq.Orta məktəbdə müəllimi olmuşdum. Ağıllı və savadlı bir şagird idi. Elə o vaxt tərbiyəsi və qeyri – adilikləri ilə fərqlənərdi. Onun bu gün şəhid anası kimi özünü toxtaq və dözümlü aparması da, mənə qeyri – adi gəlmirdi. Təəssüfləndiyim isə bircə cəhət var idi. Mən şəhid Əbu Bəkr İsmayılovun toy mərasimində olmamışdım. Onu – Bİr günlük “generalı” zər paqonlu hərbi paltarda seyr etməmişdim. Yəqin ki, şairlər, yazıçılar bu qeyri – adi qəhrəman haqqında çox yazacaqlar.

Bakıda “Heydər məscidi”ndə Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın şəhid olmuş döyüşçülərin ailə üzvləri ilə görüşündə də Rəna ana ağlamadı, inama sığındı.

“Vətən sağ olsun”, - söyləyən Şəbnəmə sığındı. Onu ovundurdu, ürək – dirək verdi, köksünə sıxdı.

Günlərin və saatların yürüşündə bəzilərimizin üçgünlük, bəzilərimizin isə dördgünlük adlandırdığımız Vətən müharibəsində atəşkəs elan olundu. Bir vəhdət şəkilndə birləşən, mən deyərdim ki, yeni təkamül dövrünü yaşayan qədim Azərbaycan xalqı mübarizədə israrlı olsa da böyük fəlakətlərin siyasi müstəvidə müzakirə olunduğu məqam, burada da öz bəhrəsini verdi.

Danışıqlar yolu seçildi. Mən, şəxsən, siyasətçi olmadığımdan, bu qərara etiraz edirəm. Qan verən yara müalicə olunmalıdır. İllərdir düşmən tapdağında inləyən doğma yurd yerlərimiz, Vətən yolunda canlarından keçmiş Şəhid ruhları gözləyir bu məqamı. Hesab edirəm ki, tanınmış Sovet diplomatı Q.V.Çiçerin “Bütün Şərqdə işğalçı siyasətin aparıcıları, xarici kapitalın agentləri xain və satqın ermənilərdir” – söyləməklə, bu soykökü məlum olmayan millətin iç üzünü açmışdır. Bəli, erməni xəbis, xain və satqındır. Onun hər anı yalançılıq və riyakarlıq üzərində qurulmuşdur. Amma, yenə son söz siyasətçilərindir.

Artıq aprelin 8 – i idi. Mən Rənanı ölümsüz oğlu, dostlarının, sadəcə, Bəkir deyə çağırdıqları, baş leytenant, Mi – 24 helikopterinin borttexniki, Rənanın isə “general balam” söylədiyi Əbu Bəkr İsmayılovun vəfatına inandıra bilmişdim. Vüqar bir kişi olaraq, bir ata olaraq artıq hər bir detalı müzakirə edirdi. Ana dəyanəti, qadın cəsarəti sanki Rənanın timsalında birləşmişdi.

Əbu Bəkr səhər getdiyi həyətə gecə qayıtdı. Üstünə müqəddəs üçrəngli, ay – ulduzlu Azərbaycan bayrağı sərilmiş şəhid tabutunda qayıtdı. Onun qəfləti qayıdışına bütün kürdəmirlilər yığışdı. Çoxminlı izdiham onu təntənə ilə qarşıladı. Elə gecə ikən onun ata həyətində mitinq keçirildi. Rayon rəhbərliyi, yaxınları, dostları onun böyük qəhrəmanlığını dəyərləndirdilər.

Dəfn mərasimi Bakıda, ikinci Fəxri Xiyabanda oldu. Böyük təntənə və sonsuz izdiham gənc baş leytenantı əbədiyyətə yola saldı. Fəxri xiyabanda da döyüş yoldaşlarından - mayor Urfan Vəlizadədən və mayor Təbriz Musazadədən ayrılmadı. Doğma Vətən torpağını

birgə qucaqladılar. Səmadan həsrətlə boylanan Günəşin istisinə sığındılar.

Əbədi və əzəli məskənləri torpaq, yuvaları insanların qəlbi oldu. Heç vaxt və heç zaman unudulmayacaq qəhrəmanlıqları ilə tarix yazdılar.

Xalq və Vətən qarşısında borclarını yerinə yetirdilər.

Ən ali, ən uca bir zirvəyə - şəhidlik zirvəsinə ucaldılar. Tarix və zaman qəhrəmalığı unutmur. Xalq isə öz qəhrəman, igid oğlanları ilə fəxr edir.

Çox uzaqlarda noqtə qoyacağım yazımın sonunda isə, yaşasın Azərbaycan! - yazmaq istəyirəm.

***"Mədəniyyət" qəzeti 11 may 2016***



***Qəhrəman Şəhidi el qarşılayır***

## Şəhid təyyarəçi

**2016-cı il aprel döyüşlərində döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuş, baş leytenant Əbu Bəkr İsmayılovun əziz xatirəsinə...**

### (Poemadan parçalar)

1990-cı ilin
Soyuq fevral ayında
Dünyaya göz açıbdır.
Əbu Bəkr İsmayılov...
Hələ uşaq vaxtında
Ana Vətən deyirdi.
Doğma Azərbaycanı
Canından çox sevirdi.
Ana Vətən haqqında
Məktəb illərində o,
Şeirlər söyləyirdi.
Hərbiçi olacağın
Əvvəlcədən deyirdi.
İdmanı çox sevirdi
Bütün fənlərə hazır
Hər an öndə gedirdi.
Onun bacarığına
Anası çox sevinir
Atası fəxr edirdi.
Müəllimlər məktəbdə
Onu tərif edirdi.
Sinifdə şagirdlər də
Əbu Bəkri sevirdi.

Bu sevimli oğlanın
Sevgisi Vətən idi.
Səkkizinci sinifdən
Sənədini toplayıb
Cəmşid Naxçıvanski
Hərbi liseyə gəldi.
Kursant adı qazandı.
Hərbi geyimdə sanki
Dağlar qədər ucaldı.
Vətən adlı bu yolda
Qarabağa yol aldı.
Gecə-gündüz qəlbindən
Düşmənə nifrət yağdı.
Sağalmayan yaramız
Anamız Qarabağdı
Vətənə məhəbbəti
Coşub-daşır qəlbində
O, özünü tapmışdı
Vətən məhəbbətində
Liseyi başa vurub
Təhsilin davam etdi.
Təyyarəçilik məktəbində
Dağlardan uca olan,

Əlçatmaz arzuları
Nur saçırdı qəlbində.
Təlimlərdə hər zaman
Təcrübə toplayırdı.
Çətin tapşırıqlarda
Özünü sınayırdı/
Onun fəxri-vüqarı
Qüruru iftixarı
Vətənimin üç rəngli
Müqəddəs bayrağıydı.
Bayraq, torpaq uğrunda
Öz canından keçməyə
Hər zaman hazır idi.
Qeyrətli Vətən oğlu
Kürdəmirdən ilk pilot
Gənc Əbu Bəkr idi.
Ömrünün bahar çağı
İyirimi altı il oldu.
Onun hərbi həyatı
Əbədi bir yol oldu.
2016-cı il
Aprel döyüşlərində
Əbu Bəkr İsmayılov
Ana Vətən uğurunda
Müqəddəs şəhid oldu.
Şərəfli ölümüylə
Xalqın qəlbinə doldu.

Qərənfillər yas tutub
Boynunu büküb soldu.
Xalqım matəm içində,
O, xalqımın qeyrətli
Məğrur, şəhid oğludu.
O, bir evin oğluydu
Bütöv bir xalqın oldu
Azərbaycan xalqının
Mərd, qəhrəman oğludu.
Ali Baş Komandanın
sərəncamı ilə o
"Azərbaycan Bayrağı"
Ordenlə təltif oldu.
Ölümündən sonrakı
Ölümü ölümsüzlüyün
Uzun ömürü oldu.
Şəhidin yas günündə
Mehriban Əliyeva
Bu dərdə şərik oldu.
Bu dərd bizim dərdimiz
Millət də birlik oldu.
Gəldi matəm günü
Mehriban xanım,
Yaralı qəlblərə bir məlhəm oldu.
Dinlədi hər kəsi dinlədikcə o
Yanar ürəklərə bir məlhəm oldu.

* * *

Döyüşçü, hərbiçi, həm təyyarəçi
Tarix yaşadacaq, Əbu Bəkiri
Vətənin uğrunda o, şəhid oldu,
Xalqımın əbədi qəlbinə doldu.

Deyirlər yaz fəsli, güllü-çiçəkli,
Oldu taleləri kədərli-qəmli,
Cavan bir gəlinin gözləri nəmli
Şəhid sevgisinə şəhid oldu o.

Gedər-gəlməz olub, yolları bağlı
Ananın kədərdən ürəyi dağlı,
Ellər də yas tutur, ellər ağlayır,
Vətən  də ağlayır Əbu Bəkiri.

Şəbnəm ana deyir Rəna xanıma
Ehtiram duyulur şəhid adına
Dalıb xəyallara, dolub gözləri
Əbu Bəkr hər zaman düşür yadına.

Əkib həyətində güllər-çiçəklər
Bağında neçə cür vardı meyvələr
Boyayıb evini qırmızı rəngdə
Cənnət qoxuyurdu, sanki həyətdə.

Səhər açılanda günəş nuruyla
Zülməti yox edir, müqəddəs şəhid.
Xəyal qanadında şəkilləriylə
Sanki danışırlar onun ruhuyla.
- Darıxma Şəbnəmim, darıxma anam
Nə vaxtsa cənnətdə görüşərik biz.
Bu dərdi tək çəkmək çətindir Sizə
Dərdi də, qəmi də bölüşərik biz.

Mən ki, getməmişəm Sizdən uzağa
Mən ki, ürəyimdə yer eyləmişəm.
Vaxtsız ayrılsaq da, onu bilin ki,
Mən Sizi özümdən çox istəmişəm...

***Zəminə Xınalı***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü***

## Şəhid Əbu Bəkr

Ömür ağdan qarayacan,
Bu dünyadan doyanacan.
Kürdəmirdən harayacan
Ananın gözü yol çəkir?
Şəhid Əbu Bəkr.

"Altında ağ at gələcək,
Üzügülər, şad gələcək.
Balam salamat gələcək",
O, deyən olaydı təki,
Şəhid Əbu Bəkr.

Verildi uçuş əmirin
Partladıldı ağ dəmirin
Ayaq üstdə Kürdəmirim,
Göz yaşları çiçək əkir,
Şəhid Əbu Bəkr.

***Sevinc Arzulu***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü***

## Əbu Bəkirim

Vətən eşqi ilə havaya qalxdın,
Düşməni sarsıdıb, yandırıb yaxdın,
Üç rəngli bayrağı zirvəyə taxdın,
Ey vətən övladı, Əbu Bəkirim.

Üç rəngli bayrağa bükülsən də sən,
Ürəklər başında, zirvədəsən sən,
Şəhidlik zirvəsi məqamındasan,
Ey vətən övladı, Əbu Bəkirim.

Axır ki, arzuna beləcə çatdın,
Düşmənin qanını torpağa qatdın.
Qəhrəman libasın geyinib yatdın,
Ey vətən övladı, Əbu Bəkirim.

Elxanam, yazıram göz yaşlarımla,
Düşmənə atdığın kin daşlarınla,
Qəhrəman şəhidlər, qardaşlarınla,
Ey vətən övladı, Əbu Bəkirim.

***Elxan Ağalaroğlu***

Bir il ərzində igid şəhidimiz Əbu Bəkr İsmayılovun evində dəfələrlə olduq, ailəsi, anası ilə həmsöhbət olduq, dərdləşdik. Anası Rəna xanımın böyük ürəyinə, təmkininə həsəd apardıq, qüruruna, vətən sevgisinə əhsən dedik. Ancaq bu müddət ərzində içinə axan göz yaşını, içində boğduğu hayqırtısını, səhəri diri açan dərdli gözlərini görməmək də mümkün deyil. Həmişə mehriban, gülərüz, gənc, göyçək Rəna ananın gözlərinin işığı sönüb, rəngi solub, sınıxıb yumağa dönüb, qocalıb qısa müddətdə… Rəna xanımı - Şəhid anasını yaxşı anlayıram, dərdini içimdən keçirirəm və içimdən keçənləri oxucularla paylaşıram...

**Şəhid anası**

Yığıb şəkilləri xatirə kimi
Saxlayar qoynunda şəhid anası.
Düzər tər qərənfil məzarlar üstə,
Ayırmaz oğlundan şəhid anası.

Dikər gözlərini sonsuz yollara,
"Bəlkə Bəkir gəldi"-xəyal quraraq.
Kəsməz ümidini, geysə də qara,
Gözləyər balasın şəhid anası.

Danışar oğlunun körpəliyindən,
Dastana sığmayan dəcəlliyindən,
Elmindən, ağlından, zirəkliyindən,
Boğular qəhərdən şəhid anası.

Bayram günlərində bulud tək dolar,
Açılmaz aynası, bənizi solar.
Yuxuda görəndə saçların yolar,
Hönkürüb ağlayar şəhid anası.

***Yaqut Bahadurqızı***

*Məryəm Əliyeva*

## O, bütün arzularını ən çox sevdiyi Azərbaycan bayrağına büküb ən yüksək zirvəyə, Şəhidlik zirvəzinə sancdı

Müharibə!!! Hər addımı, hər tərəfi qanla suvarılmış bir savaş, bir döyüş. Bu sadə, sadə olduğu qədər də bütün ətrafı al qanı xatırladan bir çox insanları, atasız, oğulsuz, qardaşsız, həyat yoldaşısız qoyduğu qədər də dəhşətlidir, amansızdır bu söz, bu kəlam!!!. Bu müharibələrin ağrısı, acısı, dağı, fəryadı, iniltisi əsrlər boyu neçə-neçə dövlətləri, xalqları, millətləri yurdsuz-yuvasız, evsiz-eşiksiz, doğmalarsız, əzizlərsiz qoydu. Üstündə gəzdiyimiz torpaqlarımız, neçə-neçə günahsız insanların qanı ilə suvarıldı, amma Vətən sözü hatta qədimdən bu günümüzə qədər hər bir Azərbaycan övladı üçün ən müqəddəs bir söz, ən müdrik bir kəlam oldu. İnsanlar sinələrini sipər elədi Vətən yolunda, analar min bir əziyyətlə böyütdükləri oğullarını heç göz qırpmadan belə göndərdi Vətənin müdafiəsinə, "Təki Vətən yaşasın" – deyə. Oğullar Şəhidlik kimi ən uca zirvəyə ucaldı, "Təki Vətən sağ olsun" - deyə. Damarında azərbaycanlı qanı olan hər bir insana Vətən ən müqəddəs bir söz, ən müdrik bir kəlamdı, hər zaman hər an. İndi biz yollarda tez-tez məktəbli uşaqları görəndə ürəyimiz qürurla döyünür, onlar əllərində Üçrəngli Bayrağı tutaraq "Qarabağ bizimdi, bizim olacaq", "Şəhidlər ölməz, Vətən bölünməz!" - deyərək bir birindən bərk qışqıraraq, sanki qanadlı quş olub Qarabağa uçmaq istəyirlər. Bu körpələri görən hər bir insan qürurlanır. Bu günümüzdə olduğu kimi sabahımıza böyük inamla baxırıq. Bu gün küçədə, həyətdə oynayan bu uşaqlar sabahın əsl vətənpərvər, torpaqsevər bir övladı kimi böyüyür, özləri bilmədən, özləri duymadan.

Bunları fikirləşə-fikirləşə bir də başımı qaldırdım ki, düz Əbu Bəkrgilin qapısının qarşısındayam. Əbu Bəkirin qapısın heç kimdən soruşmağa ehtiyac yoxdu, tanımasan da. Çünki qapının üstündə

dalğalanan Üçrəngli Bayrağımız hər kəsə bu qapını tanıdır.

Öncə qapını döyməyə çəkindim, çünki çox kövrəlmişdim, gözlərimdən yaş axırdı. Nəhayət qapını döydüm, içəridən, "gəl" sözünü eşitdim. Əbu Bəkirin anası Rəna xanım və cəmi yeddi ayın gəlini olan Şəbnəm xanım məni illərin əziz bir qonağı, doğma bir insanı kimi qarşıladılar. Mən əyləşəndə, elə bil, çoxdan tanıdığım bir evdə olduğum kimi əyləşdim.

Haşiyə: İsmayılov Əbu Bəkr Vüqar oğlu 1990-cı il fevralın 10 da Kürdəmir rayonunda anadan olmuşdur. Anası Rəna xanım iş xanımı olduğu üçün, onu 3 saylı uşaq baxçasına qoymuşdu. Əbu Bəkr 1996-2005-ci illərdə Kürdəmir şəhər 1 saylı orta məktəbində təhsil almışdır. Bununla yanaşı o, Kürdəmir Uşaq Musiqi məktəbinin fortopiano şöbəsində də təhsil almışdır. Həm orta məktəbdə, həm də musiqi məktəbində əla qiymətlərlə oxumuş, öz səviyyəsi, səliqə-səhmanı, dünyagörüşü və savadı ilə şagirdlərdən fərqlənirdi. Fortopianonu çox gözəl çalmağı bacarırdı. 2000-ci ildə o, Musiqi məktəbində musiqi yarışmasının qalibi olaraq mükafata layiq görülmüşdür. 2005-ci ildə Əbu Bəkr C.Naxçıvanski adına Hərbi Liseyə qəbul olunur. Liseydə oxuduğu zaman 2005-2008-ci illərdə manqa komandiri vəzifəsini icra etmişdir. 2008-ci ildə liseyi bitirib H.Əliyev adına Ali Hərbi Təyyarəçilik məktəbinə daxil olur. Həm də 2008-2012-ci illərdə bölük baş çavuşu vəzifəsini icra edir. 2012-ci ildə bu məktəbi yüksək nailiyyətlərlə bitirib və Hərbi magistraturada oxuyub. 2013-ildən 25 yaşında baş leytenant rütbəsi ilə hərbi xidmətə başlayır. 2014-2015-ci illərdə Milli Aviasiya məktəbində bort texnik kursunu fərqlənmə diplomu ilə bitirir.

Azərbaycan Milli Ordusunda hərbi pilot kimi qulluq edir. 2016-cı ilin 1 aprelində birinci döyüş əməliyyatı zamanı Əbu Bəkr öz pilot dostları ilə ermənilərin 16 hərbi texnikasını böyük uğurla məhv edərək 300 nəfərədək Azərbaycan hərbiçilərini mühasirədən qutarır. Lələ təpə zirvəsi alınır və Azərbaycan Bayrağı burda uğurla dalğalanmağa başlayır, Əbu Bəkr və onun igid dostlarının, Azərbaycan əsgərlərinin qəhrəmanlıqları, mərdlikləri sayəsində.

İkinci döyüş əməliyyatı zamanı Mi-24 hərbi döyüş helikopteri

vuruldu. Baş leytenant Əbu Bəkr İsmayılov, mayor Urfan Vəlizadə və mayor Təbriz Musazadə həmin vertalyotda idilər və hər üçü Şəhid oldular.

Əbu Bəkirin anası və çox gənc xanımı oxumuş, savadlı xanımlardır. Onların söhbətləri özü elə insan üçün bir məktəbdir sanki. Ana oğlunun uşaqlığından bu günə qədər olanları elə ürəklə, elə qürurla danışırdı ki, oturub onu dinlədikcə dinləmək istəyirdim.

Əbu Bəkr elə uşaqlığdan sülhsevər, dərrakəli, təmkinli bir uşaq olub. Anası deyir: "Əbu Bəkr, məktəbdə aşağı sinifdə oxuyurdu. Bir dəfə qonşunun uşağı daş atdı, daş bizim dam örtüyümüzü sındırdı. Oğlum Əbu Bəkr uşağı heç incitmədən səmimi yanına çağırdı, onun əlindən tutub öz evlərinə apardı. Uşağın valideyinlərindən xahiş etdi ki, onu döyüb incitməsinlər, sadəcə başa salsınlar ki, qonşuya ziyan vurmaq olmaz. Əbu Bəkirin bu hərəkəti qonşunu o qədər tutmuşdu ki, o axşam uşağını gətirib həm öz adından, həm də uşağının adından balaca Əbu Bəkirdən üzr istəmişdi." Ana bu söhbəti elə qürurla, elə səmimiyyətlə danışırdı ki. "Onda hiss etdim ki, necə oğul böyüdürəm" – deyə ana söhbətinə davam etdi.

Əbu Bəkr bəzi xarakterləri ilə, düşüncəsi, dərrakəsi ilə bir çox məktəb uşaqlarından fərqlənirdi. Hər dəfə müəllimlər uşaqlardan soruşanda - sən böyüyəndə kim olacaqsan? Əbu Bəkr – "Mən böyüyəndə qəhrəman olacam, sonra da Şəhid olacam" – deyirdi. O zaman müəllimləri balaca Əbu Bəkirin başını sığallayıb – hərbiçi ol, amma Şəhid olma deyirdilər. Bax, bu idi hələ uşaqlığdan həyatı o qədər də dərk etməyən, yaşca kiçik, öz kiçikliyi qədər də düşüncəsi , dərrakəsi böyük olan Əbu Bəkirin məsləki, amalı !!!

Əbu Bəkr mənəviyyatca saf olmayan insanlardan hər zaman uzaq qaçırdı. Bir Vətənini, bir də Allahını çox sevirdi. Oruc tuturdu, namaz qılırdı. Çox gənc olmasına baxmayaraq həm də xeyriyyəçi idi. Yoldaşı Şəbnəm xanım deyir ki, Bakıda Pirallahı qəsəbəsində bir ailəyə öz şəxsi vəsaiti hesabına tez-tez yardımlar edirdi. Qurban bayramında öz şəxsi vəsaiti hesabına Qurban kəsib kasıblara paylayırdı.

"Böyüyə hörmət, uşağa məhəbbət" – onun amalı idi. Kursantlara hər zaman bunu aşılayırdı.

Əbu Bəkirin toyu da tam fərqli toy oldu. Onun bəylik kostyumu Hərbi geyimdən oldu, həm toy maşını, həm də əyləşdiyi masa gül çiçək əvəzinə Azərbaycan bayrağı ilə bəzəndi, vağzalı əvəzinə Əsgər marşı çalındı Əbu Bəkirin toyunda. Yoldaşı Şəbnəm xanım qeyd edir ki, "Biz yeddi ay ailə həyatı yaşadıq. Amma Əbu Bəkr bu yeddi ayda yetmiş ilin xöşbəxtliyini yaşatdı mənə". Şəbnəm xanım onu da qeyd etdi ki, "Əbu Bəkr adı, Məhəmməd Peyğəmbərimizin ən yaxın dostunun, məsləkdaşının adıdı. Bəlkə də, elə mənim yoldaşım bu adı daşıdığı üçün bu qədər saf, bu qədər əvəzsiz bir oğul, dəyərli həyat yoldaşı olmuşdur".

Əbu Bəkirin nənəsi Püstə nənə nəvəsinin ölümünə dözə bilmədi. Əbu Bəkirin üçünün səhəri günü dünyasını dəyişdi Püstə nənə.

Anası Rəna xanım danışır, mən onu dinləyib hərdən kövrəlirdim. O zaman anası, "Ağlama qızım, mənim oğlum ölməyib ki, qəhrəmanlıqla Şəhid olub" – söylədi. Mənim oğlum başqa cür ölə də bilməzdi, o, ancaq Şəhid olmaqçun yaranmışdı. Ananın gözlərinə baxdım, gözlərindənki qüruru gördüm, alnındakı vüqarı gördüm. Ana adının müqəddəsliyini, əzəmətini gördüm bu anada. Oğul itirmişdi, əyilmirdi, sınmırdı, əksinə başını ucadan da uca tuturdu. Sanki düşmənə meydan oxuyub deyirdi " Bu cür qərhrəman oğulları olan torpağa heç vaxt sahib çıxa bilməzsiz."

Mən isə danışmaqdan yorulmayan bu anaya baxıb ona dedim: Bu cür əzəmətli, vüqarlı ananın südünü əmən əlbəttə ki, mütləq qəhrəman olmalıdı.

Ölüm var ki, evdən gedir, ölüm də var eldən gedir. Əbu Bəkr bir evin, bir ailənin oğulu kimi dünyaya gəldi. Çox qısa ömür yaşasa da, elin oğlu kimi dünyadan getdi. İndi elə bir adam yoxdur ki, bu adı bilməsin.

Qürurlu ana onu da qeyd etdi ki, istər yas mərasimində, istərsə də, ondan sonra evə gələn hər kəs mənə deyir "Səbrli ol". Mən isə onlara deyirəm: Səbri mənə Allahımız verib. Oğul var ki, Şəhid olub da. Bəs belə oğullar olmasa torpağlarımızı kim qoruyar? Mən oğlumun Şəhidliyinə görə ağlamıram, onun xatirələri yadıma düşəndə ağlayıram." Ana bir də oğlunun dostlarına minnətdarlıq

etdi və bildirdi ki, “onlar tez-tez mənə baş çəkir, mən onları görəndə düşünürəm oğlanlarımdı hər biri. Dərdim bir az azalır o zaman”- dedi bu müdrik ana.

Əbu Bəkr hələ C.Naxçıvanski adına Hərbi Liseyi bitirən zaman kursantlar hazırladıqları “Məzun” kitabında bir-birlərinə arzu və istəklərini yazmışdılar. Əbu Bəkr ən yaxın dostu olan Hətəmxana öz ürək sözlərini, arzularını H.Cavidin bu şerilə sonluq vermişdir.

Ölmək yaşamaqdır,
Sərsəm yaşamaq, ölümə yamaqdır.
“Sənə həyatda sərsəm yaşamaq
yox, ölərək yaşamağı arzu edirəm.”

Bax, Əbu Bəkr bu gün həmin “Ölmək yaşamaqdır” yolunu öz Şəhidliyi ilə sübuta yetirdi.

Əbu Bəkr cəmi 26 – il yaşadı. O, çox yaşasaydı daha çox işlər görərdi.Azərbaycan Bayrağı onun üçün ən müqəddəs bir şey idi. Bütün arzularını ən çox sevdiyi Azərbaycan bayrağına büküb ən yüksək zirvəyə, Şəhidlik zirvəzinə sancdı Əbu Bəkr İsmayılov.

Əbu Bəkr İsmayılov Respublika Prezidenti tərəfindən (ölümündən sonra) “Azərbaycan Bayrağı” Ordeninə layiq görüldü.

İkinci Fəxri Xiyabanda dəfn olunub. Ailəsi buna görə Prezidentimizə minnətdarlıq elədi.

Mən bu evə çox kədərli və göz yaşları içində gəlmişdim. Bu evdən gedəndə isə, çox şeylər apardım özümlə, ən əsası isə sabaha böyük ümid və inam.

Doğrudan da, belə ölkədə yaşamağa dəyər. Çünki, onun Rəna ana kimi belə ləyaqətli, vüqarlı anaları, Əbu Bəkr kimi qəhrəman oğulları var. Çox sağ ol Ulu Tanrım, belə insanları yaratdığına görə.

***Mədəniyyət.AZ 7.2016***

## Şəhid pilotun anım mərasimi

Fevralın 10-da Kürdəmir şəhərində 2016-cı il aprel döyüşlərinin qəhrəmanı, Mi-24 hərbi döyüş helikopterinin ekipaj üzvü, şəhid baş leytenant Əbu Bəkr Vüqar oğlu İsmayılovun doğum günü qeyd edildi. Ordumuzun zəfər salnaməsinə yazılan həmin döyüşlərdə baş leytenant Əbu Bəkr İsmayılov, mayorlar Urfan Vəlizadə və Təbriz Musazadədən ibarət ekipaj hərbçilərimizin uğurlu əks-hücum əməliyyatının keçirilməsində müstəsna rol oynayaraq sərrast atəşlə düşmənin hərbi texnika və canlı qüvvəsini məhv etmiş, sonda qəhrəmancasına həlak olmuşdur.

Əbu Bəkir İsmayılov göstərdiyi qəhrəmanlığa görə ölümündən sonra ölkə başçısının sərəncamı ilə "Azərbaycan Bayrağı" Ordeni ilə təltif edilmişdir. Kürdəmir şəhərinin küçələrindən birinə onun adı verilmiş, doğulub boya-başa çatdığı evin divarına şəhidin barelyefi vurulmuşdur.

Kürdəmir Regional Mədəniyyət və Turizm İdarəsinin işçiləri barelyef qarşısında anım mərasimi keçirdilər.

İdarənin rəisi Elman Məmmədov, idarənin baş məsləhətçisi Vaqif Alıyev çıxış edərək Əbu Bəkr İsmayılovun keçdiyi döyüş yolundan və qəhrəmanlığından danışdılar. İdarə əməkdaşları şəhidin barelyefi qarşısına gül-çiçək dəstələri düzərək xatirəsini böyük hörmətlə yad etdilər.

Belə qəhrəmanlar bizim hər birimiz üçün böyük qürur mənbəyidir. Vətən şəhidləri ilə ucalır.

***Allah rəhmət eləsin!***

***Məryəm Əliyeva***
***15 fevral 2017-ci il***
***Mədəniyyət qəzeti 12***

**Aprel döyüşlərinin qəhrəman şəhidləri arasında adı daha çox hallanan, hamının yaddaşında silinməz iz buraxanlar - Mi-24 helikopterində düşmən tərəfindən vurulmuş cəsur təyyarəçilərimiz mayor Təbriz Musazadə, mayor Urfan Vəlizadə və baş leytenant Əbu Bəkr İsmayılovun ismi bir çəkilir, şəkiləri də bir yayımlanırdı. Onlar ayrı-ayrı heyətdə uçsalar da, son döyüşə bir heyətdə getmişdilər.**

**Hər üçü cəsur, qətiyyətli, çevik, anında şəraiti düzgün qiymətləndirən və düzgün qərar verməyi bacaran təyyarəçilər idi. Ona görə də rəhbərlik məsuliyyətli döyüşə onların birlikdə uçması üçün qərar vermişdi. Tanrı da bu təyyarəçilərin qəhrəmanlıq salnaməsini, ən uca şəhidlik məqamını bir yerdə təyin etdi. Mayor Təbriz Musazadə, mayor Urfan Vəlizadə, baş leytenant Əbu Bəkr İsmayılov.**

*** * ***

***Pərişan Musazadə***

Urfanla Təbriz uzun illərin dostu idilər. Dostdan daha yaxın - qardaş desəm, daha düzgün olardı. Ailəlikcə gediş-gəlişli, xeyir-şərimizdə, acılı-şirinli günlərimizdə birlikdə idik. Həm də qonşu idik, sonradan qohumlaşdıq da. Təbrizlə Urfan bir çalışırdılar. Urfan ali hərbi təhsilini Türkiyədə almışdı, Təbriz isə Türkiyədə uçuş hazırlığı kursu keçmişdi. Ona görə də onlardan sonra yetişən, təlim keçdikləri gənc təyyarəçilər Təbrizə də, Urfana da "xocam" deyərdilər. Bütün tələbələrini sevirdi Təbriz, bilgilərini əsirgəmir, səbrlə, qayğı ilə hərbin sirrlərini onlara izah edirdi. Ayırıb seçməzdi, hamısına övladı, kiçik qardaşı kimi eyni diqqəti, şəfqəti göstərərdi. Əbu Bəkr də onun çox dəyər verdiyi, gələcəyinə inandığı gənclərdən idi. Onun haqqında "çox bacarıqlı, cəsur təyyarəçidi. Gənc olmasına baxmayaraq çox təcrübəli, peşəkar hərbiçidi, işini, məsləkini sevən,

inadla hərbin sirrlərinə yiyələnən biridir" - deyərdi. Bildiyimə görə, Əbu Bəkr Ali Hərbi Təyyarəçilik məktəbini bitirdikdən sonra bort texnikliyi, operatorluq ixtisasına yiyələnmək üçün əlavə kurs keçmişdi və öz ixtisasında seçilənlərdən idi.

Aprel döyüşlərində Təbriz, Urfan, Əbu Bəkr ayrı-ayrı bortlarda uçmuşdular. İkinci döyüşə gedərkən, Təbrizin vertalyotunda nasazlıq olduğundan o bortun uçuşunu dayandırıblar. Eşitdiyimə görə, Təbriz israrla bu uçuş mənimdi, mən gedəcəyəm - deyib və canından çox sevdiyi dostları Urfanla, Əbu Bəkirlə eyni bortda son döyüşə qalxıb. Həmin bortun komandiri Təbriz, şturmanı Urfan, bort texniki isə Əbu Bəkr olub.

* * *

Təbrizlə biz bir neçə il bir-birimizi sevmişik. O, mənə evlənmək təklifini "Şəhidlər xiyabanı"nda - İlhamla Fərizənin qəbri üstündə etmişdi və elə ordaca bir-birimizə sədaqətli olacağımıza söz vermişdik. Hər il sevgililər günündə İlhamla Fərizənin qəbrini mütləq ziyarət etməliydik.

11 il evlilik həyatımız oldu və bu illər ərzində sanki, o, məni bir gün şəhid olacağına hazırlayırdı.

Aprel döyüşlərindən qabaq, mart ayının 6-da cəbhə xəttində gərginlik olmuşdu. Təbriz martın 6-da getməyə hazırlaşanda, birgə yaşadığımız illər ərzində mənə tez-tez dediyi sözü yenə xatırlatdı: "Sən bilirsən ki, mən hərbi təyyarəçiyəm. İşimin ağırlığını da bilirsən. Bir gün gedib qayıtmaya bilərəm. Sən buna hazır olmalısan. Özün, heç kəsin köməyi olmadan öz ayaqların üstündə durmağı bacarmalısan." Çantasından qovluq çıxarıb stolun üstunə qoydu.

- Burda yarımçıq sənədlər var. Onları həll edərsən, siyahıda alacağım, verəcəyim var...

Mən eşitmək istəmədim:

- Qayıdıb özün həll edərsən - dedim. Hətta, məndən halallıq da istədi.

Bir dəfə işdən çıxıb bir sənəd dalınca getdim, başqa təşkilata yönəltdilər. Bir sənəddən ötrü bir necə dövlət orqanına ayaq döyməli

oldum. Evə o qədər yorğun, əsəbi gəlmişdim ki... Təbriz həmin gün evdə idi, dincəlirdi. Ağladım, incikliyimi bildirdim:

- İnsafın olsun, evdə idin, məni maşınla apara bilərdin. Mən yoruluram, bezirəm belə işərin dalınca gedəndə...

Təbriz başını qaldırıb dik gözümün içinə baxa-baxa dedi:

- Pərişan, bir gün mən olmayacağam, bax, o zaman sənin işini heç kəs görməyəcək. Nə mənim qardaşım, dostum, qohumum, nə də səninkilər...

Dost kimi, qardaş kimi olacaqlar yanında, amma heç kəs sənin işlərini görməyəcək. O iki uşağın arxasında yalnız sən dayanacaqsan, həm ata, həm də ana kimi. Ona görə də alışmalısan...

Onun yoxluğundan bəri məni dəhşətə gətirən, bir gün belə unuda bilmədiyim bir nüans var. İnsan başına gələ biləcək hadisələri, ölümünü və bu ölümdən sonrakı hadisələri necə dəqiq sözlərlə ifadə edə bilər? Ədəbiyyatı, söz qabiliyyəti, fantaziyası nə qədər güclü ola bilər ki, insan öz ölüm xəbərini, cənazəsinin gətirilməsi anlarını belə dəqiq və obrazlı təsvir edə bilsin: "Bir gün qapına hərbiçilər töküləcək. Qapını açacaqsan, görəcəksən ki, hamı bədbin baxışlarla başını aşağı dikib. Bağıracaqsan, çığıracaqsan, qara maşınlardan düşənlərin yaxasından yapışacaqsan. Amma, heç kəs sənə deyə bilməyəcək ki, mən ölmüşəm. Mənim dostlarım baxışlarını səndən qaçıracaqlar. Sən özünü buna hazır ele həmişə..."

Elə də oldu. Mən artıq onların vurulduğunu bilirdim. Telefonuna zəng çatmırdı. Dostlarına zəng vururdum, heç biri telefonu açmırdı. Həyətə düşür, evə girir, özümə yer tapmırdım. Öz-özümə təskinlik verməyə çalışırdım: "Şüvənlik salma, Pərişan! Təbrizə heç nə ola bilməz, yaxşı olar, inşallah! Allaha dua edə-edə başımı ev işlərinə qatırdım. Darvazamızın kənarından, balaca yerdən



***Mayor Təbriz Musazadə***

küçə görünürdü. Gördüm ki, qara maşınlar dayandı. Qapılar çırpıldı. Ayaqyalın qaçdım, qapını açanda, sanki Təbrizin yazdığı ssenari ilə həmin film çəkilmişdi. Dəli kimi bağırdım, çığırdım. Yaxalarından yapışdım:

- Xocanız hanı, vurulan sizin xocanızdır, Təbrizdi?! - dedim. Cavab verən olmadı. Hamısı başını aşağı dikmiş, gözlərinin yaşını tökürdülər...

Martın 31-də getmişdi. Heç kəs bilməsə də, biz - hərbiçi xanımları bilirik ki, nə zaman cəbhə xəttində gərginlik olur. Odur ki, gün ərzində bir neçə dəfə zəng vurmuşdum. Aprelin 2-də səhər tezdən yuxudan qalxdım, gördüm ki, mesaj yazıb: "Səni sevirəm, Feyam" O, mənə "Feyam" deyərdi - Mələyim. Telefonunda da adımı elə yazmışdı. Tez Təbrizin nömrəsini yığdım. Səsini eşitcək ürəyim yerinə gəldi:

- Təbriz, vəziyyət yaxşı deyil? Niyə elə yazmısan?

- Yaxşıdı, Feyam, narahat olma. Yazdım ki, sonra gec ola bilər – dedi. Sonra tələsik:

- Mən danışa bilmirəm, Feyam, - deyib əlaqəni kəsdi.

Sən demə, o zaman birinci uçuşa qalxırlarmış. Artıq televizorda da cəbhə xəttində gərgin döyüş olması barədə xəbərlər gedirdi. Həmin gün təxminən saat 9-dan sonra mənə zəng vurdu. Dedi ki, hər şey yaxşıdı. Burda atəşfəşanlıqdı, bütün bortlar döyüşdən sağ-salamat qayıdıblar, hamı bayram edir, irəliləyirik. Lələ təpəni almışıq...

Dostları danışırlar ki, ikinci uçuşdan qabaq hərbiçilər yemək masasına otururlarmış. Təbriz əl-üzünü yuyurmuş. Onun maraqlı əl-üz yumağı vardı. Qollarını çırmayıb suyu şappıltı ilə üz-gözünə vurub. Uşaqlar:

- Xocam, bizi islatdın - deyiblər.

- Eybi yox, quruyar. Təki gələn sudan gəlsin, - deyib.

Yeməyə çağırıblar, gəlməyib.

- Siz yeyin. Mən onları bir dönüş də biçim, gələndən sonra yeyərəm – deyib. Elə o gediş oldu, bir daha qayıtmadı...

Həmin xəbərdən 5 gün keçmişdi. "Nar" telefon xidmətindən mənə mesaj gəldi. Sən demə, həmin gün uçuşa qalxanda Təbrizin

nömrəsindən mənə zəng gəlib, ancaq çatmayıb. Hər gün məni bir sual narahat edir: “Görəsən niyə zəng vurubmuş? Mənə nə deyəcəkdi? Son sözü nə olacaqdı?”

Aprelin 2-dən 10-dək nigarançılıqdan hər gün yüz dəfə ölüb-dirilirdim. Cəsədlər alınmadığı üçün, ümidimi də üzə bilmirdim. Bir də şaiyələr: yaralıdılar, əsirdilər, təmas xəttinə düşüblər... Televizordan dəqiq bir şey tapa bilmədiyim üçün internetden axtarırdım. Ermənilərin saytına da girib baxmışdım. Vurulmuş Mi-24 helikopterinin qalıqlarını, yanmış cəsədləri qoymuşdular sayta. Bax, o zaman yer ayağımın altından qaçdı... Deyirlər, ermənilər vertalyotun qara qutusunu açanda Təbrizin səsini eşidiblər. Vurulduqları anda deyibmiş ki, “Bizi vurdular, qorxmayın!”

Hə, bir də, aprelin 1-də bir neçə dəfə zəngləşmişdik. Mən onun əhvalın qaldırmaq üçün 1 aprel zarafatı elədim.

- Onur yıxılıb, qolu çıxıb, - dedim. Bir az təlaşlandı, həkimə apar, dedi. Dərhal da:

- Zarafat edirəm, aprelin biridi, axı, - dedim.

Onun özünəməxsus gülüşü vardı. Telefon xəttində də həmin gülüş cingildədi.

- Aldatdın məni? Eybi yox, əvəzini çıxaram, - dedi.

Gündüz saat 1-də zəng vurdu:

- Axşama gələcəyəm, xəngəl bişir – dedi.

Mən də xəmir edib, xəngəl kəsdim. Təbriz xəngəli çox sevirdi. Tez-tez bişirtdirirdi. Evə gəlməyə 15-20 dəqiqə qalmış zəng edərdi ki, gəlirəm, hazırla! Saat 8-də zəng vurdum ki, gəlmirsən?

- Gələcəyəm, indi uçacağam, - dedi.

Saat 10 oldu, 11 oldu, təkrar zəng vurdum.

- Gəlmirsən, Təbriz?

Sən qapını bağla, yat. Mən qaladan atdanacağam, - dedi və güldü. Anladım ki, əvəz çıxdı, aldatdı məni. Bu, bizim son zarafatımız oldu...

Ölümündən az əvvəl, Novruz bayramı ərəfəsində, daha dəqiq desəm, martın 19-da gecə bayram şirniyyatı bişirirdim. Təbriz də mətbəxdə oturub təzəcə bişən şəkərbura, paxlavadan yeyə-yeyə

mənə əsir düşmüş hərbiçilərdən, onlara verilən işgəncələrdən, əsirlikdə ölənərdən danışırdı. Gecə saat 3 idi.

- Təbriz, sən Allah, gecə vaxtı ölümdən az danış.

- Pərişan, təsəvvür elə ki, yolda gedirəm, binadan başıma nəsə düşdü, öldüm. Ömrümü hərbiyə həsr edim, bu qədər oxuyum, bu qədər hərbiçi yetişdirim, bu qədər döyüşüm, sonda təsadüfi ölüm. Səncə, bu yaxşıdı, yoxsa, şərəflə döyüşüb şəhid olmaq? Mən dünyadan adi ölümlə köçsəm, məzarda sümüklərim də sızıldayar.

Mənə and verdirmişdi, söz ver ki, nə vaxtsa nəşim gətiriləndə dik duracaqsan, ağlamayacaqsan.

Dəfn zamanı çalışdım ki, ona verdiyim sözə əməl edim, başımı dik tutum, ağlamayım...

Hövsana gedən yolda, Əhmədli tərəfdə yolun kənarında dağ var. 16 il əvvəl o dağa heç kim çıxmazdı, həm hündür, həm də sıx ağaclıq idi, qorxurdular ki, it olar. Biz Təbrizlə düz o dağın təpəsinə çıxardıq. Ordan bütün şəhər görünürdü. Bir tərəf dəniz, bir tərəf Günəşli. Təbriz deyirdi ki, mən həyatda olmayanda gələrsən bura, mütləq burada olacağam...

Dəfn zamanı ağlamadım, hıçqırığımı içimdə boğdum ki, Təbriz məni bağışlamaz. Ürəyim partlayırdı, bağırmaq istəyirdim. Anamdan xahiş etdim ki, məni o dağa aparsın. Anam taksi ilə məni ora apardı, özü kənarda dayandı. Mən həmin təpəyə çıxdım, o qədər bağırdım, çağırdım, ağladım ki... Bir də gördüm, arxamda bir cavan oğlan ağlaya-ağlaya quran oxuyur.

- Nə olub, bacı, niyə belə bağırırsan? – soruşdu.

- Yoldaşım şəhid olub, onu çağırıram – dedim.

Hərdən o dağa gedirəm, ürəyimi boşaltmağa. Təbrizi görməsəm də, çoxlu gənclər, sevgililər görürəm. Yəqin, Təbriz də görsəydi sevinərdi ki, bizim görüş yerimiz olan tənha təpə indi nə qədər sevgililərin görüş yerinə çevrilib...

16-17 yaşım vardı. Təbrizlə sevirdik bir-birimizi. Dekabrın 31-i, yeni il axşamı idi. Mənzilimiz 9 mərtəbəli binanın 2-ci mərtəbəsində idi. Həyətdən səs-küy gəldi. Pəncərəyə yaxınlaşıb həyətə baxdım. Gözlərimə inanmadım. Məhəllənin bütün oğlanları eyvanımızın

altında dayanmışdılar, Təbriz də əlində gitara, mənimçün serenada oxuyurdu:

...Səhərəcən pəncərənə baxan mənəm, mən,
Səhərəcən bu mahnını oxuyan da mən...

Səsi də yox idi, bağırtıya oxşayırdı. Eyvana çıxıb xahiş etdim ki, tez çıxıb getsin, atam görsə, məni öldürər. İnadkarlıqla:

- Gülümü almayınca gedən deyiləm. Yoxsa, elə bağıracağam ki, atan çıxacaq eyvana. Əlacım kəsildi, işarə elədim ki, yan tərəfdəki eyvana gəlsin. Mən xəlvətcə eyvana çıxanda məəttəl qaldım. Təbriz əlində ağ güllərdən düzəlmiş buket eyvanın məhəccərinə söykənmişdi. Tülləri sevdiyim üçün buketin ucuna uzun tüllər bağlatdırmışdı. Necə qalxmağı ilə maraqlandığım üçün, eyvandan aşağı boylandım. Hərbiçi dostları akrobatlar kimi bir-birinin çiyninə qalxıb, Təbrizi ikinci mərtəbəyə qaldırmışdılar. Atamın qorxusundan buketi eyvanda gizlətsəm də, Təbrizin bu qeyri-adi jesti ürəyimcə olmuşdu.

Bir dəfə Kürdəmir rayonundakı N saylı hərbi hissəyə təlimə gedəcəkdilər. Gəldi mənimlə sağollaşmağa. Söhbət edə-edə Montindəki dəmir yolunun kənarında dayandıq. Həmin vaxtda dəmir yolundan qatar keçirdi. Birdən, eyni vaxtda xeyli hərbiçi başını qatarın pəncərəsindən çıxarıb, xorla qışqırdılar: "Təbriz Pərişanı sevir, Təbriz Pərişanı sevir"...

O qədər xatirələr var ki, qəlbimdə, bütün ömrümə bəs edər...

Bizim toyumuz da fərqli oldu. O vaxtlar heç kəs mayda toy eləmirdi. Qohumların, valideynərin etirazına baxmayaraq, Təbriz toy günümüzü mayın 28-ə - Respublika gününə saldı. Hər il mayın 28-də Dənizkənarı parka aparırdı məni. Gecə saat 12-ni gözləyirdik ki, bayram tədbirinin sonunda atəşfəşanlıq olacaq. Zarafatla deyirdi ki,



***Ən güvənli ocaqdı ata qucağı...***




**Pərişan Musazadə**

görürsən bizim toyumuzun il dönümü dövlət səviyyəsində, atəşfəşanlıqla qeyd edilir...

Uşaqlarımız da ağılları söz kəsəndən təyyarəçi olmaq istəyirdilər. Təbrizin bu barədə fikri belə idi:

- Hansı sənəti seçirlərsə seçsinlər, yalnız, o sənətin peşəkarı olsunlar.

Qohum-əqrəba məni danlayır ki, təyyarəçi olmaq arzusunu çıxar uşaqların fikrindən. Deyirəm ki, yox, əgər qismətlərində hərbiçi olmaq, hərbiçi kimi şəhid olmaq yazılıbsa, qoy olsun!...

İndi mən Təbrizin adını daşıyan Təhsil və İncəsənət hazırlıq mərkəzi açmışam. Çox böyük zəhmət bahasına yaratdığımız mərkəzdə hər gün Təbrizin, Urfanın, Əbu Bəkirin xatirəsi yad edilir. Burada təlim-təhsil alan gənc nəsil onların həyat yolunu, qəhrəmanlıq salnaməsini öyrənir, örnək götürürlər. Məqsədimiz vətənpərvər, istedadlı, savadlı, sağlam düşüncəli övladlar yetişdirməkdir. Mərkəzin qapıları bütün şəhid ailələrinə açıqdır. Şəhid xanımları, anaları ilə danışıram, görüşürəm, mərkəzimizə dəvət edirəm. Gələcəkdə bu mərkəzi böyütmək və toplanan vəsait ilə şəhid ailələrinə yardım etmək üçün xeyriyyə fondu yaratmaq fikrim var. Şəhid uşaqları mərkəzimizdə ödənişsiz tədris alırlar. Şəhid xanımlarından işə ehtiyacı olanları işə götürməyə hazıram. Əbu Bəkirin həyat yoldaşı Şəbnəmlə tez-tez zəngləşir, ara-sıra görüşürük. Şəbnəm məndən yaşca kiçikdir. Onu kiçik bacım kimi sevirəm. O, mənə “bacı”, mən də ona “quzum” deyirəm. Dəyanətli, qururlu, istiqanlı qızdı. Keçirdiyimiz tədbirlərdə də iştirak edir. Şəbnəmi görəndə, öz dərdimi unuduram.

***Sevil Məmmədova***

Müəllim üçün şagird övlad kimidir, hamısını sevirsən. Ancaq içərisində seçilmişləri də olur. Əbu Bəkr belə şagirdlərdən olub.

Onların sinfi ədəbiyyat təmayüllü sinif olsa da, riyaziyyat fənnini də həvəslə mənimsəyirdilər. Sinif seçmə sinif idi, desəm, yanılmaram. Uşaqlar yaxşı mənada bir-biri ilə rəqabətə girirdilər, dərsə, tapşırığa məsuliyyətlə yanaşırdılar. Hazırlıqsız dərsə gəlməzdilər. Belə bir sinifdə dərs keçmək özümə də zövq verirdi.

Əbu Bəkirin yaşından böyük təmkini, məntiqi, diqqətcilliyi, hazırcavablığı isə, mənim müəllim məsuliyyətimi bir az da artırırdı. 5-ci sinifdə oxuyurdular. “Ədədi orta” mövzusunu keçirdim. Bu bölümə uşaqların diqqətini cəlb etmək üçün onlara sadə üsulla bu termini izah etməyə çalışdım.

- Uşaqlar, ədədi ortanın mahiyyəti belədir ki, sizlərdən 3 nəfər səfərə çıxıb. Hər birinizin çantasında qutab var. Yazı taxtasında 3 insan şəkli çəkdim. Buna şəkil də demək olmazdı: 1 düz xətt, ayaq əvəzi 2 xətt, qol əvəzi 2 yan xətt və düz xəttin yuxarısına çevrə çəkdim. Şərti olaraq ən seçilən şagirdlərin adlarını qoydum:

Əbu Bəkirin 3 qutabı, Anarın 4 qutabı, Ayazın isə 5 qutabı var.

Uşaqlar neyləməlidirlər? Hərə öz payını yeməlidi, yoxsa bir yerə cəmləyib sonra paylaşmalıdırlar?

Uşaqlar bir ağızdan:

- Birlikdə paylaşmalıdılar.

- Müəllimə, hanı bu uşaqların gözü, ağzı, burnu?

Bir anlıq tutuldum, adamların başında çevrənin içində göz, ağız, burun çəkməmişdim. Mən düşünüb cavab verənə qədər, Əbu Bəkr tez cavab verdi:

- Narahat olmayın, müəllimə, biz üzü o tərəfəyik, qutabları paylaşırıq.

Onun hazırcavablığı xoşuma gəldi, gülümsündüm. Uşaqlar da güldülər.

O vaxtdan 12-13 il keçib. Ancaq mən hər il 5-ci siniflərə həmin bölümü tədris edəndə Əbu Bəkirin sözlərini xatırlayıram, uşaqlara da həmin xatirəni danışıram.

Bir dərsimiz də "Düz mütənasib kəmiyyətlər" mövzusu idi. Əmanət kassasına qoyulan əmanətlə, faiz nırxı arasındakı asılılığı müəyyənləşdirmək lazım idi.

Həmin termini dəqiq bilmədiyim üçün, dedim ki, bunu bank işçiləri çox işlədir. Onlar daha dəqiq bilir.

Bu sözüm Əbu Bəkirin diqqətində qalıb. Beynəlxalq Banka gedib, ordakı işçilərdən "faiz nırxı" termininin dəyər vergisi olduğunu öyrənib mənə dedi. Bu qədər şagird içərisində onun bu qədər diqqətcilliyi, məsuliyyəti, hər işin ciddinə getməsi məni sevindirirdi.

Bacarıqlı, səliqəli olduğu üçün Əbu Bəkirə yuxarı siniflərin dərs zamanı istifadə etdiyi həndəsi fiqurları düzəltdirirdim.

Adətən, məzunlarımız orta məktəbi bitirəndən sonra 2-3 il müəllimlərini gəlib yoxlayır, görüşürlər. Tək-tək məzunlar olur ki, daima müəllimlərini doğmalarını yad edər kimi yad etsin. Əbu Bəkr belə təklərdən, fərqlənənlərdən idi.

Bayramlarda, tətillərdə rayona gələn kimi, elə həmin gün mütləq mənə baş çəkməli idi.

Təkcə son Novruzda gəlmədi. Gözüm qapıda qalmışdı ki, Əbu Bəkr nə əcəb bu bayram gəlmədi. Onu çox istəyirdim. Müəllim-şagird münasibətlərindən daha yaxın, doğma olmuşduq. O, mənimlə arzularını, niyyətlərini paylaşırdı. Bütün qohumlarım, bacı-qardaşlarım onu yaxşı tanıyırdılar. Hər bayramda bizdə rastlaşdıqlarına görə, o da doğmalarımızdan birinə çevrilmişdi.

Keçən Novruzda mənə baş çəkməməsinin səbəbini də az sonra, şəhid olması xəbərini alarkən, evlərinə gedəndə anasından öyrəndim. Sən demə, təlim zamanı ayağından zədə alıbmış. Həmişə şux, dik yerişi ilə diqqət çəkən Əbu Bəkr axsaya-axsaya gəzmək, kimsəyə görünmək istəməyib. Kaş, son görüşə mən gedəydim...

Tarixi dəqiq yadımda deyil. Əbu Bəkr Hacı Zeynalabdin Tağıyev qəsəbəsində işləyirdi. Orada kirayə ev tutmaq fikri vardı. Mənim bacımgil də həmin qəsəbədə yaşayırdılar. Qonşularında

kirayə ev vardı. Mən Əbu Bəkirə zəng edib ona ev tapdığımı deməyə macal tapmamış, bacım zəng edib dedi ki, sənin şagirdin bizim qonşuluğmuza kirayənişin gəlib. O, təsadüfən həmin mənzilə gedibmiş. Bacımın kürəkəni Qarabağ döyüşlərində yara almışdı və bir müddət sonra elə həmin yaradan da vəfat etmişdi. Onun bir oğlu var – Aydın. Əbu Bəkr Aydına o qədər qayğı, diqqət göstərirdi ki, uşaq onun bir sözünü iki eləməzdi. Dərslərinə kömək edər, boş vaxtı olanda söhbət edər, davranışına nəzarət edərdi. Əbu Bəkr uşağa gələcəkdə hərbiçi-təyyarəçi olmağı, düşmənlərdən atasının, şəhidlərimizin qisasını almağı təlqin eləmişdi və Aydın israrla hərbiçi olmaq istəyirdi...

Qonşuluqları uzun müddət sürməsə də, bacımgil Əbu Bəkrdən çox razılıq edirdilər. Səliqə-sahmanı, tərbiyəsi, ədəb-ərkanı, mehribanlığı, qayğıkeşliyi ilə məhəllədə qısa müddətdə hamının hörmətini qazanmışdı.

Əbu Bəkirin toyu ərəfəsində mən Bakıda idim. Mənə zəng edib toyuna dəvət edəndə, mütləq gələcəyəmi bildirdim.

Onunla şadlıq evinin həyətində rastlaşdıq. Gəlin maşınından düşən bəy hərbi paltarda idi. Hərbi rütbələrdən bir o qədər anlayışım olmasa da, geyimini general formasına bənzətdim. Elə həyətdəcə bəy-gəlini təbrik etdim. Geyiminə təəccüblə baxdığımı görüb dedi:

- Müəllimə, bu kostyum hərbiçilərin mərasim geyimidir. Mən ən xoşbəxt dəqiqəmdə də vətənin əsgəriyəm.

Onun toyu qeyri-adi toy idi. Bəylə gəlinin başı üzərindən toy mərasiminə xas olan aksesuar əvzəinə bayraq asılmışdı. Toy əhlinin yarısını təşkil edən hərbiçilərin çıxışı, halay vurub yallı getməsi...

Mən o toyda çox həyəcanlandım, kövrəldim, qürurlandım. Bu uşaq iliyinə, sümüyünə qədər vətənpərvər imiş.

Əbu Bəkr qarşısına qoyduğu məqsədə doğru əzmlə çalışan, istədiyini əldə edən, planlı, məqsədyönlü, qətiyyətli, nizam-intizamlı insan idi. Görüşlərimizin birində məşhur kəlamı xatırlatmışdı mənə:

- General olmağı arzulamayan əsgər, əsgər deyil. Məqsədim Vətənə ləyaqətlə xidmət etmək, ən uca rütbəyə çatmaqdır, - demişdi.

O, həmişəki kimi dediyinin üstündə durdu, Vətənə şərəflə xidmət edərək, ən ali rütbəyə - Şəhidlik zirvəsinə yüksəldi.

***Etibar Həsənov***

Bəkirlə 9 il bir sinifdə oxumuşuq. 9 ilin hər günü bir şirin xatirədir mənimçün. Əvəzsiz dost, yoldaş idi. Sinfimizdə hamıdan fərqlənirdi.

Bizim sinfimiz məktəbdə seçilən sinif idi. Əlaçılarımız çox idi. Onlardan biri də Bəkir idi. Ancaq xasiyyət, davranış baxımından Bəkir hamımızdan seçilirdi. Mehriban, tərbiyəli, səliqəli, çalışqan, istedadlı idi. Sanki, ən müsbət keyfiyyətlər onda cəmləşmişdi. Nəinki, sinfimizdə, məktəbdə hamıyla ünsiyyət qurmağı bacarırdı, sinfimizin, məktəbimizin təəssübünü çəkirdi.

Musiqi məktəbində oxuyurduq. 12 yaşımız vardı. Həftədə 3 dəfə Bəkirlə birlikdə musiqi məktəbinə fortopiano sinfinə gedirdik. Bizdən 4-5 yaş böyük bir oğlan vardı, evləri dəmir yolunun yanında olurdu. Hər dəfə yolumuzu kəsir, bizə sataşır, döymək istəyirdi. Bir gün dedim ki, bezdim bunun əlindən, gəl evdə deyək, dərsin versinlər. Bəkir:

- Yox, onun dərsin özüm verəcəm.

- Bizdən çox böyükdü, gücümüz çatmaz.

- Narahat olma, gör mən onu necə qorxudacağam – dedi.

Növbəti gün Bəkirin çantasında kağıza bükülmüş dəmir parçası gördüm.

Dəmir yolu xəttinə çatanda həmin oğlan yenə yolumuzu kəsib:

- Sizə söz çatmır? Demədim bizim küçəmizdən keçməyin? Döyülmək istəyirsiz? – üstümüzə şeşələndi. Bəkir qəfil çantasından dəmiri çıxarıb qabağa yeridi, məni göstərib dedi:

- O uşaqdı, işin olmasın. Hünərin var, yaxın gəl! – deyib dəmiri sağa-sola fırlaya-fırlaya özündən xeyli böyük, hündür oğlanın üstünə getdi.

Oğlan çaşqın halda üzünü çevirib, çıxıb getdi və bir daha qarşımıza çıxmadı...

Evlərimiz yaxın olduğundan, çox vaxt dərsdən sonra da birlikdə oynayırdıq.

Həyətimizdə narın qum var idi. Bəkir qumun üstündə şəkil çəkməyi, müxtəlif fiqurlar, maketlər düzəltməyi xoşlayırdı. 4-cü ya, 5-ci sinifdə oxuyurduq. Gecə yağış yağmışdı, qara qum nəm idi. Bəkir:

- Gəl burda bir şeylər düzəldək, - dedi. Mən Neft satış bazasının çənlərinin, qalasının maketini qurmağa başladım. İşimi bitirdikdən sonra dönüb baxdım ki, gorüm Bəkir nə düzəldib. Gözlərimə inanmadım. Bəkir böyük qala içərisində hərbi baza yaratmışdı. Üzbəüz dayanmış tanklar, uçuşa hazırlaşan vertalyotlar, əsgərlər... Təəccübümü gizlədə bilmədim:

- Necə düzəltdin bunları? - soruşdum.

- Mənim evdə oyuncaq vertalyotlarım, tanklarım var. Xoşum gəlir bunlarla oynamaqdan. Axı, mən hərbiçi olacağam, özü də təyyarəçi – dedi.

Sonralar uşaqlarla gələcəkdə hansı peşəni seçməyimiz barədə söhbətləşəndə də, "Mənim arzum" mövzusunda inşa yazanda da, Bəkir hərbiçi, təyyarəçi olmaq arzusunda olduğunu dəfələrlə vurğlayırdı.



C.Naxçıvanski adına Hərbi liseyə qəbul olanda da sevincək:

- Qəbul oldum, gedirəm, - dedi.

Arzusuna çatmasına sevinsəm də, yaxın dostumdan ayrılacağama kədərləndim. Bəkir məni başa düşüb, əlini çiynimə qoydu və dedi:

Narahat olma, tez-tez görüşəcəyik. Mən dostlarımı, məktəbimizi, müəllimlərimizi heç vaxt unutmaram...

Doğurdan da unutmadı. Hər rayona gələndə məktəbə gəlir, müəllimlərlə, sinif yoldaşlarımızla görüşür, hamıyla hal-əhval tutur, maraqlanır, həvəslə öz liseylərindən, hərbi dərslərdən danışırdı. Bəzən, bizə qoşulub sinfə girir, dərslərdə də otururdu. Uşaqlar o, gələndə onun partasını boşaldırdılar. Dostluğumuz əvvəlkindən də möhkəm olmuşdu. Fikirlərini, arzularını mənimlə bölüşürdü. Ailəcanlı, qohumcanlı idi. Qardaşını mənə tapşırırdı. Bir dəfə də məndən xahiş etdi ki, qardaşının siqaret çəkib-çəkməməyinə nəzarət edim. Mən narazılıq etdim:

- Bəkir, deyirsən ki, yəni satqınlıq edim?

- Qardaş, bu satqınlıq deyil. Əgər mənim xatirimi istəyirsənsə, mənim gözümlə qardaşıma nəzarət elə. Atam, anam işdə olur. Nəzarətsiz qalar, pis uşaqlara qoşular, təsirə düşər, siqaret çəkər, dərsdən yayınar birdən. Axı, o, bir az dəcəldi, - dedi.

Bəzən mənə ərklə tapşırıq da verərdi: "Evdən mənə ərzaq bağlaması göndərəcəklər, onu avtovağzaldan yola sal!", "Evə bir bağlama göndərmişəm yoldaşlardan, onu dördyoldan götür, evə çatdır"... Can-başla gedirdim onun tapşırıqlarına. Çünki, onun da mənə qarşı həmişə diqqətini, qayğısını görmüşdüm.

3 il olar, ya olmaz, ətriyyat dükanında işəyirdim. Binə ticarət mərkəzinə mal götürməyə getmişdim. Malları bağlama edib, haqq-hesab etdikdən sonra, pullarını verib, bazardan çıxdım. Ehtiyat pulum olmalıydı, tapa bilmədim. Bütün ciblərimi axtardım, tapmadım. Yol pulum yox idi, üstəlik ac və susuz idim. Telefonumda da balans bitmişdi. Heç belə acınacaqlı vəziyyətə düşməmişdim. Kiməsə ağız açmağa da utanırdım. Birdən Bəkir gəldi ağlıma. Ona telefonla çağırış göndərdim. O, dərhal mənə zəng etdi:

- Eşidirəm, qardaş.

Sevindim, vəziyyətimi danışdım.

- Gözlə, bu saat gəlirəm, - dedi.

Heç yarım saat keçmədi ki, yanımda taksi dayandı, Bəkir idi. Məni evlərinə apardı. Yolda marketdən ərzaq aldı, telefonumun balansını artırdı. O vaxt hələ evlənməmişdi. Dadlı yemək bişirdi, yedik, söhbətləşdik. Gecəni də yanında saxladı. Səhər telefonla rayon taksisi çağırıb, cibimə pul qoyub, məni yola saldı.

Sonra rayonda mən o pulu qaytarmaq istəyəndə:

- Ayıbdır, qardaş arasında pul söhbəti olmaz, - dedi.

Bu qədər qəlbi təmiz, əliaçıq idi Bəkir.

Əsgərliyə təzə getmişdim. Ələtdə xidmət edirdim. Əvvəl-əvvəl çox darıxırdım, uyğunlaşa bilmirdim. Yayın cırhacır istisi idi. C.Naxçıvanski adına Hərbi liseyin kursantları poliqonda təlim keçirdilər. Taborda 800 nəfər kursant vardı. Heç ağlıma gəlməzdi ki, bu qədər kursant arasında Bəkiri tapmaq olar.

Kursantlardan ikisi mənə yaxınlaşıb - burda neyləyirsən? – sərt soruşdular. Bir az çəkinə-çəkinə:

- Oturmuşam da – dedim.

Birdən Bəkir yadıma düşdü. Tez soruşdum ki, İsmayılov Əbu Bəkiri tanıyırsız?

Kursantlar bir-birinə baxıb:

- Onu kim tanımır? Bölük çavuşumuzdu, qardaşımızdı. Bəs sənin nəyindi?

- Xalam oğludu – dedim.

Kursantlar mənə hörmət, isti münasibət göstərdilər. Bir az keçmiş Bəkir də yanıma gəldi. Ondan sonra əsgərlikdə darıxmaq, qəribsənmək bitdi. Sərbəst vaxtlarımızı birgə keçirir, söhbətləşir, birlikdə nahar edirdik.

Son görüşümüz keçən il Novruz ərəfəsində oldu. Bayramda 3-4 gün rayonda qaldı. Hər gün görüşürdük. 23-də axşamüstü yanıma gəldi.

- Atamın ad gününə 2-3 gün qalıb. Mən sabah Bakıya qayıtmalıyam. Gedək ona bir hədiyyə seçək – dedi.

Ürəyinə yatan ətir aldıq, bağlatdırdıq. Sonra da uşaqlarla

zəngləşib, çay içməyə getdik. 24-də iş yerimin qarşısından keçəndə siqnal verdi. Bir-birimizə əl etdik. Bu bizim son vidamız oldu…

Bir həftə sonra bir günlük rayona gəldiyini, döyüş bölgəsinə burdan yola düşdüyünü eşitdim.

Mənə təəccüblü gəldi ki, nə əcəb mənimlə görüşməmiş gedib? Sonra anladım ki, cəbhədə vəziyyət gərgin imiş və Bəkir hər an əmr gözləyirmiş...

Aprelin 2-də onun hərbiçi yoldaşlarından biri mənə zəng etdi. Telefon xəttində səsi əsir, qırıq-qırıq danışırdı:

- Bəkir… Bəkir şəhid olub…

- Ola bilməz, heç vaxt ola bilməz, Bəkir ölə bilməz – qışqırmağa başladım.

Nömrəsinə zəng vurdum, zəng çatmırdı. Ümidlə gözləyirdim. Gözləyirdim, kimsə desin ki, yox, yalandı, yanlışdı, Bəkir sağdı…

Uşaq kimi, hönkürtüylə ağlayırdım. Həyatımda 2 dəfə elə ağlamışdım – 7 ay qabaq atamı itirəndə, bir də Bəkiri itirəndə.

*Anar Şirinov*

Əbu Bəkr sinif yoldaşlarım arasında ən çox xətrini istədiyim, tez-tez görüşdüyüm idi. Rayona hər gələndə mütləq görüşərdik. Avtomobillə gedəcəyi yer varsa, mütləq mən aparardım. Elə birinci olaraq rayondakı "Şəhidlər xiyabanı"na. Nədənsə onun məzuniyyəti ilin sonuna, yeni il ərəfəsinə düşürdü. 20 yanvaradək rayonda olardı və biz birlikdə şəhid məzarlarını ziyarət edərdik. Sonuncu dəfə keçən il, 2016-cı ilin yanvarın 20-də ziyarət zamanı qəflətən:

- Anar, mən də şəhid olacağam, "Şəhidlər xiyabanı"nda dəfn olunacağam. Məni unutmayın, xatırlayın, ziyarət edin – dedi.

Elə bildim ki, zarafat edir. Baxdım ki, gözləri dolub, səsində, simasında qətiyyət var... Bu, bir nəsihət idimi, vəsiyyət idimi?!

Bu il 20 yanvarda Bakıya getdik uşaqlarla, II Fəxri Xiyabana. Şəhid dostum Əbu Bəkirin xatirəsini yad etməyə.

Bəkir etibarlı dost idi. Uşaqlıqda hamının mübahisəsi olur. Sinifdə, məktəbdə belə mübahisələrdə Bəkir həmişə haqlının tərəfində olardı. Qalmaqal xoşlamazdı, ara qızışdırmazdı, ancaq kimin haqqı tapdansa, kim təklənsə, kimin köməyə ehtiyacı olsa, Bəkir onun tərəfində idi. Ədalətli, sözü bütöv, diqqətli, inadkar idi. Ona görə də hamıdan fərqli görünürdü. Çox dəqiq və operativ idi. Ondan bir şey xahiş eləsək, söz verdiyi vaxtda, dəqiq və dürüst icra edərdi. Evlərinə istilik sistemi çəkdirmək istəyirdi. Məndən yaxşı usta soruşdu, mən də ustayla danışıb, yarım saata gələcəyini bildirdim. Yarım saatın tamamında Bəkir zəng vurdu.

- Anar, usta nə oldu?...

Yaşıd olsaq da təmkinli davranışı, hərbiçilərə xas nizam-intizamı bizi məcbur edirdi ki, onun yanında sözümüzə, zarafatımıza sərhəd qoyaq. Zarafatları da şirin olardı, şit olmazdı. Bununla belə, onun duyqusallığı da vardı. Bir dəfə bankın qabağında söhbət edirdik, başımızın üstündən 2 hərbi vertolyot uçdu. Başını qaldırıb

vertalyotlar gözdən itənədək baxdı. Gözlərinin dolduğunu gördüm. Bəkirin pıçıltıyla:

- Sizə qurban olum! – dediyini eşitdim. Niyə belə təsirləndiyini bilmədim, soruşmağa da ürək eləmədim...

Onun toyu da fərqli keçdi. Ata-anasına əziyyət vermək istəmirdi. Toyun təşkilatçılığını özü edirdi. Hər xırda nüansa qədər fikirləşirdi. Biz də - bütün dostları ona can-başla kömək etməyə çalışırdıq. Ailəsinə, dostlarına qeyri-adi sürpriz elədi.

Bəylik kostyumunda – hərbiçilərin mərasim geyimində, əlində bayraq qapı ağzında görünəndə hamımız təəccüb və çaşqınlıq içində idik. Toy karvanındakı avtomobillərin bəzəyi də Azərbaycan bayrağı idi. Bəylik taxtında başının üstündə də bayraq asılmışdı. Və o toyda iştirak edənlərin yarısı hərbiçilər idi. Qazaxdan Bakıya nə qədər hərbi hissə vardısa, hamısından zabitlər gəlmişdi. Bu yaşda bu qədər hörməti, bu qədər sevgini necə qazanmışdı Bəkir?! Biz Bəkirdən vətənpərvərvərlik öyrəndik, vətəni sevməyi öyrəndik.

Şəhid olması xəbərini sinif yoldaşımız Ayaz zəng vurub dedi. Hamı kimi mən də inanmır, daha doğrusu inanmaq istəmirdim. Şənbə günü idi. Tez durub Etibargilə getdim. O da mənim kimi sarsıntı içində ora-bura zəng edirdi. Evlərinə getməyə, zəng etməyə tərəddüd edirdik. Həmin vaxt atası Vüqar əmi yanımızdan keçib getdi, sakit, elə əvvəlki görkəmində. Diqqətlə üzünə baxırdıq. Sakitcə salamlaşıb keçdi. Heç yarım saat keçmədi ki, elə həmin qaydada da qayıtdı. Yaxınlaşmaq, nəsə soruşmaq istədik, yenə ürək etmədik. Baxışlarımızın qəribəliyini hiss edib, bizə təəccüblə nəzər salıb, yoluna davam etdi. Ürəyimizdə ümid qığılcımı parladı, bəlkə şaiyədi, səhvdi... Doğru olsaydı, Vüqar dayı belə sakit gəzməzdi. 2 gün əvvəl oğlunu sağ-salamat yola salan ata-anaya qara xəbəri verməyə kimin ürəyi gələrdi ki?...



***Sinif yoldaşları Əbu Bəkirin toyunda***

Ancaq bir-birinin ardınca gələn zənglər ümidimizi qırdı.

***Sevər Həsənova***

Bəkirlə 9 il bir sinifdə oxusaq da, məktəb illərimizdən ən çox xatirəsi yaddaşımızda qalan uşaqlardan idi. Çox səliqəli, mədəni, tərbiyəli, sakit, savadlı, səviyyəli uşaq idi. Bəzi fənn kabinələrində bir partada otururdıq. Mən onun dəftər-kitabının, üst-başının, hətta ayaqqabılarının təmizliyinə, səliqə-səhmanına baxıb örnək götürürdüm. Kiminsə xatirinə dəydiyini, acıladığını, kobudluq etdiyini görməmişdim. Duruşundan, danışığından, davranışından mədəniyyət yağırdı Bəkirin. Kiminsə ondan inciməsi, narazı qalması mümkünsüz idi. Bütün fənləri əla oxuyurdu, ancaq ədəbiyyat fənnini daha çox sevirdi desəm, yanılmaram. Sinif rəhbərimiz rayonumuzun ən nüfuzlu müəllimi – "Respublikanın Əməkdar Müəllimi" Əlisa İsayev onu qiymətləndirir, fərqləndirirdisə, şəxsi kitabxanasından oxumağa əlavə kitablar verirdisə, demək, Bəkir dəyərli, seçilən şagird idi. Bəkir dərs əlaçısı kimi fənn olimpiadalarında, sinfin, məktəbin ictimai işlərində yaxından iştirak edirdi. Rayonun kütləvi tədbirlərinə gedərkən həmişə bayraq onun əlində olurdu və biz bayrağın – Bəkirin ardınca gedirdik. Bayraq daşımaqdan qürur duyardı. Hətta bütün dəftərlərinin üstündə bayraq şəkli olardı. Düşünüb danışardı və danışdığına da hamını inandırardı. Dərsə hazırlıqsız gəlməzdi. Bəzən, uşaq şıltaqlığı edib dərsdən qaçardıq. Bəkir bunu müəllimə hörmətsizlik hesab edib qaçmazdı. Sinfimizin, sonra da məktəbimizin təəssübünü çəkər, qızlarla mədəni davranardı.

Bir dəfə IX sinfin sonları idi. Qızlarla sinfimizin qarşısında dayanıb danışıb-gülürdük. Dəhlizdə II növbədə oxuyan yuxarı sinfin oğlanları dayanmışdılar, ara-bir bizim tərəfə baxırdılar deyəsən. Bəkir qızlara yaxınlaşıb:

- Keçin sinfə - dedi.

O qədər ciddi, o qədər amiranə dedi ki, həmən tapşırığı icra elədik. Az sonra Bəkir sinif otağına gəlib:

- Qızlar, xatirinizə dəydimsə, üzr istəyirəm. Belə lazım idi – dedi.

Qızlar bir ağızdan:

- Allah bağışlasın, düz etdin  - dedilər.

Bəkirdən incimək, onun qərarını sorğulamaq mümkünsüz idi...

IX sinifdə bir neçə uşaq məktəbdən ayrıldı. Musiqi kollecinə, 2 nəfər də hərbiyə. Sentyabrda sinifdə boşluq vardı sanki. Daha çox Bəkirin yeri görünürdü...

C.Naxçıvanski adına hərbi liseydə də, Ali Hərbi Təyyarəçilik məktəbində oxuyanda da tətildə, bayramlarda rayona gələndə mütləq ayaqüstü həyətdəcə mənimlə bayramlaşardı .

Şəhid olması xəbərini televizordan eşitdim, bütün saytları axtardım, sinif yoldaşlarımıza zəng etdim. Təəssüf ki, hər kəs bu xəbəri təsdiqləyirdi. Şəhid olmasına təəssüf etmirəm – canından çox sevdiyi Vətən uğrunda Şəhid olub, özü də qəhrəmancasına. Ona görə təəssüf edirəm ki, həyat dolu idi. Yaşasaydı daha çox iş görə bilərdi, daha böyük qəhrəmanlıq göstərə bilərdi Vətənçün...

*Rövşən Vahidov*

**Əbu Bəkrlə ünsiyyətdə olan insanların hər biri ilə söhbətdən qənaətə gəldiyim nəticə vardı: O, ədalətli, haqqı-nahaqqa verməyən insanlara hörmət edir, onları özünə örnək bilirdi. Və bu örnəklər, etalonlar içərisində daha çox adı keçən C.Naxçıvanski adına Hərbi Liseydə Əbu Bəkirin bölük komandiri, kurs rəisi olmuş mayor Rövşən Vahidovla görüşmək, söhbətləşmək istədim. Sorağını başqa hərbi sahədən aldım polkovnik Vahidovun.**

**Şax oturuşu, ciddi görünüşü, rəsmi danışığı ilə uyuşmayan mülayim, qayğılı gözləri, baxışları ilə polkovnik Vahidov doğrudan da, mərhəmətli, ədalətli insan təəssüratı yaratdı məndə.**

**Söhbət etdik. Əbu Bəkiri soruşdum. Qısa və səmimi danışdı onun haqqında. Ancaq söhbətimiz uzandı – Haqqdan, Ədalətdən, Vətəndən, Vətəndaşlıqdan, Hərbdən, Sülhdən... Bir sözlə, ümumbəşəri dəyərlərdən...**

**Nə kitab cümləsi vardı söhbətində, nə pafos, nə də qəzet ifadəsi. Sadəcə, ürək sözü, Vətən eşqi ilə döyünən qəlb çırpıntısı...**



* * *

Mən Cəmşid Naxçıvanski adına Hərbi Liseydə işləyirdim. Hər il buraxılışımız olurdu, Əbu Bəkr 2008-ci il buraxılışı idi. 2005-2008-ci illərdə bizim liseydə təhsil almışdı. Bütün kursantlarımız yadımda qalmaz təbii ki. Daha çox həm yaxşı, həm də pis cəhətdən fərqlənən kursantları unutmuruq. Əbu Bəkr də yaxşı mənada





*Əbu Bəkr komandiri R.Vahidovla*

unudulmayanlardandır. Mən onun 3 il komandiri olmuşam. Əbu Bəkr elə ilk günlərdə fərqləndiyi üçün, manqa rəhbəri-lider seçilmişdi. Təhsil müddətində dərslərində, təlim-tərbiyəsində, davranışında yoldaşlarından fərqlənirdi. Adətən, həyatda olmayan şəxs haqqında yalnız yaxşı-şablon ifadələr, təriflər söylənir. Ancaq Əbu Bəkr haqqında xatirələrimiz tam həqiqətdir, şablon deyil. Onu danladığım, irad tutduğum yadıma gəlmir. Kursantlar arasından seçilən lider yaxşı olanda, komandir üçün də bölüyü idarə etmək rahat olur. Əbu Bəkr də haqq-ədalət prinspini həmişə qoruduğu, düzgün, dəqiq, prinspial olduğu üçün, hər kəsin - kursantların, müəllimlərin, komandirlərin rəğbətini qazanmışdı. O, tapşırığı dərhal anlayardı və dəqiq icra edərdi. Hər situasiyadan düzgün nəticə çıxarar, ədalətli yanaşar, yaşından böyük qərar verər və davranardı.

Onun boy-buxunu, sağlam cüssəsi, səliqəli geyimi, hətta, təraşı, saç düzümü belə, diqqəti cəlb edirdi. Forma ona çox yaraşırdı. Elə kursant olur ki, dərslərindən zəif, fiziki hazırlığı əla, eləsi olur ki, təlim-tərbiyəsi nümunəvi, fiziki hazırlığı qaydasında olmur, bəzilərinin də tərbiyəsi, davranışı qüsurlu olur. Tək-tək kursantlar olar ki, bütün müsbətləri özündə cəmləsin, qüsursuz olsun. Beləri müəllimlərin də, komandirlərin də, kursantların da sevimlisi olur. Əbu Bəkr də hər cəhətdən sevimli kursant kimi yaddaşımıza həkk olundu. Onun idman yarışlarında nailiyyətləri vardı, şeir müsabiqələrində iştirak edirdi. Bir sözlə kursantlara nümunə, örnək idi.

Adətən, liseyin birnci kursunda evdən, ata-anadan ayrılan uşaqlar ilk əvvəl çətinlik çəkirlər. Səhər tezdən durmaq, növbədə xidmət etmək, dərslərdə oturmaq, idman hazırlığı, məşğələlər – bütün bu yüklənməyə hər kursant tab gətirmir. Ərizə yazıb gedənlər də olur. Əbu Bəkr bütün tapşırıqların öhdəsindən müvəffəqiyyətlə

gəlirdi və dözümsüz, zəif olan kursantlara da mənəvi dəstək olurdu, ruh yüksəkliyi verirdi. Tapşırıq, iş zamanı çox ciddi, qeyri vaxtlarda isə mülayim, həssas görünürdü.


AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI

2006-cı ildə C.Naxçıvanski adına hərbi liseydə 26 iyun "Silahlı Qüvvələr günü"nə həsr olunmuş "Azərbaycan Əsgəri" bədii qiraət müsabiqəsində uğurlu çıxışına görə 1-ci kurs, 3164-cü tağımın kursantı

Əbubəkir Vüqar oğlu İsmayılovu

DİPLOMLA

TƏLTİF EDİR

05 iyun 2006-cı il

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri S.Mehbalıyev

Liseyi bitirərkən buraxılış tədbirində söylədiyi çıxışı o vaxtdan yadımdadı. Bizim liseydən sonra 2008-2012-ci illərdə Ali Hərbi Təyyarəçilik məktəbində təhsil alanda da, ancaq yaxşı sorağı gəlirdi. Tez-tez bizimlə əlaqə saxlayırdı.

Əbu Bəkr həyatı, yaşamağı çox sevirdi. Qarşısına böyük məqsədlər qoymuşdu. Məqsədyönlü, planlı şəkildə gələcəyini qurmaq, arzularını reallaşdırmaq üçün çalışan gənc, enerjili bir hərbiçini ititmək nə qədər ağır idi bizim üçün. Şəhid olması xəbərini eşidəndə çox məyus oldum. Gözümün qabağında böyüyən, gələcəyinə çox böyük ümidlər bəslədiyim Əbu Bəkirin ölümü də adi ölüm olmadı, şərəfli ölüm oldu. Uzunmüddətli mübarizəmizin dönüş tarixində - Aprel döyüşlərində şücaət göstərərək şəhid oldu, adını tarixə yazdı. Fəxr edirəm ki, yetirməmiz ən uca zirvəni fəth etdi, ən ali məqamı Şəhidlik məqamını qazandı.

## Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 2008-ci il buraxılışında 3-cü kurs rəisi mayor Rövşən Vahidovun təbrik nitqi

Yoldaş kursantlar!

Sizi Ulu Öndərimiz H.Əliyevin yaratdığı C.Naxçıvanski adına Hərbi Liseyi qurtarmağınız münasibətilə səmimi qəlbdən təbrik edir, həyatda can sağlığı, uzun ömür arzulayıram.

Bir vaxt gələcək öz şanlı ənənələri ilə bir çox zabitlərin həyatında əzəmətli yer tutan bu lisey həyatı sizin də qəlbinizdə xoş bir xatirə

kimi yaşayacaqdır. Vətənin, xalqın, elin-obanın şərəfini, ləyaqətini uca tutmaq, sərhədlərimizin keşiyində mətin, cəsur bir əsgər kimi daima qulluq etmək böyük iradə və səy tələb edir.

Mən inanıram ki, sizin hər biriniz oxumalı olduğunuz Azərbaycan Ali Hərbi məktəblərində də təhsilinizi başa vurduqdan sonra daha da mətinləşəcək, xalqa olan məhəbbətiniz yüksələcək, düşmənə olan nifrətiniz isə artacaqdır.

Bu şərəfli və çətin yolda sizin hər birinizə uğurlar arzulayıram.

Arzu edirəm ki, üzünüzə açılan hər bir səhər sevinc və səadət gətirsin.

* * *

Dəyərli və hörmətli dostum Hətəmxan!

Səni oxuduğun Hərbi Liseyin məzunu adını almağın münasibətilə təbrik edirəm. Sənə ilk növbədə insan üçün vacib olan can sağlığı, həmişə olduğun kimi qalmağı, arzuladığın arzularına çatmağı və nəhayət, darıxmamağı arzu edirəm. Qoy üzündən heç vaxt təbəssüm, dilindən həqiqət, baxışlarından məna əskik olmasın.

H.Cavid deyib:

**Ölmək yaşamaqdır,**
**Sərsəm yaşamaq ölümə yamaqdır.**

Hətəm, çalış elə yaşa ki, sənə verilən həyatın qiymətəni dəyər vahidilə ölçmək mümkün olmasın.

Hörmətlə: Dostun Əbu Bəkr.

* * *

Əziz söz ustadımız Əbu Bəkr!

Səni məzun olmağın münasibətilə təbrik edirik. Həyatda ən vacib olan can sağlığı, uzun ömür və ailə səadəti arzulayırıq sənə. Həyatda heç vax nə edim, necə edim demək məcburiyyətində qalmayasan, qardaş! Unutma ki, bizləri bir-birimizə bağlayan 3 il bizə yaxşını və pisi öyrətdiyi kimi, dostluq və qardaşlığı da öyrədib. Sonda sənə ən dərin arzumuz budur ki, görən gözlərdən, danışan dildən, tutan əldən və ağıldan məhrum olmayasan.

Hörmətlə: Hətəmxan, Natiq, Orxan, Miryusif, Rafael, Qüvvət.

## Əbu Bəkr İsmayılovun C.Naxçıvanski adına Hərbi Liseyin 2007-2008-ci tədris ili buraxılış mitinqindəki çıxışı

Cənab general, hörmətli tədbir iştirakçıları və əziz kursant yoldaşlarım. Biz III kurslar bu günün sevincli anlarını yaşayırıq. Hərbi liseyin məzunları adına layiq görülürük. İlk növbədə bu 3 il ərzində bizə elmin sirrlərini dərindən öyrədən müəllimlərə və hərbi sirrləri öyrədən tələbkar komandirlərə öz minnətdarlığımızı bildiririk. Zaman etibarı ilə, çox qısa görünən bu dövr həyatımızın ən xoş çağlarını təşkil etmişdir. Çünki hərbi liseydə olduğumuz müddət ərzində istər təhsildə və təlimdə, istərsə də fiziki cəhətdən sözün əsl mənasında çox formalaşmışıq. Özümüzdə Vətənimizin, Xalqımızın müdafiəsində durmaq üçün böyük güc və inam hissi duyuruq və biz gələcəyin zabitləri yaxşı bilirik ki, savadlı və bacarıqlı olmalıyıq. Bunu doğma Vətən torpaqlarının erməni işğalı altında olması bizdən tələb edir. Ona görə də, biz gələcəyin zabitləri üzərimizə düşən vəzifələri tam vaxtında, məsuliyyətlə, vicdanla yerinə yetirməliyik. Necə ki, bizdən öncə Hərbi liseyin məzunu olmuş milli qəhrəmanlar, generallar kimi. Mən də 36-cı buraxılışın məzunları adından söz verirəm ki, onların layiqli davamçıları olacağıq. Fürsətdən istifadə edərək, I və II kursun kursantlarına üzümü tutaraq demək istəyirəm ki, hərbi liseydə olduqları müddət ərzində vaxtlarından səmərəli istifadə etsinlər. Dostluqda və yoldaşlıqda möhkəm, sədaqətli olsunlar. Bir sözlə, biz hər zaman Naxçıvanskilərin xoş sədalarını eşidək. Diqqətinizə görə çox sağ olun!

***Sadiq Salmanov (Baş leytenant)***

Biz Əbu Bəkirlə 11 il dostluq etdik. Yaşasaydı, bu dostluq bir ömür boyu davam edəcəkdi. Hər kəsin doğumu ilə ölümü arasındakı məsafə onun ömrüdür. 30 yaşım var. 30 ildə ən böyük və ən qiymətli qazancım Əbu Bəkirin dostluğu olub, onu da itirdim. Daha o dostu tapmaq imkansızdı. İçimdə dərya kimi bir boşluq var sanki. Bəzən o boşluqda boğuluram və o boşluğu doldura biləcək, ürəyimi oxuyan birisi yoxdur artıq. Mən dost anlayışına belə baxıram. Sinif yoldaşlarım, kursant yoldaşlarım, iş, yol, səfər yoldaşlarım çoxdur. Hamısı ilə əlaqəm, salam-kəlamım, səmimiyyətim var. Ancaq ürək dostum, sirdaşım daha yoxdur, bundan sonra olacağına da inanmıram.

Əbu Bəkr savadlı, səbrli, təmkinli, ədəbli insan idi. Yeniyetmə, gənc yaşlarında hər kəsdə olmayan idarəçilik qabiliyyətilə seçilirdi. Bu səbəbdən də C.Naxçıvanski adına Hərbi liseydə manqa rəhbəri, Ali Hərbi Təyyarəçilik məktəbində isə dörd il bölük çavuşu seçilmişdi, şəxsi heyəti idarə edirdi. Mən ondan 2 yaş böyük idim. Ondan əvvəl oxusam da, hər işindən, hər addımından xəbərdar idim. Hər şənbə, ya bazar günləri görüşürdük. Şəhəri gəzər, kinoya gedərdik. Birlikdə olduğumuz vaxtın daha çox hissəsini Azərbaycan Tibb Universtitetinin yataqxanasında keçirirdik. Qardaşım ATU-da oxuyurdu, yataqxanada qalırdı. Bəkirlə biz onun yanına gedəndə bütün tələbələr yığışardı Bəkirin başına. Maraqlı söhbəti, mehriban ünsiyyəti, istedadı ilə hamının diqqətini çəkmişdi. Çoxlu şeir bilirdi, bədahətən meyxana söyləyirdi. Yaxşı



***Sadiq, qardaşı, Əbu Bəkr***

səsi, diksiyası vardı. Parodiya etməyi də bacarırdı. Odur ki, Bəkirlə yataqxanaya gedəndə uşaqlar bizi buraxmaq istəmirdilər, səhərədək şeir, musiqi məclisi davam edirdi. Az-maz yazmaq qabiliyyəti olanlarla da deyişirdi, rəqqas kimi rəqs edirdi. Bir sözlə hamının – mənim də həsəd apardığım şəxsiyyət idi...

Nişanlı vaxtım idi. Məni Polşa respublikasına 6 aylıq kursa göndərdilər. Qardaşım da Türkiydə təhsil alırdı. Mən maşınımı Əbu Bəkirin adına keçirib getdim. 6 ay ərzində Bəkir valideynlərimin, nişanlımın qayğılarını çəkir,onların bütün işlərinin ardınca o, gedirdi. Qohuma - qardaşa etibar etmədiyim işləri ona etibar edirdim və məni heç vaxt məyus, peşman etməyəcəyinə əmin və arxayın idim.

Heç vaxt yadımdan çıxmaz, toyum ərəfəsi idi. Toy alış-verişinə çıxmışdıq. Axtardığım bir şeyi almaq istəyəndə, hesabladım ki, pulum çatmır. Rayona xəbər etsəm, gec olardı. Bəkir:

- Gözlə gəlirəm, - dedi.

Heç yarım saat keçmədi ki, əlində bağlama qayıtdı. Bankada yığdığı 50 qəpikliyi gətirmişdi mənə. Bilirdim ki, o vaxtlar Bəkir dayısı qızı – Şəbnəm bacını sevirdi və maraq üçün, çox böyük həvəslə 50 qəpiklik yığırdı. Söz vermişdi ki, bankanın qapağını toyunda açacaqdı. Təbii ki, mən bankanın açılmasına razı olmadım.

- Neçə ildir ki, əziyyətlə yığırsan, məqsədin var. Toyunda açacaqsan – dedim.

Bəkir inadla:

- Fərqi nədi? Səni toyun, ya mənim toyum... Dost olan yerdə pulun nə önəmi var? – dedi, və bankanın qapağını açdı. Saydıq, 320 manat pul var idi. Və həmin pul mənim işimə yaradı...

Mən indi də 50 qəpiklik görəndə özümü pis hiss edirəm.

Mənim, qardaşımın, hətta qaynımın da toyunda elə gözəl təşkilatçılıq etmişdi ki, tanımayanlar onu toy yiyəsi kimi sanmışdılar. Onun toyda çıxışı, rəqsi, hamını rəqsə dəvət etməsi, toy əhlini qarşılması uzun müddət bizim qohumların dilindən düşmədi...

Bəkirin öz toyu isə dastan kimi dillərə düşdü. Mənə demişdi ki, toyunda anasına, nişanlısına sürpriz edəcək. Türkiyədən general formasına bənzər hərbiçilərin mərasim geyimini gətizdirmişdi.

Bu forma ona çox gözəl yaraşırdı. Toy zalında bəylə gəlinin başı üstündən Azərbaycan bayrağı asılmışdı. Toy iştirakçılarının yarısı hərbiçilər idi. Onların heç biri oturmaq istəmirdilər. Hamısı da Bəkir haqqında xoş söz demək istəyir, rəqs edir, yallı gedirdilər. Mən heç kəsin toyunda bu qədər hərbiçi görməmişdim. Toyun bütün tədarükünü də özü görmüşdü. Bu toydakı fərqlilik göstəriş deyildi, onun öz sənətinə sevgisi, təpədən dırnağa vətənpərvərliyinin sübutu idi...

Biz bir-birimizin kəbin şahidi olmuşuq. Müsəlman ənənəsinə uyğun olaraq Bəkirgilin dini kəbinin kəsdirmək üçün dördümüz din xadiminin yanına getdik. Mən mərasim bitəndə din xadiminə pul vermək istədim, götürmədi. Bəkir israrla kişinin cibinə pul qoydu və o da ərkyana Bəkirə baxıb:

- Baxır bəyin səxavətinə, - dedi. Hamımız güldük. Hərdən yeri gələndə yoldaşım da, mən də həmin ifadəni işlədirik...

Əbu Bəkririn davranışında heç vaxt qüsur görməmişəm. Kənardan ciddi görunməyinə baxmayaraq, çox zarafatcıl, mehriban, qılıqlı idi. Sözün də, zarafatın da, iltifatın da həddini bilirdi. Ona görə də, ondan incimək mümkün deyildi. Qızım İnci dünyaya gələndə mənim qədər sevinirdi desəm, yanılmaram. Hər gün zəng edib, uşağı soruşurdu. Mən də zarafatla:

- Əmisini gözləyir, - deyirdim

Adət var, qırxı çıxsın, sonra gələrik, – deyirdi.

Martın 31-də zəng vurdu, cümə axşamı idi. Hal-əhval tutduqdan sonra:

- Döyüş bölgəsinə gedirəm. İnşallah, şənbə günü sizdəyik. İncini görməyə gəlirik, – dedi.

Tədarük gördük. Ancaq ürəyim narahat idi. Cəbhə bölgəsində vəziyyətin gərgin olduğunu bilirdim. Bəkirin təlim vaxtı ayağını zədələdiyindən, uçuşa qalxmasına inanmasam da, içimdə bir sıxıntı vardı. Şənbə günü, aprelin 2- də səhər ona zəng vurdum, zəng çatmırdı. Artıq gündüz vaxtı mənə zənglər gəlməyə başladı – bəd zənglər... Özümdə deyildim, dünya başıma fırlanırdı. Bir adam axtarırdım, mənə desin ki, Bəkir sağdı...



***Sadiq məzar başında***

Türkiyədən qardaşım zəng vurmuşdu. Elə bağırırdı ki, telefonda:

- Bəkir ölə bilməz...

Tibb Universitetinin yataqxanasından Bəkiri yaxşı tanıyan,indi Amerikada təhsil alan qardaşımın dostu da zəng vurmuşdu, ağlayırdı...

Bəkirin kəbinini kəsən qadın - VVAQ məmuru da zəng edib onun ölümünə çox təəssüfləndiyini bildirdi. Bəd xəbər nə tez yayılırmış...

Bəkir necə hörmətli idisə, eləcə, hörmətlə də dəfn edildi. Onun cənazəsinin gətirildiyi axşamkı, Fəxri Xiyabanda dəfn olunduğu günkü izdiham heç vaxt unudulmaz. Mən inanıram ki, hər bir hərbiçinin arzuzu şəhid olmaqdır. Ancaq elə şərəfli ölümə, elə ləyaqətli dəfnə, elə hörmətli vidalaşmaya da həsəd aparanlar çox idi, lap çox. Bəkir fərqli idi, fərqli də getdi...

6-7 ayın evlisi gözəl arzularını, Şəbnəm bacının xoşbəxtliyini, Rəna xalanın, Vüqar əminin, Əkbərin, onu tanıyanların, sevənlərin fərəhini, sevincini özü ilə apardı.

Ağlıma gətirə bilmirəm onsuzluğa alışmağı. Bəkiri unutmaq mümkünsüzdür. Hər şənbə, bazar günləri nigaran-nigaran vurnuxuram evdə, sanki zəng gözləyirəm. Hərdən çaşıb Bəkirin nömrəsini də telefonda yığmışam...

İnci böyüyür. Hər ona baxanda qəribə hisslər keçirirəm. Uşaqları çox sevən, hər gün telefonda qızımı oxşayıb əzizləyən Bəkir əmisinə niyə qismət olmadı İncini görmək, qucağına almaq?!

Bir ilə yaxındır ki, şənbə, ya bazar günü mənim gəzdiyim yer, ziyarətgahım Fəxri Xiyaban - Şəhidlər xiyabanıdı. Bəkirin arzuladığı, sağlığında vəsiyyət etdiyi kimi...

**Fevralın 10-u idi. Şaxtalı, sazaqlı bir qış günü, Fəxri xiyabanda bir qrup hərbiçi şəhid pilotlar, Təbriz Musazadə, Urfan Vəlizadə, Əbu Bəkr İsmayılovun məzarı qarşısında dayanmışdılar. Nurani molla qəhrəman şəhidlərin ruhuna dostları adından quran tapşırırdı. Dostlarının məzarları önündə başları sinələrinə əyilən hərbiçilərin qaşları düyünlənmiş, gözləri dolmuşdu. Salavat çevirdikdən sonra xeyli sakit, lal baxışlarla qara mərmərdən onlara gülümsəyən Təbrizi, Urfanı, sanki komandirlərinin qarşısında ciddi raport verən Əbu Bəkiri süzürdülər. Bu cansız baxışlar nəyi ifadə edirdi? Nələr deyirdi bir-birinə? Giley vardı, həsrət vardı, ərk vardı bu baxışlarda. Dürlü-dürlü şirin xatirələr vardı bu baxışlarda...**

* * *

**Rəşad Əkbərov (Mayor, N saylı hərbi hissənin komandiri)**

Bu gün Əbu Bəkirin doğum günüdür. Hərbi hissəmizdə onun xatirəsinə tədbir keçirəcəyik. Əbu Bəkirsiz onun ad gününü qeyd edəcəyik. Bu gün iş yoldaşları dəstə-dəstə onun qəbri üstünə gəlib xatirəsini yad ediblər.

Əslində bura bizim and yerimiz, vəd yerimizdi. Bir gün belə unutmadığımız, hər sözü, hər davranışı ilə hər gün xatırladığımız dostlarımızın əziz xatirəsini yad etmək üçün tez-tez bura ziyarətə gəlirik. Hər üçü haqqında danışmaq mənə çətindi. Təbriz və Urfanla çoxdan bir yerdə işləyirdim. Yaxın dost idik. Əbu Bəkr isə bizə təzə gəlmişdi. 7-8 ay olardı bizim bölükdə bort texniki kimi çalışırdı, nizam-intizamlı, böyük-kiçik yeri bilən gənc zabit idi.

- Eşidirəm, cənab komandir – deyəndə də, utana-utana, zarafatlaşanda da çox səmimi görünərdi.

Urfan çox sakit, mülayim xarakterli idi. Təbriz isə, zarafatcıl, çevik...



***Hərbiçi dostları Əbu Bəkiri yad edirlər***

Heç unutmaram keçən il martın 15-də, axır çərşənbə günü, nahar vaxtı Əbu Bəkr kənarda oturmuşdu. Urfan, Təbriz və mən yan-yana oturub çay içirdik. Təbriz məzəli əhvalat danışır, gülüşürdük. Birdən Təbriz özündən həm yaşca, həm də rütbəcə böyüklərə hörmət edən, pərdə saxlayan Əbu Bəkirə tərəf dönüb ərklə:

- Bəkir, gəl yanımda əyləş. Biz bir yerdə uçacağıq, birgə döyüşəcəyik. Ola bilər ki, bizi vurdular. Mənim bir ayağımı sənin tabutuna, sənin bir qolunu mənim tabutuma qoyarlar. Biz bir bədəndə qovuşarıq. Sənin anan mənimçün ağlayar, mənim anam səninçün ağlayar...

Biz həmin gün Təbrizin bu zarafatına gülmüşdük. Ağlımıza gəlməzdi ki, üstündən 16 gün keçəcək, onlar döyüşə birgə uçacaq, birgə şəhid olacaq, birgə dəfn olunacaqdılar. Həmin sözlər hər gün qulağımda cingildəyir, beynimi suallar yorur. Axı, Təbriz hardan bilirdi, necə ürəyinə dammışdı...

Bir də Təbrizin həmin ərəfələrdə söylədiyi “Vaxt gələcək, təqaüdə çıxan zabitlər mənə qibtə edəcəklər. Mən qəhrəmanlıq salnaməsi yazacağam” kəlamı və 5-10 gün sonra qəhrəmancasına döyüşərək şəhid olması...

Martın 30-da döyüşə getməzdən əvvəl toplaşdıq. Hamımız

sevinirdik ki, nəhayət başlandı. Sanki döyüşə yox, toy-bayrama gedirdik.

Təbriz: - Qarabağ, Torpaq qisasını Onura, Tayfuna buraxmaram. Bizim işimizi onların görməsinə razı olmaram – demişdi.

Onlar döyüşə gedəndə əmək haqqı almamışdıq. Urfan əlini cibinə atıb əmək haqqı kartını götürdü. Kartında 900 manat pulu vardı. “Götürək, xərcləyək, şellənək. Onsuz da zəmanətim yoxdu”, - dedi. Hamımız Urfana “abi” deyirdik. Beləcə, abimiz son tikəsini qardaşlarına bölüb getdi.

Əbu Bəkr isə sevindiyindən Mi-24-ün başına fırlanırdı sanki. Onun poeziya həvəskarı olmasını, meyxana deməsini, yaxşı şeirlər yazmasını eşitmişdim, ancaq komandirləri yanında deməzdi, utanardı. Ancaq son gün, döyüşə gedəndə meyxana deməsini mən də eşitdim. Martın əvvəllərində keçirilən təlimlər zamanı ayağı zədələnibmiş, hamıdan gizlədibmiş ki, döyüşdən, uçuşdan kənarlaşdırılmasın.

Bu epizodları xatırladıqca, onların sözdə deyil, əməldə Vətən eşqinə, Torpaq sevgisinə, döyüş həvəsinə həsəd aparmamaq mümkün deyil.

... 31-də uçduq Kürdəmirdəki N saylı hərbi hissəyə. Dedim ki, hamımız bir yerdə şam edək, söhbətləşək. Əbu Bəkr:

- Çox yorğunam, gedim anamla görüşüm - dedi. Bir az sonra zəng edib, bax yemirik, səni gözləyirik, gəl demişdim. Gəlmədi, sanki doğma ocağı, əzizləri ilə son görüşü olacağını bilirmiş.

Birinci döyüşdən uğurla, sağ-salamat dönmüşdülər. Toy-bayram edirdik. Uşaqlar tələsik helikopterin silahlarını doldururdular. Hətta, Təbriz də onlara qoşulub fərəhlə silah doldururdu...

2-ci döyüşdən dönmədilər. 4-5 gün sarsıntı içində idik. Çarpayıların üstünə atdığımız telefonlar susmurdu. Valideynləri, ailələri idi. Xəbərin doğru olub-olmamasını soruşacaqdılar yəqin ki.... Telefonu açıb nə deyəcəydik ki?

Təbrizin, Urfanın, Əbu Bəkirin canlarından əziz bildikləri Vətən, Torpaq uğrunda Şəhid olduqlarınımı deyəydik?

4 gün yemədik, yatmadıq... Əziz dostlarımızın yoxluğuna inanmaq istəmirdik...

* * *

**Elşad Ələkbərov (Baş leytenant)**

Əbu Bəkr haqqında söz deməyə çox çətinlik çəkirəm. Hamının sevimlisi, hamının dostu idi. Nə gizlədim, çoxlarımız ona qibtə edirdik, ona bənzəmək istəyirdik. Yaraşıqlı görkəmi, möhkəm xarakteri, məntiqli danışığı, bacarığı, müsbət aurası ilə hər kəsin diqqət mərkəzində idi.

Mi-24 döyüş vertalyotuna meyli vardı. Ancaq o vertalyotda uçmaq istədiyini dəfələrlə bildirmişdi. Mən Qala qəsəbəsində N saylı Hərbi hissədə texniki heyətdə, o, isə H.Z.Tağıyev qəsəbəsindəki N saylı hərbi hissədə texniki istismar şöbəsində xidmət edirdi. Qala qəsəbəsindəki N saylı hərbi hissəyə - bizim eskadrilyaya keçmək istəməsini bizə bildirmişdi. Cənab mayordan - Rəşad Əkbərovdan xahiş etdim ki, onu öz eskadrilyasına qəbul etsin. Aviasiya Akademiyasında 1 il bort texniki ixtisasına yiyələndikdən sonra cənab mayora yenidən müraciət edərək Mi-24 helikopterində uçmaq, döyüşmək arzusunu reallaşdırdı. Bu arzu onu şəhidlik məqamına aparan ən qısa yol oldu...

* * *

**Təbiət Abbasov (Baş leytenant)**

Əbu Bəkirlə çox yaxın idik. Hərbi liseydə də, Ali Hərbi Təyyarəçilik məktəbində də birgə oxumuşduq. Onu özümə




***Əbu Bəkr dostu Təbiət ilə***

arxa-dayaq bilirdim. Heç yadımdan çıxmaz, qaçışdan zəif idim. İmtahandan kəsilmək qorxusu vardı. Bir otaqda qalırdıq. İmtahandan 2 ay qabaq hər gün səhər 6-da məni zorla yuxudan durğuzub qaçmağa məcbur edirdi. Onunla birgə məşqlərimiz uğurla nəticələnmişdi. Əbu Bəkirlə bir otaqda yaşamaq mənim uğurum idi. O, qayğısını, maddi və mənəvi dəstəyini məndən əsirgəməyib. Onunla günün necə keçdiyini hiss etmirdik. Boş vaxtlarımızda şeir söyləyirdi, meyxana deyirdi, rəqs edirdi.

Həyatımda silinməz iz buraxan mənalı, unudulmaz tələbəlik həyatı yaşadıq onunla...

* * *

**Timur Haşımov (Baş leytenant)**

Əbu Bəkiri hər gün xatırlayırıq.

- Bəkir olsaydı belə deyərdi.

- Bəkir olsaydı bunu belə edərdi.

Kursantlıq dövründə də, birgə işlədiyimiz vaxtlarda da ondan ancaq səmimi münasibət, mehribanlıq, diqqət gördük. Bütün kurslarda, qruplarda, kiçik mübahisələr, söz-söhbətlər olurdu. Bizim qrupda Əbu Bəkr ən kiçik mübahisəyə belə imkan verməzdi. Dərhal müdaxilə edib, incikliyi aradan qaldırar, mübahisəyə son qoyardı. Bir sözünü heç unutmaram:

- Mehriban olun ki, bir gün xatırlayanda peşiman olmayasız. Ailəcanlı, qayğıkeş idi. Hamı anasını sevir. Ancaq onun ana sevgisi kimi sevgi görmədim.

* * *

**Cavid Suanverdiyev (Baş leytenant)**

Əbu Bəkr ideal dost idi optimist, dürüst... Çoxları ondan, nizamlı iş görməyi, qənətcil olmağı öyrəndi. Lüzumsuz məsrəfi xoşlamırdı. Onun həmişə sabaha, gələcəyə planları vardı. Hətta, xərclik siyahısını da qabaqcadan tutardı. Evə göndərməyə, istirahətə, əyləncəyə, geyimə, yeməyə vəsait ayırardı. Həmişə də artıq pulu qalardı. Hamıdan da səliqəli, şux görünərdi. Həyatına nizam verməyi, mənalı, məqsədli yaşamağı bacarırdı. Ehtiyacı olanlara da əl tutar, yardım edərdi.

***Faiq Oruczadə (Baş leytenant)***

Biz Bəkirlə Ali Hərbi Təyyarəçilik məktəbində 4 il bir bölükdə oxumuşuq. O, bizim bölüyün baş çavuşu idi. İntizamlı, dürüst, savadlı, səliqəli keyfiyyətləri ilə həm kursantların, həm də rəhbərlərin sevimlisi idi. Ali məktəbə qəbul olanda bölükdə yüzdən çox kursant var idi. Bitirəndə isə səksəndən çox olmazdı. Hərbi intizama, fiziki hazırlığa, çətin dərs proqramına dözməyənlər məktəbdən uzaqlaşdırılırdı. 4 il ərzində biz ondan qeyri-etik ifadə, söyüş, kobud söz eşitmədik. Bölükdə hər kəsin səhvinə görə onu danlayırdılar. Gərgin anları çox olurdu, ancaq bir dəfə də üzümüzə vurmurdu. Hər şeyi öz üzərinə götürürdü, uşaqları ələ verməzdi. Liderimiz o yox, başqası olsaydı, daha çox qovulan olardı. Arada bir-iki dəfə bezdi, ərizə verib bölük çavuşu vəzifəsindən uzaqlaşdı. Lakin bu, çox qısa müddət oldu. Kursantların və rəhbərlərin təkidi ilə yenidən həmin işinə təyin edildi.

Bəkirin hamıyla münasibəti yaxşı idi. Ancaq biz daha yaxın idik. Hərdən gərgin olanda korpusun yataq otağında yanıma gəlib deyirdi ki, yatmaq istəyirəm, saçımı qarışdır. Bilirdim ki, bu onun uşaqlıq vərdişidir (Anası onu elə yatızdırarmış uşaqlığında). Mən də çarpayının kənarında oturub, Bəkirin saçını qarışdırır, sığallayırdım. Elə şirin, dərin yuxuya gedirdi ki...

Çox diqqətli, qayğıkeş idi. Ad günümü birinci, gecə saat 12 tamam olan kimi təbrik edərdi. Özünə qarşı diqqət görməyəndə də inciyərdi. Keçən ad günümdə mənə zəng vurub dedi ki, sənin üçün hədiyyə bağlatdırmışam. Qara Qarayev metrosunun yanında, gül dükanına qoymuşam. Satıcı qıza yaxınlaşıb adını deyərsən, verəcək hədiyyəni. Mən də o dediyi ünvana getdim. Satıcı qız hədiyyəni göstərib dedi:

- Hədiyyə burdadı, ancaq, sizə verə bilmərəm. Çünki, siz onun təsvir etdiyi oğlana oxşamırsız.

- Necə yənı oxşamıram?! Ay xanım, Vallah, mən Faiqəm, bu da sənədim. And-aman elədim. Dedi ki, yox, verməRəm. O oğlan mənə deyib ki, Faiq adında bazburutlu, iki cangüdənlə, “Hummer” markalı maşında  Faiq adlı biri gələcək, bu hədiyyəni ona verərsən. Gülmək məni tutdu. Bildim ki, zarafat eləyib mənimlə. Zəng edib:

- Ay qardaş, bu xanım hədiyyəni vermir, inanmır Faiq olduğuma...

Onun belə məzəli zarafatları çox olurdu. Bir problemim, sıxıntım olanda ona deyirdim. Bilirdim ki, qardaş kimi əlindən gələni eləyəcək. Bir dəfə Bəkir yanımda olmayan vaxt pula ehtiyacım oldu. Ora-bura vurnuxurdum ki, Bəkir zəng elədi:

- Qardaş, mənim bir az pulum var, hələlik mənə lazım deyil. Sən götür xərclə, olanda qaytararsan. Məəttəl qaldım.

- Sən hardan bildin ki, pula ehtiyacım var?

- Ürəyimə damdı,- dedi.

Kursant vaxtımızdan bir ailənin uşağı kimi bir yerdə olurduq. Bazar günləri çox vaxt bizə gəlirdi. Anam elə öyrəşmişdi ki, ona, gec gələndə deylənirdi. Evimizin də, maşınımın da açarının biri onda idi. Mən başqa hərbi hissədə olanda, maşını o, idarə edirdi. Bizim evin də qayğılarına baxırdı. Maşınımı şərikli sürürdük. Bəzən, günlərlə onda qalırdı. Bəlkə də, başqasına ehtiyat edərdim maşın verməyə. Ancaq ona çox arxayın idim. Diqqətli sürərdi, qayda-qanuna əməl edərdi, səliqəli saxlayardı.

Bizim bədən ölçülərimiz də eyni idi. Odur ki, paltarlarımızı dəyişik geyərdik. Bizə gələn kimi dolabımı açar, ərklə istədiyi köynəyi, kostyumu götürüb geyərdi. Bir toya hərə öz kostyumunu geyirdisə, başqa bir toyda dəyişərdik ki, fərqli geyimdə görünək. Zarafatla deyərdi ki, bax sənin paltarın mənə daha çox yaraşır. Bizim ailə hələ də onun yoxluğunu qəbul edə bilmir.

Bəkirin qız toyunda mənim maşınımda bəylə gəlin oturacaqdı. Maşını özüm bəzədim. Çox xoşuna gəldi. “Gəlin maşını”nı özü sürürdü. Mən də onun ardınca başqa iş yoldaşımızın maşınını sürürdüm. Elvin də yanımda idi. Kəndə çatanda,  dar yolda maşın sürüşüb dayaz arxa düşdü. Qohumları qoşqu ilə dartıb çıxartdılar maşını. Maşın da, Elvinlə mən də palçığa batmışdıq. Şəbnəmgildə

- qız evində gülə-gülə palçığımızı təmizlədilər. Sonralar Bəkir uzun müddət bu hadisəni xatırlayıb gülürdü.

Mənim maşınımda fərqli siqnallar vardı. Birini Bəkir çox bəyənirdi. Deyirdi ki, öz toyumda gəlin gətirməyə gedərkən kəndə girəndə həmin siqnalı çalarsan. Bakıdan Kürdəmirə gələndə baxdım ki, həmin siqnal xarab olub, işləmir. Bəkirə bildirdim. Kəskin etiraz elədi:

- Mən bilmərəm, oyunpozanlıq eləmə, neyləyirsən elə, siqnal işləsin. İşləməsə ağzında çal.

Dilxor oldum. Bəkir dəqiq, planlı adam idi. Əskikliyi sevməzdi. Kəndə çatanadək siqnal işləmədi. Qız evinə bir tin qalmış, siqnalı bir də basdım, işlədi. Sevindiyimdən uçurdum. Bəkirə zəng elədim:

- Qardaş, siqnal işlədi.

- Bilmirsən, mən Allah adamıyam, bilirdim işləyəcək, - dedi.

Bəkir çox ailəcanlı idi. Qardaşı, anası xəstələnəndə çox fikir eləyirdi. İşin arasında tez-tez anasına zəng edərdi. Evdəkilərə sevə-sevə paltar, ev əşyaları alardı, problemləri ilə maraqlanardı.

İşdən birgə çıxar, maşınla Sabunçudan Şəbnəmi götürüb, sonra da mənim bacımı dərsdən götürərdik. Onları evlərinə düşürərdim. Bəkir bazarlığı çox edərdi həmişə. Paketlərin yüngülünü özü götürər, ağırlarını mənə saxlayar, məzəli bir təbəssümlə:

- Gətir, gətir, cavan oğlansan, tənbəl olma, - deyərdi. Sonra da həyət qapısında maşın gözdən itənə qədər dalımca baxardı.

Həmişə evə gedəndə Əhmədlidə, yol üstündə isti təndir çörəyi alırdı. İndi də ordan keçəndə bəzən çaşıb maşını saxlayıram. Bir gün də bir az gec çıxmışdıq işdən. Bərk acmışdım, isti çörək aldıq. Dedim ki, çörəkdən kəs ver yeyim, ölürəm acından. Dedi ki, iştahanı qaçırma, evdə hazır yeməyimiz var, kənd çolpası, birgə yeyərik. Onlara çatdıq. Nə qədər minnət elədisə də, düşmədim, çox yorğun idim, oturmağa halım yox idi. İsti çörəyin yarısını kəsib verdi ki, yolda yeyərsən. Şəbnəm bacı çörəyi alıb, arasına kənd pendiri qoyanda qışqırdı ki, ay qız, neynirsən? Pendiri az qoy, özümüzə də qalsın. Sonra da özünəməxsus gülüşü ilə şaqqanaq çəkdi...

Rayondan ona tez-tez ərzaq bağlaması gəlirdi. Kənd toyuğu,

yumurta, ağartı məhsulları. Gedib avtovağzaldan götürürdük. Rəna xala hərdən mənim qardaşımın uşağı üçün də kənd toyuğu, yumurta göndərərdi. Bəkir rayona gedəndə, deyirdim ki, gələndə bizim uşağın toyuğunu, yumurtasını da gətir ha!

- Adamda üz gərəkdi, boynuma qoyursan?

- Bilmirəm, uşağın mədəsi sizin həyətin cücəsinə, yumurtasına öyrəşib, - deyirdim.

Hər gün gözümün önündədi o səhnələr. O şux zarafatları, qayğılı baxışları... Çoz iz buraxdı həyatımda, çox...

Aprel döyüşləri zamanı mən məzuniyyətdə idim. Aprelin 1-də axşamüstü Bəkirə zəng vurdum. Xeyli danışdıq. Keyfi pis deyildi. Son danışığımız oldu. İkisində, səhər saat 11 olardı, ardıcıl zəng səslərinə yuxudan oyandım. Qohumlarım, tanışlarım narahat idilər. Müharibənin başlandığını, itkilər olduğunu hamı bilirdi. Mənim harda və salamat olub-olmamağımla maraqlanırdılar. Birdən Bəkir yadıma düşdü. Tez ona zəng vurdum, zəng çatmadı. Bədənim istiləndi, iş yoldaşlarımdan Elşadın nömrəsini yığdım. O, məni sakitləşdirmək istədi:

- Narahat olma, salamatçılıqdı, - səsi titrədi.

- Bəs niyə Bəkirə zəng çatmır?

- Yəqin, telefonu söndürüb, Fəridə zəng vur.

Fəridin nömrəsini yığdım:

- Fərid, mənə dəqiq söz de! Bəkirə nə olub? Ona niyə zəng çatmır?

- Bəkirgilin vertalyotun vurdular...

Sonraki hisslərimi xatırlamaq istəmirəm...

Anama dedim ki, hazırlaş, gedirik Kürdəmirə. Sonra, Sadiqə - Bəkirin həmyerlisinə, çox yaxın dostuna zəng vurdum ki, Şəbnəmə demək lazımdır. Sadiq də pis vəziyyətdə idi.

- Mən Şəbnəmə bu xəbəri deyə bilmərəm, - dedi.

Anama dedim ki, Şəbnəmə zəng vurub desin ki, guya Füzuli rayonuna, hüzürə gedirik. Bəkir Faiqə xəbər göndərib ki, Şəbnəmi də yolüstü Kürdəmirə aparaq. Şəbnəm çaşqın halda anama bildirib ki, axı, Bəkir ona heç nə deməyib. Sonra da Rəna xalaya zəng vurub.

Rəna xala:

- Ay bala, Bəkirə zəng çatmırsa, o, Faiqlə necə danışıb?- deyib. O da mənim dediyim kimi:

- Bəkir olan yerdə şəbəkə tutmur, uşaqlardan xahiş edib ki, Faiqə çatdırsınlar, - deyərək Rəna xalanı sakitləşdirməyə çalışdı.

Yola çıxdıq. Bütün yol boyu Allaha yalvarırdım ki, Şəbnəmə heç kəs zəng vurub, deməsin. 2 saatlıq yolu bir saat yarıma Kürdəmirə çatdıq. Bir bəhanə tapıb, Şəbnəmin telefonun da aldım ki, ona zəng edən olmasın.

Arada Rəna xala mənə də zəng vurdu. Ağlayırdı:

- Sən bilərsən, yəqin, Bəkirin başında iş var. Sağ olsaydı, telefonu bağlı olmazdı...

Onun sözünü kəsdim:

- Rəna xala, niyə bəd fikirləşirsən?! Elə şey olsaydı, mən bilməzdim? Döyüş bölgəsidi, şəbəkə yaxşı işləmir, telefonun enerjisi bitə bilər... Yoldayıq, çatım, söhbət edərik, - dedim.

- Yaxşı, bala, ehtiyyatlı sür! - dedi.

Maşın məhləyə çatanda, küçədə xeyli adam yığıldığını görən Şəbnəm ağlamağa başladı. Maşını açıq darvazadan həyətə sürətlə sürdüm. Həyət adamla dolu idi. Maşından düşüb, həyətin o başına qaçdım ki, hönkürtümü heç kəs eşitməsin...

... Hərbi hissədən mənə zəng vurub demişdilər ki, ekipaj üzvləri şəhid olub, cəsədləri neytral zonadadır. Meyidlərin alınması üçün iş gedir. Bəkirin valideynlərinə deyim.

Çarəsiz qalmışdım. Kimə deyəydim, necə deyəydim? Əzizləri əlində telefon, ümidlə hospitallara zəng vurur, yaralı oğul axtarırdılar, necə qıraydım ümidlərini? Ancaq, deməli idim, bu, tapşırıq idi. Atasını – Vüqar əmini bir kənara çəkib, çətinliklə dedim. Çox pis oldu. Birtəhər toxtadıb, xahiş etdim ki, meyidlər alınana qədər qadınlara heç nə deməsin. Anamla 3 gün onlarda qaldıq. Sonra məni döyüş bölgəsinə çağırdılar. Rəna xala ilə halallaşıb, dedim:

- Gedib ordan daha dəqiq məlumat öyrənib, sənə deyəcəm...

Aprelin 10-da, meyidlər alınanda, biz Qala qəsəbəsindəki N saylı hərbi hissədə cənazələri gözləyirdik. Cəsədlərin tanınması zamanı

mənə zəng vurub, Bəkirin bədənindəki xüsusi əlamətləri soruşdular. Mən də üzündə, boynunda, kürəyində xalı olduğunu dedim...

Döyüşdən qabaq, martın sonunda onunla notarial kontoruna gedib, maşınımı sürməsi üçün ona etibarnamə aldıq və bizə gəldik. Dedim ki, indiyə qədər etibarnaməsiz sürmüsən, bundan sonra ata malın kimi sür. Bəkir etibarnaməni cibinə qoyub, həmişəki vərdişi ilə paltar dolabımı açdı. Təzə aldığım jaketi götürüb, əyninə geydi. Özününkünü də qatlayıb dolaba qoydu və dedi:

- Sən də bunu geyərsən. Bir az zövqümüz təzələnsin.

Evlərinə gətirib düşürəndə, Şəbnəm soruşdu ki, bu jaketi nə vaxt aldın?

- Şərikli malımızdı, - deyib, güldü...

Vurulandan sonra, hərbi hissədən onun əşyalarını göndərmişdilər evlərinə, Rəna xala çantasını boşaldanda, çantadan həmin jaket və cibindən etibarnamə çıxdı...

Büküb saxlamışam o jaketi. Hərdən ürəyim sıxılanda açıram, üzümə sıxıb, doyunca ağlayıram...



*Əbu Bəkr dərs zamanı*

***Kamal Hüseynli (Baş leytenant)***

Bəkirlə mən də C. Naxçıvanski adına hərbi liseydə tanış olmuşuq. Tanışlığımızdan qısa müddət sonra mən onun qeyri-adi, fərqli bacarığa malik şəxs olduğunu anladım. Sanki, o, bizim yaşıdımız deyil, hardasa 15-20 yaş bizdən böyük görünürdü. Əlbəttə, xarici görünüşü ilə deyil, davranışı, ağılı, düşüncəsi ilə. Elə ona görə də, qısa müddətdə 120 kursantın arasından o, bölük çavuşu, lider seçildi və sona qədər də özünü doğrultdu. Ona yaxşı mənada həsəd aparırdım, söhbətinə qulaq asır, hərəkətlərini izləyirdim. Nə gizlədim, hər cəhətdən ona bənzəməyə çalışırdım. Bəkirə söhbət əsnasında o qədər sual verirdim ki, o da zarafatyana:

– Kamal, sən MTN işçisisən deyəsən. Nə çox sual verirsən?

Bu sözlə bağlı bir əhvalat yadımı düşdü. Bir dəfə yeməkxanada nahar edirdik, 12 nəfərlik böyük masanın baş tərəfində Bəkir oturmuşdu. Mən isə digər masada onun arxa tərəfində oturmuşdum. Salonda səs-küy olsa da, Bəkir çox maraqla söhbət edir, masadakılar da ona qulaq asırdılar. Mən də ona tərəf baxmasam da, diqqətim ondaydı. Birdən Bəkir sözünü yarımçıq qoyub:

- Bu məsələni sizə ətraflı izah edərdim, ancaq aramızda “çekist” var, qulağı bizdədir – dedi və güldü.

Mənə sataşdığını anlayıb, mən də güldüm. Arxaya dönməsə də, mənim diqqətimin onda olmasını o, duymuşdu. Diqqətli idi, çevik idi. Bu da hərbiçi üçün ən vacib keyfiyyət idi. Elə bir lider, rəhbər yox idi ki, ondan hamı razı olsun. Əbu Bəkr istisna idi. Ondan inciyən, narazı qalan yox idi.

Onun bir keyfiyyətini də deyim. Bəkir çox səliqəli, təmizkar idi. İlk dəfə kursant olanda, bizi təlim mərkəzinə aparmışdılar, səhra şəraitində təlim keçirdik. Bəkir üst-başına o qədər diqqət yetirirdi ki, biz onun təmizliyinə həsəd aparırdıq. Onda qadına, qıza xas olan təmizlik, səliqə vardı.

Bir nüansı xatırlatmaq istəyirəm. Başqa bölüklərdə, istər bizdən əvvəlki, istərsə də sonrakı vaxtlarda, 4 il ərzində bölük çavuşu bir neçə dəfə dəyişilirdi, ya özünü doğrulda bilmirdi, ya da yoldaşlarla dil tapa, ünsiyyət qura bilmirdi. Liderlik edə bilməməsi, ya idarəçilik qabiliyyətinin kifayət qədər olmaması səbəbindən təhsil müddətində 4-5 dəfə dəyişilirdi. Bizim bölükdə isə Bəkir əvvəldən sonacan yeganə lidermiz oldu.

Son görüşümüzü heç unutmaram. Martın 31-də bizim hərbi hissəyə gəldilər. Komanda gözləyirdilər cəbhə bölgəsinə getməyə. Ayrı-ayrı hərbi hissələrdə çalışdığımızdan tez-tez zəngləşsək də, mütəmadi görüşə bilmirdik. Ona görə də, fürsətdən istifadə edib Bəkir üçün süfrə açdıq, söhbətləşmək istədik. Bəkir anası ilə telefonla danışdıqdan sonra:

- Uşaqlar, gedim evimizə. Anam hazırlıq görüb... Bilmək olmaz, bəlkə... Sözünü yarımçıq qoydu... Əgər sabah gedib qayıdası olsaq, söz verirəm ki, sizin yanınızda qalacağam. Sonra maşın istədi ki, gecə ani tapşırıq olsa, gecikmədən özünü hərbi hissəyə çatdıra bilsin. Və mən maşınımın açarını ona verdim...

Son danışığımız isə aprelin 2-də səhər oldu. Qulağımıza bəzi xəbərlər dəyirdi. Hətta, vertalyot vurulmasını da eşitdik. Bəkirin nömrəsini yığdım, səsini eşitcək sevindim.

- Hər şey yaxşıdı, Kamal, gedirik, irəliləyirik, - sevincək dedi.

Sonra səs kəsildi. Bildim ki, döyüşə getdilər – həm də sonuncu döyüşə.

“Gedirik” kəlməsi ömrümün sonuna qədər qulağımda cingildəyəcək...

***Elvin Məhərrəmov (Baş leytenant)***

Bizim Bəkirlə dostluğumuzun tarixi 2008-ci ildən başlayır. Əslində mən buna dostluq yox, qardaşlıq deyərdim. Bəkir dost, qardaş, sirdaş kimi dəyərləndirilməyə layiq insan idi. Onu ailəmizin üzvü kimi qəbul etmişdik və etibar etmişdik. Mənə elə gəlir ki, 8 illik dostluğumuzun xatirələrini söyləməyə söz də çatmaz. Ali Hərbi Təyyarəçilik məktəbinə qəbul olduğum gündən Bəkirlə səmimi ünsiyyət qurduq və heç bir şey, heç bir hadisə dostluğumuza kölgə sala bilmədi. Demək olar ki, günümüz bir keçirdi, dərsdə, idmanda, istirahətdə… Bir-birimizə “qaqa” deyə müraciət edirdik. Mən bir az xasiyyətcə kəmhövsələyəm. İşim gətirmiyəndə, çətinliyim olanda onun bir kəlmə sözü mənə bəs idi:

- Qaqa, səbr elə, keçəcək, düzələcək…

Allah ona o qədər səbr, təmkin vermişdi ki, bəlkə ona görə də bütün işləri rəvan gedirdi. Tam səmimiyyətimlə etiraf edirəm ki, əgər qarşıma Bəkir kimi bir dost çıxmasaydı, bəlkə də həyatım başqa cür olardı. Arxam, dayağım, məsləhət, güvən yerim idi Bəkir.

Biz tərəflərdə bir söz var, ağsaqqallar işlədirlər – Xızır Nəbi. Bax, Bəkir Xızır Nəbi kimi hamının dadına çatır, hayına yetirdi, ümid yerimiz idi.  Necə yetə bilirdi, hamımız buna məəttəl qalırdıq və ona həsəd aparırdıq. Doğrusu, onu bütün dostlarıma qısqanırdım, heç kəslə paylaşmaq istəməzdim.

Gənc idik, bəzən xərcliyimizi nizama sala bilmirdik. Arxayın idik ki, Bəkir tapar, Bəkir düzəldər… Bir gün yenə pula ehtiyacım oldu. Qardaşım da olsa, üzüm utanırdı hər dəfə ondan istəməyə. Kimdən soruşdumsa, olmadı. Maaş vaxtına az qalırdı, hamının pulu qurtarmışdı. Bəkir pul axtardığımı eşidib yanıma gəldi. Soruşdu ki, nə qədər lazımdı?

- 100 manat – utana-utana dedim.

- Götür, mənim 100 manat ehtiyatım var – deyib, pulu mənə verdi.

Bəkirin məzəli zarafatları vardı. Hərdən xatırlayıram. Mənim akvariumda balıq saxlamaqdan xoşum gəlirdi. Bahalı akvarium almışdım. Əsəbləşəndə, darıxanda balıqları seyr edib sakitləşirdim. Evdə pula ehtiyac oldu. Qərara gəldim ki, borc almaqdansa, akvariumu satım. Birinci Bəkirə zəng vurdum:

- Qaqa, akvariumu satıram, sənin tanışların çoxdu, mənə müştəri tap.

Axşamüstü Bəkir zəng vurdu ki, akvariumu videolentə al, mənə göndər, istəyən var. Sonra da dedi ki, özüm almaq istəyirəm, əsəblərimi sakitləşdirər. 4-5 dəqiqə akvariumu telefonun kamerasına çəkib, Bəkirə göndərdim. Xeyli gözlədim, Bəkirdən səs çıxmadı. Ona zəng vurdum:

- Qaqa, nə oldu alırsan akvariumu?

- Yox, qaqa, daha nəyimə lazımdı? Əsəbləşəndə, darıxanda elə videosuna baxıram da, - dedi və elə ürəkdən güldü ki, mən də qoşuldum ona. Həmin gün o, ehtiyacım olan pulu mənə borc verdi, akvariumu satmağımı istəmədi…

Bəkir dənizi çox sevirdi. Birlikdə boş vaxtlarımızda gedirdik dəniz kənarına. Otururdu üzü dənizə, lal-dinməz. Belə vaxtlarda sual verməyə də qoymazdı. Deyərdim ki, qaqa, orda nə görmüsən, nəyə baxırsan? Nə fikirləşirsən? De, mən də fikirləşim.

- Heç nə fikirləşmə, sadəcə, içini dənizə boşalt! Sakit otur, dənizlə nəfəs al, onda nəsə hiss edəcəksən, - deyirdi.

Bir az baxırdım, sonra deyirdim ki, vallah heç nə hiss etmirəm… Bəkir deyirdi ki, ayda ən az iki dəfə belə oturub dənizlə dərdləşəndə yüngülləşirəm, gərginliyim yox olur…

Şəhərə çıxardıq, gəzərdik, alış-veriş edərdik. Dəblə, zövqlə geyinməyi xoşlayardı. Geyindiyi paltarlar da həmişə ona yaraşardı. Aldığı köynəyin azca boşluğu olsaydı, dərziyə aparıb düzəltdirərdi. Mən, ya başqası, o qədər əhəmiyyət verməzdik, ancaq o, geyimində, səliqəsində çox diqqətcil idi. Heç vaxt onu səliqəsiz, qırış, çirkli, ya ləkəli geyimdə görməmişik.

Bəkir çox həyatsevər idi, gələcəkçün plan qurardı, arzularını şirin-şirin danışardı. Mən başqa hərbi hissədə idim, Qala qəsəbəsinə

gəlmək istəyirdim. Qərarlaşdırmışdıq ki, Qala qəsəbəsindəki N saylı hərbi hissəyə gələrəm, qonşu olarıq, həyətimiz bir olar. Çoxlu gül, ağac əkərik. Həyətdə samovar qoyarıq, manqal qalayarıq, bir yerdə yeyib-içərik. İşə, gəzməyə bir yerdə gedərik. Uşaqlarımız da bacı-qardaş kimi bir yerdə böyüyərlər. Çox böyük arzularla yaşayırdı. 5-10 il qabağın planlarını qururdu Bəkir. Bu günlə yaşamırdı, gələcək üçün məqsədləri vardı…

Martın 30-da mənə ismarıc göndərmişdi, saxlamışam telefonda. Uşaqlar mənə Maqo deyirdilər öz aralarında. İsmarıcda yazmışdı:

- Maqo, salam, necəsən? İşlərin necədi? Sənin Bəkir adlı başqa dostun var?

- Yox, qaqa. Necə bəyəm? Mənim səndən başqa Bəkir adında dostum yoxdu. Nə olub?

- Heç! Zəng eləmirsən, mesaj yazmırsan, itirib-axtarmırsan. Mən də fikirləşdim ki,başqa Bəkir tapmısan…

Həmin ərəfədə qardaşımın qızı dünyaya gəlmişdi, evdə başım bir az qarışmışdı, 2-3 gün Bəkirlə əlaqə saxlaya bilməmişdim. Üzrxahlıq edib soruşdum:

- Sən neynirsən?

- Sabah işə çıxıram, məzuniyyət yarımçıq qaldı.

- Niyə?

- Belə lazımdı, vəziyyət bir az qarışıqdı… Yazdım ki, sənin keyfini soruşum. Bir də, möhkəm ol!

- Gəl görüşək, səkkizin yarısında işdə olacağam.

- Yox, sən gəl! Onbirin yarısı helikopterin yanında ol! Gecikmə, qalxacağıq…

Səhəri gün getdim görüşməyə. Helikopterin yanına təzə çatmışdım ki, Bəkir də Təbiətlə gəldi. Köməkləşib çantalarını borta yığdıq. Qucaqlaşıb, halallaşdıq. Ürəyim narahat idi:

- Qaqa, sən Allah,ehtiyatlı ol! Çılğınlıq eləmə, sadəcə üzərinə düşən vəzifəni yerinə yetir. Yəni, həyatını boşa vermə.

- Narahat olma, hər şey yaxşı olar, inşallah!

- Bacı burda təkdi, aparım evə, sən gələnədək bizdə qalsın.

- Yox, narahat olma, qohumumuz gələcək yanına dedi və ayrıldıq...

Bu ayrılıq məndən çox şeyi aldı. Ən dəyərli dostumu, sirdaşımı, qardaşımı, arxa-dayağımı. Qeyri-səmimi çıxmasın, ən yaxın qohumumu itirsəydim, bu qədər təsir etməzdi mənə.

O biri gün, aprelin 1-də həyəcan verildi. Axşam Bəkirə zəng vurdum ki, birdən qalxsan, mənə xəbər elə, bilim. Mənə şəkil göndərdi. Vertalyotda idi, hər yer qaranlıq idi. Dedi ki, bax, burdayam. Yenə də dedim:

- Qaqa, ehtiyatlı ol! Sən çeviksən, yenə də ayıq ol! Boşa vermə həyatını.

- Su səhəngi suda sınar - dedi. Tüklərim biz-biz oldu. Gərgin söhbəti aradan qaldırmaq üçün:

- Gic-gic danışma! Ağzını xeyirə aç! – dedim…

Açığını deyim ki, uşaqlıqdan müharibədə olmağı arzulamışam. Döyüşün içində olmaq, o hissləri yaşamaq istəmişəm. Ürəyimdən keçənləri dedim:

- Ayaz, sən, Təbiət, Elşad hamınız ordasız, kaş mən də yanınızda olaydım.

- Müharibə romantika deyil, qaqa, vahimədi… Kaş, biz də döyüşüb, düşmənin burnunu ovub, sağ-salamat sizin yanınıza qayıdaydıq.

- İnşallah, qayıdarsız! – dedim.

Bir az keçdi, Bəkir təkrar zəng vurdu:

- Qaqa, həyəcandı, yatıb qalarsan birdən, get!

- Bu gün aprelin biridi, aldada bilməzsən.

- Vallah, zarafat eləmirəm. Bizim hərbi hissəyə təzə gəlmisən, özünə problem yaratma, tez get! – dedi.

O biri yoldaşlara da zəng vurdum, doğurdan da həyəcan var idi. Tez geyinib, hərbi hissəyə qaçdım.

Çataçatda Bəkir bir də zəng vurdu ki, hardasan? Dedim ki, çatdım hərbi hissəyə.Gecə hamımız hərbi hissədə qaldıq. Bütün gecəni yatmamışdım. Başım bərk ağrıyırdı, özümdə deyildim. Rəis:

- İsti çay iç, keçər, - dedi.

- Oturub çay içirdik ki, yer heyətinin rəisi Elnur Quliyevə - bizim rəisə zəng gəldi. Xəttin o başında nə dedilərsə, rəis dik qalxdı, tez otaqdan qaça-qaça:

- Nə, harda, necə oldu? – həyəcanla soruşdu.

Ürəyim çırpındı, bildim ki, nəsə var, kimsə vurulub… Artıq xəbər yayıldı ki, bort vurulub. Bəkirə zəng çatmırdı. Bəlkə, bir saniyədə 10 dəfə yalvarırdım: - Ay Allah, o olmasın…

Elşada zəng vurdum:

- Bəkir hardadı?

- Narahat olma, burdadı, yanımdadı. Burda başqa adamlar var, sonra danışarıq.

Bircə an da olsa, içim rahatladı. Heç bir dəqiqə keçmədi ki, Elşaddan ismarıc gəldi:

- Nə gizlədim, toxtaq ol, Bəkirgil vurulub…

Mən həyatda çox acılar çəkmişəm, atasız böyümüşəm, çətinliklər görmüşəm. ancaq bundan ağır günüm olmamışdı. Qardaş, qardaş deyib, ağlayırdım. Özümü belə aciz, belə gücsüz, kimsəsiz hiss etməmişdim…

Şaiələr yayıldı ki, yaralıdılar, neytral zonadadılar. Ümid etdim ki, bəlkə… Sonra ermənilərin çəkdiyi şəkillər internetdə yayıldı, ümidim üzüldü…

Mən Bəkiri içimdə yaşadıram, danışıram onunla, dərdləşirəm, yuxuda görürəm tez-tez. Bir dəfə yuxuda gördüm ki, Bəkir uçuq bir evin arxasından qəfl çıxdı, təəccübləndim:

- Qaqa, sən burda nə gəzirsən?

- Sakit dur, heç kimə demə burda olmağımı. Yaxın gəl, mənə açar ver…

Mən yuxumu tam açıq, aydın görürəm, sanki yaşayıram yuxudakı hadisələri. Bəkir o gecə yuxumda mənə o qədər yaxın, canlı idi ki, nəfəsini belə hiss edirmiş kimi idim. Dedi ki, həyətdə açar var, o açarı götür. Bu anda, elə bil, kimsə gəldi.

- Mənim burda olduğumu heç kəsə demə, - dedi və getdi.

Yuxudan diksinib qalxdım. Elə bil, başqa bir dünyada idim, geri döndüm. Yuxumu anama danışdım. Məni hələ də düşündürür,

görəsən, o açar nə açarıdır? Bəkirin ruhu narahatdı, nə demək istəyir? Qəbirüstünə də getdim, üzümü baş daşına söykəyib, gözümü yumdum ki, bəlkə, nəsə hiss edəm, nə istədiyini anlaya biləm…

Bir dəfə də yuxumda gördüm ki, kursant vaxtımızdı, Bəkirin dolabının qapısı açıqdır. Bəkir üzü dolaba tərəf durub.

- Qaqa, sən nə gəzirsən burda?

- Bir şey var, onu götürməyə gəlmişəm.

- Nədi axtardığın, kömək edim.

- Narahat olma, özümə aid olan şeylərdir, onları götürməyə gəlmişəm.

Qucaqlaşdıq, ağladım… Ayıldım, suyun içindəydim, gözüm yaşlı idi. Bəkirin əlinin istisi qalmışdı kürəyimdə. Elə bil, bir saniyə öncə yanımdaydı…

Mən ziyarətgahlara gedən deyiləm, elə çox inanan da deyiləm. Bir bazar günü Bəkirə zəng vurdum:

- Qaqa, hardasan? Dur gəl bizə!

- Yox, işim var. Yuyun, hazırlaş, səni bir yerə aparacağam.

- Hara? – soruşdum.

- Gözəl bir yerə, gedərsən, görərsən, - dedi.

"Neftçilər" metrosunun yanında məni gözləyirdi. Getdik Mərdəkana, Mir Mövsüm ağanın qəbri üstünə, ziyarətə. Mən birinci dəfəydi orda olurdum.

- Qaqa, bura haradı? Mən burda neyləyəcəm?

- Heç nə eləmə, sidq ürəklə dua elə! - dedi.

- Mən dua edəndə dedi ki, ondan istəmə, ona xatir Allahdan istə. Ola bilsin ki, sən inanmırsan. Ancaq Allah səni görür, səndə ona inam var. İçində bir yanar şam var. İnan və dua et, yolun açıq olacaq. Hər yüz duadan biri qəbul olunacaq...

Bir dəfə Bəkir telekanallardan birinin aparıcısı Xose Bernardo ilə çəkdirdiyi şəkli telefonla mənə göndərdi. Mən zarafatla:

- Bu kimdi, qaqa, Kürdəmirlidir?

- Məclisdəydik. Məni gördü, tanış gəldim ona. Xahiş etdi ki, şəkil çəkdirək. Mən də xatirinə dəymədim…

Toyunda hərbiçilər çox olduğundan şadlıq evində onlara qulluq,



***Əbu Bəkr Xose Bernardo ilə***

nəzarət etməyi mənə tapşırmışdı. Onların qarşılanması, yola salınması mənim işim idi. O, bəy kürsüsündə otursa da, fikri bizdə idi. Uşaqlar çox sərbəst idilər, siqaret çəkmək üçün girib çıxırdılar, durub bir-biri ilə görüşür, söhbət edirdilər. Bəkir də gözü ilə mənə işarə edir, tərs-tərs süzürdü ki, intizam yaradım, uşaqları yerlərinə otuzdurum…

Bəkir anasını həddən çox istəyirdi, hər gün onunla danışırdı. Qayğı ilə nədən ehtiyacı olduğunu soruşurdu. Qardaşı Əkbərə dönə-dönə tapşırırdı ki, anadan muğayat ol, sözünə bax!..

Bəkirgilin dəfni zamanı çox böyük izdiham vardı, çoxu onları tanımırdı. Sadəcə, insanların içində Millət sevgisi, Vətən sevgisi vardı. Aprel döyüşləri içimizdəki birlik hissini oyatdı…

Cənazəsi gətiriləndə anamı götürüb gecə ikən Kürdəmirə getdik. Səhər tezdən də dəfn mərasimində iştirak etmək üçün Bakıya qayıtdıq. Vidalaşma, dəfn mərasimində onun yoxluğunun acısı məni ağlatsa da, şərəflə, ləyaqətlə qarşılanmasına, hörmət, ehtiramla son mənzilə yola salınmasına görə qürur duyurdum.



## *Ruslan Musayev (Baş leytenant)*

Əbu Bəkiri biz Bəkir deyə çağırardıq. Mən də onun kursant yoldaşı olmuşam, həm C.Naxşıvanski adına Hərbi Liseydə, həm də Ali Hərbi Təyyarəçilik məktəbində. Onu tanıyanların Bəkir haqqında o qədər gözəl xatirələri var ki, hər birindən bir kitab yazmaq olar. İdarəçilik bacarığına, dost kimi dostluğuna, yoldaş kimi yoldaşlığına həsəd aparmamaq mümkün deyildi.

Mən qonşu Ağsu rayonundan olduğuma görə mənə yerli deyərdi. Hərdən kənara çəkib:

- Birdən bir çətinliyin, problemin olar ha? – soruşardı. Mən də, elə yoldaşlarımızın hamısı ona yoldaşlıqdan əlavə, arxa, dayaq kimi baxırdıq. Kursantlıq vaxtı xərclərimizə bəzən nəzarət etməzdik, pulumuz qurtarardı, nəsə almaq, harasa getmək istəsəydik. Bəkirə üz tutardıq. Heç demək lazım deyildi, sıxıntımızı o dəqiqə anlayardı. Ancaq biz onun sıxıntısını, korluq çəkdiyini, evdən və ya kimdənsə kömək istədiyini görməzdik. Bəkir israfçı, bədxərc deyildi. Hər şeyin yerini, ölçüsünü, dəyərini bilən, nizam-intizamlı, səliqəli, düşüncəli bir adam idi. Hətta, bəzən bizə elə gəlirdi ki, hərəkətlərinə, davranışlarına görə o, bizdən 20 yaş böyükdü. Onun məsləhəti, tövsiyyəsi, iradı da bizə qanun kimi qəbul idi.

Bir dəfə hərbiçi dostumuzun toyuna gedəcəkdik. İkimiz də rayondaydıq. Bəkir ailəlikcə dost olduqları üçün toya anası Rəna xalayla gedəcəkdi. Danışdıq ki, mən maşınımla Ağsudan gəlib onları da götürüm. Həyətlərinə girən kimi Bəkirin toy geyimində olsa da, ağacların dibinə su qoyduğunu gördüm.

- Qadaş, nə gözəl ağaclarınız var? Təzəbinəyəm, bəlkə mənə də bir-ikisin pay verəsən – dedim.

- Sənə ağac qurbandı – dedi.

Toydan qayıdanda öz əli ilə bir neçə ağac çıxarıb, bükdü və mənim avtomobilimə qoydu. İndi həmin ağaclar böyüyüb, bar verəni də var. Mən onlara baxanda çox kövrəlirəm, hər pöhrəsində, hər budağında, hər yarpağında Bəkirin surətini görürəm. Hə, onu da deyim ki, mən Bəkir qədər anasına bağlı, anacanlı ikinci bir adam görmədim. Hər gün anasına bir neçə dəfə zəng etdiyini, bazar günləri imkan düşən kimi rayona getdiyini çox



*Əbu Bəkr dərs zamanı*

görmüşəm. Elə həmin gün – toya getdiyimiz gün də tez-tez arxaya çevrilib:

- Ana, narahat deyilsən? Su, çay istəmirsən? – soruşurdu.

Bəkir fəqli insan idi, ölümü ilə də fərqləndi, arzuladığı uca zirvəni fəth etdi – Şəhidlik zirvəsini. Onun nəşi gətiriləndə hərbi hissənin qarşısında maşınların sayı-hesabı yox idi. Hətta, bilərəkdən hələ gətirilməməsi barədə yanlış məlumat verdik ki, izdiham bir az dağılsın. Ancaq, mümkün olmadı. Hərbi hissədən Kürdəmir şəhər mərkəzinədək kalon dayanmışdı. Rayon əhalisi gecə saat 11-də küçə boyu düzülmüş, qəhrəman balasın qarşılayırdı. Tabutu maşından hərbiçilərin götürməsinə imkan vermirdilər. Bütün gənclər əlini tabuta çəkir, sanki salamlaşırdılar. O gecə hərbiçi olmağımla fəxr elədim və Bəkirin ölümünə də qibtə elədim... Kaş mənə də belə şərəfli ölüm qismət olaydı.

Onlar üçü də seçilmişlərdi, Urfan Vəlizadə, Təbriz Musazadə, Əbu Bəkr İsmayılov. Seçildikləri üçün ağır, məsuliyyətli döyüşə də birgə getdilər.

Mayor Təbriz Musazadə və mayor Urfan Vəlizadə bizdən yaşca da, vəzifəcə də, təcrübəcə də böyük idilər. Biz onların şagirdləri idik, onlardan öyrənirdik. Hər ikisi də çox vətənpərvər, cəsur, savadlı, qayğıkeş idi. Mən də vertalyot heyətindəyəm. Hər iki mayor bizə cəsurluq, insanlıq nümunəsi, örnəyi idi. Təhsil, təlim vaxtı onlar Azərbaycan təyyarəçilərindən öz biliyini, təcrübələrini, qayğılarını əsirgəmirdilər. Yüksək hərbi və şəxsi keyfiyyətlərə malik vətənpərvər idilər. Hətta, onlar imkan verməzdilər ki, yaşca kiçik təyyarəçilər onlardan əvvəl döyüşə getsin. Bəkirin onlarla bir heyətdə döyüşə getməsi isə, onun artıq təcrübəli, cəsur döyüşçü kimi inam, etimad qazanmasından xəbər verirdi.

Hər üç təyyarəçimiz ölümləri ilə bir daha Vətən, Torpaq, Dövlətçilik yolunda can verib, əbədi iz qoydular, Şəhidlik zirvəsini qazandılar. Bizə - hərbiçi yoldaşlarına, gələcək nəsillərə, örnək, nümunə oldular.

*Fərid Bəkirov (Baş leytenant)*

Bəkiri C.Naxçıvanski adına Hərbi Liseydə kursant olandan tanıyırdım. Ayrı qruplarda olsaq da, bütün kursantlar kimi, mən də onu intizamına, bacarığına bələd idim. Ali Təyyarəçilik məktəbinə daxil olduqdan sonra isə, daha səmimi münasibətimiz yarandı. O, elə ilk gündən liderlik xüsusiyyəti ilə fərqləndiyinə görə bölük çavuşu seçildi. Bölük böyük bir kollektivdi, 120 nəfər özü yaşda olan kursanta rəhbərlik etmək, onların etimadını, rəğbətini qazanmaq, arxasınca aparmaq, hər kəsə məxsus keyfiyyətlər deyil.

Bir insan dünyasını dəyişəndən sonra, onun haqqında ancaq müsbət fikirlər danışarlar. Mənim sözlərimə şablon kimi baxmayın. Bəkir iş prosesində çox ciddi, qətiyyətli, hər bir situasiyadan tez nəticə çıxarıb, ani qərar verməyi bacaran lider idi. Bu, hərbiçi üçün ən dəyərli xüsusiyyətdir. Və bizim çoxumuzda olmayan keyfiyyətdir. Biz onun bu keyfiyyətini çox dəyərləndirirdik. Nəinki biz, rəhbərlik (komandanlıq) də. Onun Ali Hərbi Təyyarəçilik məktəbində 4 il bölük çavuşu olaraq qalması, kursantlar tərəfindən qiymətləndirilməsi Bəkirin liderlik qabiliyyətinin sübutudur. Bəkirdən kiminsə incidiyini eşitməmiş, görməmişdim. Hərbin sərt qanunları var. Əgər, o, bölükdə hansı kursantı təlim-tədris üstündə tənqid edir və ya danlayırdısa, işdən, dərsdən kənar mütləq onun könlünü alar, ona diqqət, qayğı göstərərdi. Ona görə də, hər kəs onun diqqətindən, qayğısından utanaraq, etimadını qırmamağa, Bəkirə hörmət və ehtiram göstərməyə çalışardı.

Bəkir yoldaş, dost kimi o qədər səmimi, o qədər mehriban, qayğıkeş və zarafatcıl idi ki, onun yanında darıxmaq, sıxıntı keçirmək mümkün deyildi. Biz onunla Hacı Zeynalabdin Tağıyev qəsəbəsindəki N saylı hərbi hissədə işləyərkən bir evdə kirayədə də qalmışıq. Düzdü, az müddət olsa da, o günlər mənim həyatımda ən maraqlı günlər, anlar kimi qalıb. Evdə yemək bişirməkdən, səliqə-

səhmana qədər hər şeyə diqqət edərdi. Bədahətən şeir deyərdi, mahnı oxuyar, məzəli əhvalatlar danışar, hər bölgəyə məxsus dialekti parodiya edərdi və biz gözümüz yaşaranadək gülərdik. Hələ, biz birlikdə onun təşəbbüsü ilə Sumqayıtda rəqs dərnəyinə də getmişdik. Hərdən dostların toyunda rəqs edəndə bir-birimizə baxıb gülümsəyirdik, düz, ya da səhv etdiyimizi jestlə bildirərdik. Və bütün məclislərdə, xeyir işlərdə onu qabağa çəkərdik. Çünki Bəkirin çox gözəl nitq qabiliyyəti vardı. Heç vaxt şablon söz deməzdi, kompleksiz idi. Səmimi, ürəkdən gələn sözlərlə bütün məclisi ələ alar, sonda gözəl intonasiya ilə şeir deyər, səbəbkarı hamımız adından təbrik edər və əsl peşəkar rəqqas kimi məclisi şənləndirərdi.

Bəkir hər kəslə dil tapmağı, kompromisə getməyi bacarardı. Bu, hər liderdə olan keyfiyyət deyil. Bölükdə zəiflik göstərən yoldaşımızın nöqsanını, qüsurunu kollektiv içində qabartmaz, kənara çəkib söhbət edər, hər şeyi yoluna qoyardı. Kiminsə problemi olsaydı, onu təklikdə dinləyər, problemini həll etməyə çalışar, o yoldaşın ruhdan düşməsinə, gözdən düşməsinə, şəxsi həyatındakı problemin, çətinliyin işinə, dərsinə yansıtmasına imkan verməzdi. Ona görə də, komandirlər də lideri olduğu bölükdə ondan, onun idarəçilik bacarığından razı idi. Lovğalıq, özünü üstün tutmaq, kapriz ona yad olan xasiyyət idi. Sumqayıtda kirayə ev axtaranda çox israr elədim ki, sən də bax, sonra bəyənməzsən.

- Özünüz baxın, siz bəyəndizsə, mən də bəyənərəm – demişdi.

Hələ kursant olan vaxtı bizi Kürdəmirə evlərinə qonaq çağırmışdı. İlk dəfəydi ki, onlarda olurduq. Bəkirdən də, ailə üzvlərindən də o qədər səmimi, mehriban, isti münasibət gördük ki, qonaq olduğumuzu belə unutduq, özümüzü evimizdə, doğmalarımızın yanındakı kimi hisss etdik. Mən o zaman anladım ki, Bəkirdə bu qədər üstün keyfiyyət ailədən, tərbiyyədən gəlir.

***Vahid Mürsəlov (Baş leytenant)***

Mən Ali Hərbi Təyyarəçilik məktəbində Bəkirgildən 1 kurs əvvəl oxuyurdum. Bizim ali məktəbin seçmə kursantlarından olduğu üçün onu hamı tanıyırdı. O cümlədən, mən də. Salam-kəlamım var idi. Yaxınlaşmağımız, dostlaşmağımız təsadüfən yarandı.

İdmandan bir az zəif idim. Fürsət düşən kimi evə qaçırdım. Bir gün yenə icazəsiz evə getmişdim. Məktəbimiz evimizə yaxın idi. Mənə zəng edib xəbər verdilər ki, yoxlama gəlib. Tez geyinib məktəbə qaçdım. Giriş qapılarında nəzarətçilər vardı, yaxınlaşsaydım tutacaqdılar. Bəkirgilin korpusu uzaqda idi. Ordan keçib korpusa girdim. Bəkir ilə rastlaşdım. Dedim ki, kömək lazımdı. Özbaşına tərk etmişəm, indi uşaqları sıraya düzüblər. Tutsalar, vəziyyətim yaxşı olmayacaq. Bəkir mənə idman kostyumu verdi ki, geyinim.

- Soruşsalar de ki, qaçışdan gəlirəm – dedi.

Mən idman kostyumunu geyindim. Bəkir dedi ki, yox, belə olmaz, altdakı mülki paltarını soyun. Birdən baxarlar, mülki paltarı görsələr, biabır olarsan. Mən də soyundum. Məndən başqa da qaçanlar vardı, onlar da idman geyimində idilər. Ümumi quru qoşunlarının qərargah rəisi İsa Vəliyev çox sərt halda soruşdu:

- Hardan gəlirsən?

- İdmandan zəifəm, qaçışdan gəlirəm, cənab mayor – dedim.

Mayor uşaqlardan şübhələnmişdi. Odur ki,

- Açın paltarların yaxasını, baxacam dedi. Hamımız yaxamızı açmalı olduq. Doğrudan da, uşaqların çoxunun idman geyiminin altında mülki paltar var idi. Mənim isə əynimdə alt köynəyi göründü, yəni, təhlükədən sovuşdum.

Sonra gedib Bəkirə məni vəziyyətdən qurtardığına görə minnətdarlığımı bildirdim və biz dostlaşdıq. Bəkir də Ali Hərbi Təyyarəçilik məktəbini bitirib bizim hərbi hissəyə gəldi. Sonra 1 il Uçuş təlim-tədris mərkəzində ixtisas artırmada, 4 ay da

Aviasiya Akademiyasında bort texnikliyi kursunda oxuduq. Qala qəsəbəsindəki N saylı hərbi hissədə 2015-ci ilin avqustundan ta aprelə qədər bir yerdə işlədik.

Mənim yadımda telefon nömrələri qalmırdı, yazmağa da ərinirdim. Bir növ, Bəkirə arxayın olduğuma görə yazmırdım. Kimin nömrəsi lazım olsa, Bəkirə yalnız həmin adamın adını yazardım, o dəqiqə nömrəsini yazardı. Bu yaxınlarda da bir nəfərə uşaqlardan birinin nömrəsi lazım oldu. Əlimi atdım telefona ki, Bəkirdən soruşum. Qəfil ayıldım elə bil. Telefonu bağlayıb:

- Yox, daha tapa bilmərəm, - dedim.

Bəkir futbolu sevirdi. Hərdən işdən sonra futbola baxmağa gedirdik. Bilet tapmayanda, arxayın idik ki, Bəkir bir yol tapıb, bizi stadiona buraxdıracaq.

Bəkirin toyunda mən bir gün qabaq getdim evlərinə, kömək etməyə. Hamı kimi mən də bir işin qulpundan tuturdum ki, Bəkirə azca da olsa köməyim dəysin. Atası ağacları sulayırdı. Rezin borunu əlindən alıb, həvəslə ağacları, gülləri suladım. O vaxt Rəna xala məni tanımırdı. Axşam Bəkirə deyibmiş ki, sağ olsun şadlıq evi. Evə də kömək göndərmişdilər, ağacları da suladı getdi.

Bəkiri gülmək tutub:

- Ay ana, ağacları sulayanı şadlıq evi göndərməyib, mənim iş yoldaşım Vahiddi.

Toy günü mənim maşınımla gah gül dalınca gedir, gah bəzək-düzək işinə baxır, gah da restorana baş çəkirdik. Bəkiri bərbərxanadan gətirəndə gördüm ki, çox darıxır, gərgindi.

- Görəsən, kəm-kəsir qalmadı, hər şey qaydasındadırmı?

- Heç bir iş qalmayıb, hər şey qaydasındadır. Bircə sənin geyinməyin qalıb – onu sakitləşdirməyə çalışdım.

- Geyinməyimə də sən yardım edərsən, amma sürprizimi pozma ha!...

Gəlin gətirməyə gedən maşın karvanı uzun idi. “Gəlin maşını”nı Bəkir özü sürürdü. Mənə də tapşırdı ki, arxamca sür, imkan vermə ki, kimsə qabağa keçsin, bir-birini ötüb hadisə törətməsinlər.

Bəkir toy günü hərbi mərasim geyimində möhtəşəm görünürdü.

O toyun sədası qulağımdan getmir. Bütün hərbiçi dostlarımız onun haqqında yaxşı söz demək istəyirdilər, hamının ürəyi dolu idi.

2015-ci ilin noyabr ayında mənə ev verdilər. Bəkir sevinclə:

- Yığışın, qurtarın, ailəlikcə sizə gələrik. Hər dəfə hazırlaşanda, bir iş çıxdı. Dedik, eybi yox, yeni ildən sonra yığışarıq. Sonra da təlim başladı, təlim vaxtı ayağından zədə aldı. Evdə yatırdı, istəmirdi zədələnməyini bilsinlər. Məzuniyyət götürmüşdü. Biz ailəlikcə - anam, yoldaşım, oğlum və mən Bəkirə baş çəkməyə getdik. Oğlum Murad hər kəsə yovuşan uşaq deyildi, ancaq Bəkiri görən kimi "əmi" dedi, tez isnişdi.

Bəkir uşaq sevən idi. Oğlumu dilə tuturdu ki, yayda gəlib bizdə oynayarsan, sənə yelləncək quracağam həyətdə, karuselə də aparcağam. Yay olmasa da, ayağı babatlaşan kimi üçümüz bulvara getdik. Uşağı karuselə mindirəndə elə həyəcanlanırdı ki, birdən yıxılar. Mən də onları videolentə aldım. Yaxşı da ki, çəkdim, bu onun son videosu oldu. Ondan mənə, ailəmə qalan son xatirə.

Bir-iki dəfə Muradı Bəkirin qəbiri üstünə aparmışam. Baş daşındakı şəkli görən kimi əlini uzadıb qışqırır:

- Əmidi o...

Anam da heyfislənir ki, çox tez itirdik Bəkiri, təzə-təzə isnişirdik.

Bir dəfə Qala qəsəbəsindəki N saylı hərbi hissədə kursda idik. Dörd nəfəri, o cümlədən Bəkirlə məni də seçib yaxşı mütəxəssis kimi çağırdılar ki, şəxsi vertalyota



*Vahid Əbu Bəkirin toyunda*

nəsə bir aparat quraşdırmaq lazımdır. Çıxdıq vertalyotun üstünə. Hərəmiz bir pərin üstündə oturub işləyirdik. Bəkir arabir zarafat edib bizi güldürürdü. Uşaqlar da bizi video lentə almışdılar. O videonu da saxlamışam.

Bəkirin ürəyindən maşın almaq keçirdi. Bizim də lotoreya oynamaq adətimiz var idi. Təşkilatçı mən idim. Cədvəl tuturdum, kimin hansı ayda pula ehtiyacı varsa, o aya da yazırdım. Bu oyun, pul yığa bilməyənlərə və yaxud böyük məbləğdə pula ehtiyacı olanlara kömək məqsədi daşıyırdı. Yanvar ayından yeni oyun başlanırdı. Bəkirdən soruşdum ki, səni cədvəldə hansı aya yazım? Dedi ki, avqusta yazarsan. Başa düşdüm ki, avqustda toyunun il dönümünə sürpriz eləmək istəyir. Yəqin, maşın alacaq... Beş-altı gün keçdi. Əmək haqqının vaxtına az qalmış zəng elədi ki, Vahid, bu dəfə məni yazma. Evdə anamgil soyuqdan əziyyət çəkir. Onlara istilik sistemi çəkdirmək fikrim var. Üç ay sonra şəhid oldu. Sanki, oyunun yarımçıq qalacağını bilirmiş...

Son görüşümüz martın 27-də oldu. O, bir dostunun toyuna getməli idi. Zəng vurdum ki, ayağın ağrıyır, Qara Qarayev metrosuna gedirəm, səni də aparım. Dedi ki, olar. Evlərinin yanından keçəndə onu da maşına götürdüm. Onda Bəkir məzuniyyətdə idi. Ona görə də onun vertalyotda şəhid olması xəbərini eşidəndə inanmadım, sarsıntı keçirdim.

Onlar vurulan günü Qala qəsəbəsində idim. Eşidən kimi mayor İlkin Babayevə zəng vurdum:

- Rəis, bu nə məsələdi? Xəbər dəqiqdi? Bircə mənə bəd xəbər demə, - ağlaya-ağlaya soruşdum.

- Vahid, özünü ələ al! Təbriz, Urfan, Əbu Bəkr şəhid oldular. Gedin ailəsini aparın rayona.

Dedim ki, mən bacarmaram. Necə gedim deyim ki, Bəkir daha yoxdur?! Maşına oturub getdim Elvinin yanına. Dedim ki, gəl birlikdə gedək. Elvinlə Bəkirin evinə getdik. İşıqları yanmırdı, ev qaranlıq idi. Ora-bura zəng elədik. Sonra öyrəndik ki, Şəbnəmi Faiqgil aparıb rayona. Elə bildim ki, üstümdən yük götürüldü.

Mənim ad günüm aprelin 15-dir. Hər ad günümdə özümə bir

hədiyyə eləyirdim. Məsələn, bir ad günümdə özümə maşın aldım. Keçən ad günümdə isə...

Keçən ilin fevral ayı idi. Yuxumda gördüm ki, Bəkirlə Yusif namaz qılır. Bəkir əlində tutduğu şüşə qabdakı suyu mənə göstərib deyir ki, bu su müqəddəs yerdən gəlib, gəl dəstəmaz al, sən də namaz qıl! Deyirəm ki, yox, mənim günahlarım çoxdu, sonra qılaram. Bəkir incik halda üzünü çevirir. Sonra deyirəm ki, yaxşı, ver suyu, mən də dəstəmaz alım. O, su qabını göstərib deyir ki, su qurtardı...

Üstündən bir həftə keçdi. Yuxumu Bəkirə danışdım.

- Qardaşım, vaxtdı, gəl öyrədim, namaza başla, - dedi...

Həmin ərəfədə işlər qarışdı. Təlim, sonra Bəkirin zədələnməsi, bayram... Öyrənməyə vaxt, imkan olmadı...

Son görüşümüzdə martın 27-də, o, toya gedəndə söhbət əsnasında mənə dedi ki, aprel gəlsin, gələrsən bizə, namazın qaydalarını öyrədərəm, başlayarsan... Qismət olmadı. Bəkirin dəfnindən sonra özüm öyrəndim. Doğum günümdə - aprelin 15-də səhər tezdən namaz qıldım. Anam həmin gün çəkinə-çəkinə mənə dedi:

- Namaza başladın, həm də ad günündü. Heç olmasa bir qazan aş dəmləyim.

- Yox, mən yas içindəyəm, - dedim.

Axşamüstü Muradı da götürüb xiyabana, qəbirüstə getdim. Ona dedim ki, sənin arzunu yerinə yetirdim...

## Əbu Bəkr İsmayılovun şeirləri

### Məhəbbət

Məhəbbət gözlərdən axan yaş deyil,
Süzülüb yanaqda quruya sonda.
Sevgi dəryasına saldınsa meyil,
Çıxmağı düşünmə quruya sonda.

Çıxma ki, quruya dəryanın özü,
Sevgidən nə əsər, əlamət qalar.
Acı göz yaşına qərq edər bizi,
Yerində acı bir həqiqət qalar.

Sevgi! Bu sözdə dünyalar qədər,
Arzular, ümidlər, istəylər yatır.
Əlimiz heç nəyə çatmasa əgər,
Bu saf məhəbbətə, sevgiyə çatır.

Simsiz tar kimidi sevgisiz həyat,
Birində səs yoxdur, birində məna.
İnsanı sevərək yaradıb Allah
Sevilib yaranıb bu qoca dünya.

Sevgi! Əzəl-başdan yaranıb belə,
Ondan nə göz doyur, nə könül doyur.
Həyatda ürəkdən sevənçün hələ,
Xoşbəxt gələcəyin təməlin qoyur.

* * *

Gəlinlik libası geyirsən, bacım,
Qiyməti böyükdür, isməti uca.
Görüm sevinc olsun başının tacı
Həyatda hər zaman sevinclə ucal.

Tacı ucalığın simvolu olub,
Rəngi ağ günlərin rəngi sayılır.
Bir insan ömrünə öz nurun salıb,
Onun xoş günlərə ətri yayılır.

Bu libas bir günün geyimi deyil,
Bu libas bir ömrün zəmanətidir.
Bu libas böyük bir elin adəti,
Sənə xoşbəxtliyin əmanətidir.

* * *

Qəlbimin parası olmusan artıq,
Onu iki yerə bölə bilmərəm.
Ayrılsan, bölünər, döyünməz artıq
Yarı ürəyimlə qala bilmərəm.

O qədər gözəlsən, o qədər zərif
Dilim gəlmir sənə deyim bir tərif.
Bunu deyə bilməz dil ilə ağız,
Təsvir edə bilməz qələm və kağız.

Günlərlə dözmüşəm acı həsrətə,
Dözərəm sonadək dönən deyiləm.
Bilsəm ki, tuş gələr sevgim nifrətə,
Yenə də sevərəm, peşman deyiləm.

Yazdım ürəyimə ömürlük səni.
Heç kim silə bilməz bunu bilirəm
Silməyə çalışıb, incitmə məni,
Ömrümün yazısı, sevirəm səni.

* * *

## İntiqam alaq

Qanımız türk qanı, türkdür adımız,
Tanrımızdı bizim havadarımız,
Məqsədimiz bir, həm amalımız.
Haydı, birləşərək tək yumruq olaq!
Ta bəsdir, düşməndən intiqam alaq!

Tuttuğumuz bu yol zəfər yoludur,
Bu doğan günəş haqqın nurudur.
Zatımız, kökümüz daha uludur.
Haydı, birləşərək bir yumruq olaq!
Ta bəsdir, düşməndən intiqam alaq!

***Əbu Bəkr İsmayılov 2007-ci il***

## Şəhid Qurbanov Tural Gürşad oğlu



Qurbanov Tural Gürşad oğlu 1992-ci ilin oktyabr ayının 23-də Kürdəmir rayonunun Sığırlı kəndində anadan olmuşdur. 1999-2010-cu illərdə Sığırlı kənd tam orta məktəbində təhsil almışdır.

2010-cu ildə Hərbi xidmətə getmişdir. Türkiyədə hərbi təlim keçmişdir. 2011-ci ildə Azərbaycan Milli Ordusunda kəşfiyyatçı kimi işləməyə başlamışdır. Ailəlidir. İki övladı var.

02.04.2016-cı ildə Qarabağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Müdafiə Naziri general-polkovnik Zakir Həsənovun əmri ilə “Hərbi xidmətdə fərqlənməyə görə” 3-cü dərəcəli medalı ilə təltif edilmişdir.

T.Qurbanov Kürdəmir rayon Sığırlı kənd qəbiristanlığında dəfn edilmişdir.

***Allah rəhmət eləsin!***

* * *

Dağlıq Qarabağ müharibəsinin 4 günlük Aprel döyüşlərində Kürdəmir rayonu da iki şəhid verdi. Bunlardan biri də Sığırlı kənd sakini Tural Gürşad oğlu Qurbanovdur.

6 il Vətənin müsəlləh əsgəri oldu Tural 2010-cu ildən, 18 yaşında hərbi xidmətə çağırılmışdı. Cəsurluğuna, iradəsinə, fiziki hazırlığına görə seçilmişdi. Qonşu Dövlətə hərbi təlim keçmək üçün göndərilmişdi və 2011-ci ildən Ordumuzun daha məsuliyyətli əsgəri – kəşfiyyatçısı olmuşdu.

23 il 6 ay yaşadı cəmi. Əsrin dörddə birindən də qısa. Bu qısa ömürdən geridə sevib-seçdiyi, bəxtinə, qismətinə yazılan gözəl, ala gözlərinə göz yaşlarından qəm pərdəsi çəkilən gəlin, gül üzlü,



***Ailəsi Turalla vidalaşır***

ay bənizli 2 qız övladı, oğul fərəhini doya-doya dadmayan ata-ana qaldı. Böyük, qollu-budaqlı nəsildən idi Tural. Atasıgil on uşaq olublar. Qələbəlik, külfət içində böyüyən Turalın dəfni də qələbəliklə keçdi. Bir evdən, ocaqdan, bir kənddən, obadan, oymaqdan gedən bir oğul, bir yurdun, Vətənin, Xalqın oğlu kimi son mənzilinə yola salındı gül-çiçəklə, atəşfəşanlıqla...

Uşaqlıqdan cənazələr görmüşdüm, cavanları, nakamları qırmızı, al ipəyə, qumaşa bükülü. Qocası, ahılı yaşıl, göy qumaşa bükülü. Cənazə görməmişdim bu üç rəngi birləşdirən bir bayrağa bükülü... Bunu da bizə Müharibə göstərdi. Həmişə başımızdan çox-çox üstə dalğalanan bayrağın üzərinə qan ləkəsi çiləyən də, cənazənin, məzarın üstünə sərən də Müharibə oldu. Və o tabut, o məzar adi məzar olmadı. O məzar 3 rəngli bayrağımızla şərəfləndirilən Şəhid məzarı - Vətənin ən qiymətli parçası, ən dəyərli torpağı oldu... Məşhur bir şeirdə deyildiyi kimi:

Bayraqları bayraq edən üstündəki qandır,
Torpaq uğrunda ölən varsa, Vətəndir!

Əbu Turxan belə demiş: Hər bir insan ancaq öz boyuna biçilmiş bir həyat yaşayanda xoşbəxt ola bilər. Turalın boyuna uca Tanrı ölümlərin ən şərəflisini - Şəhidliyi biçdi. Şərəf, qeyrət, ucalıq zirvəsi - Şəhidim! Azadlığın od, şimşək zərrəsi-Şəhidim! Yurdumun, Məmləkətimin qan yaddaşı, Şəhidim! Səni qürurla, köksümüzü gərə-gərə, fəxrlə son mənzilə yola saldıq. Ağlamadıq, çünki, Şəhidlər ölməzlər, ölməzi ağlamazlar...

Dilimizi uzun, alnımızı açıq, başımızı uca edən Vətən oğulları! Vətənçün dayanan ürəyiniz, qanınızla suladığınız torpağımızda döyünəcək, göyərəcək. Birinizin əvəzinə minlər yetişəcək işıqlı, xoşbəxt gələcək üçün...

**Milli Məclisin deputatı, akademik Rafael Hüseynov**

Vətəni bu cür ləyaqətli övladların varlığı Vətən edir. Onunla 2016-cı il aprelin 16-dakı son görüşə minlərlə insan axın-axın gəlirdi.

O daha təkcə doğulub boya-başa çatdığı Sığırlı kəndininki deyildi.

Qonşu kəndlərdən, Kürdəmir şəhərindən maşın-maşın insan boğazında qəhər, gözləri nəmli, amma həm də içərisi qürur hissi ilə dolu halda Turalla vidalaşmağa tələsirdi.

Kürdəmir rayonunun Sığırlı kəndindəki o həyətə çox illər öncə birə kərə də dəfn mərasiminə gəlmişdim. O vaxt ömrünü sürmüş ağsaqqal bir insan, indi cavan yaşında canını millətinə fəda etmiş Tural Qurbanovun babası dünyasını dəyişmişdi.

Müdhiş dərdinə baxmayaraq qamətini şax tutmuş, təkrar-təkrar "Vətən sağ olsun!" söyləyən atası Gurşad Turalın bir niyyətini yada salır: "Deyirdi ki, babam kimi mən də qollu-budaqlı olacağam. 10 uşağım olacaq".



***Dəfn mərasimində Rafael Hüseynovun çıxışı***

2016-nın oktyabrında 24 yaşına çatacaqdı Tural. 2 övladı qaldı. Biri 2 yaşından 3 yaşına yenicə adlayıb, o birinin heç 1 yaşı tamam deyil. Daha bir övladı isə hələ yoldaydı. Bu ilin payızında dünyaya gələcək həmin körpəni görmək atası Turala, ata görmək o uşağa nəsib olmayacaq.

...Kənd qəbristanında Azərbaycan ordusunun əsgərləri Tərtər istiqamətində gedən döyüşlərdə şücaətlər göstərərək həlak olmuş igid kəşfiyyatçımızın şərəfinə yaylım atəşləri açır.

Bu məzarlıqda heç vaxt buna bənzər bir vidalaşma olmayıb.

Ölüm var ki, həyat qədər dəyərli,

Həyat var ki, ölümdən də zəhərli!

Hüseyn Cavidin bu müdrik sözlərinin gerçəyini Tural kimi qəhrəman balalarımızın qazandığı ölməzlik sübut etməkdədir.

İndən belə bu torpaq əvvəlkindən də müqəddəs olacaq.

Bütün Azərbaycan boyu bu günlərdə torpağa qovuşan şəhidlərimizin sayəsində ana yurdun müqəddəsliyi də, əzizliyi də, hərarəti də qat-qat artacaq.

Əbədiyyətə gedən yolun mübarək, sevimli Tural!

Azərbaycan hər an arzusunda olduğun, uğrunda canını qurban verdiyin QƏLƏBƏyə tez yetişsin!

**Qarabağ savaşında minlərlə Azərbaycan oğlu torpaqlarımızı erməni qəsbikarlarından qorumaq üçün səfərbər olmuşdur.Eləcə də, yüzlərlə kürdəmirli gənc Ümummilli liderimiz H.Əliyevin müraciətinə cavab olaraq döyüşlərdə iştirak etmək üçün könüllü cəbhəyə getdi. 135 nəfər həmyerlimiz Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olmuş, 92 nəfər ağır yaralanaraq əlil olmuşdur.**

**4 nəfər həmyerlimiz - Rəhimov Yaşar Kərəm oğlu, İslamov Tahir Ağakişi oğlu, Hidayətov Əli Rəşid oğlu, İsmayılov Əbu Bəkr Vüqar oğlu ölümünddən sonra Respublika Prezidentinin fərmanı ilə "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişlər.**

**Daha bir igid həmyerlimiz Quliyev Zabit Adil oğlu isə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

## Quliyev Zabit Adil oğlu

6 iyun 1975-ci ildə Kürdəmir rayonunun Ərəbxana kəndində anadan olmuşdur. 1992-ci ildə doğma kəndlərində orta məktəbi bitirmiş, bir müddət kənddə təsərrüfatla məşğul olmuşdur. 1993-cü ildə Milli Ordu sıralarına çağrılmış və oradan da döyüş bölgəsinə göndərilmişdir. Z.Quliyev Ağdam, Füzuli, Ağdərə, Tərtər bölgələrində gedən döyüşlərdə rəşadətlə vuruşmuşdur. Seysulan kəndi uğrunda gedən döyüşdə düşmənin 4 tankını vurmuşdur.

Azərbaycan Respublikası prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Quliyev Zabit Adil oğlu "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür. Ailəlidir.

## SON SÖZ

20 Yanvar şəhidləri, Qarabağ şəhidləri, Xocalı şəhidləri ifadələrinə qulağımız öyrəşmişdi. Bir də leksikonumuz təzələndi – Aprel şəhidləri...

Minlərlə igidimiz, ərənimiz ölümlə çiling-ağac oynadılar, Əzrayılla qurşaq tutub güləşdilər.

Minlərlə ürək sevgi ilə, məhəbbətlə döyünməli idi – kin, nifrət, həsrət, qisasla boğuldu, susdu, parçalandı.

Nəsil artırmalı, övlad yetirməli nər igidlər, torpağa can verməli oğullar, torpaqda can çürütdülər. Olumla – ölüm arasındakı uzun məsafəni qısaldan, yaxınlaşdıran düşmənə lənət olsun! Bu məsafədə neçə-neçə sevdalar həsrətə qovuşdu. Neçə-neçə arzular xəyala çevrildi. Neçə-neçə ümidlər qırıldı, puç oldu. Doğulmamış körpələr bətnlərdə boğuldu, neçə-neçə çalınmamış toylar vaya döndü. Biçilməmiş zəmilər külə döndü, xınalı barmaqlarda didim-didim, cırmaq-cırmaq qan dondu.

Biz ki, savaş, qan-qada istəmirdik. Biz ki, yad torpağına, mal-mülkünə göz dikməmişdir. Azadlıqdan, özgürlükdən, rifahdan savayı nə istəyirdik ki? Öz qazancımız, halal haqqımızla dolanmaqdan, gün-güzaran qurmaqdan yana nə etmişik ki?

Nədən bu qədər haqsızlığa, şər-böhtana, xəyanətə düçar olduq? Tanrının bəxş etdiyi, bəndənin qurub-yaratdığı gözəlliyi, sərvəti, inkişafı, bu qədər abadlığı, xain ürəklər, şər niyyətli qonşular həzm edə bilmədi. İstəmişdik hər tində, hər dalanda ağac əkək, gül becərək – avtomat aldıq. İstəmişdik baxçaların, məktəblərin sayın artıraq – tank aldıq. İstəmişdik hər gənc ailənin evi olsun, ev tikək, şəhər salaq – qırıcı, bombardımançı təyyarələr aldıq. İstəmişdik zavodların, fabriklərin sayın artıraq, işsiz, qazancsız bir kəsimiz qalmasın - ordumuzun, əsgərimizin sayını artırdıq...

Ağzı xeyir sözlü, müdrik atalarımız, babalarımız beca deməmişlər:

- Qonşu paxıl olmasa, bağ çəpəri neylər?!

İllərlə yedirtdiyimiz, ocağımızın başında oturtduğumuz, qudurtduğumuz qonşumuz xain çıxdı. Torpağımıza, sərvətimizə göz dikdi. Torpağımızın bir parçasını - cənnət misallı Qarabağımızı xəyanətlə qopardı bizdən, evləri viran, bağça-bağı, var-övləti talan etdi. Bir milyondan artıq soydaşımızı öz yurdunda yurdsuz, evsiz-eşiksiz, odsuz-ocaqsız qoydu.

Bir də atalarımız, babalarımız belə demişdilər:

- Oğul düşmən çəpəridir.

Körpələrinə ata, gəlinlərə baş tacı olan ər oğullar daha böyük evimiz, elimiz, Dövlətimiz üçün çəpər, sipər oldular.

Şəhid oğullar! Sinəsi sipər, kürəyi çəpər oğullar! Nə qədər ki, Azərbaycan var, nə qədər ki, bu Dövlət var, nə qədər ki, bu Xalq yaşayır – siz də varsınıız, yaşayırsınız, yaşayacaqsınız.

Şəhidliyiniz - Şəhadətiniz mübarək!

## MÜNDƏRİCAT

Ön söz ................................................................................................ 3

Ümummilli Lider Heydər Əliyev Şəhidlər haqqında ..................... 4
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin
Şəhid ailələrinin və yaralıların yaxınları ilə
görüşü zamanı nitqindən ............................................................ 5
Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın
Şəhid anaları ilə görüş zamanı çıxışından ..................................... 6

Giriş.......................................................................................................7

Şəhidlər ölməz, Vətən bölünməz! .................................................. 8
Toy sürprizi ........................................................................... 11
Bu qala, daşlı qala ........................................................................ 13
O, Şəhid anasıdır ......................................................................... 19
Yaşasaydı, mütləq general olacaqdı ............................................ 26
Etiraf ............................................................................................. 49
Qardaşımla fəxr etdim ................................................................. 58
Bibi, mənə laylay çal! ................................................................... 64
Həzrəti Məhəmməd Peyğəmbər (s) kəlamları ............................ 68
Azərbaycan Respublikası Müdafiə Naziri Zakir Həsənovun
dəfn mərasimindəki çıxışı .......................................................... 69
Azərbaycan Respublikasi Prezidentinin sərəncamı .................. 70
Urfan Üzeyir oğlu Vəlizadə .......................................................... 71
Təbriz Tariyel oğlu Musazadə ..................................................... 72
Əbu Bəkr Vüqar oğlu İsmayılov .................................................. 73
Milli Məclisin deputatı, akademik Rafael Hüseynov ................ 74
Kürdəmir rayon İcra Hakimiyyətinin Başçısı C.Cəfərov ........... 76
Həqiqət dolu hekayət: “Bir günlük general”............................. 78

Şəhid bacım nəvələri ………………………………………………… 80
Bir günlük “general” və ya qəhrəmanlığın tarixi ........................ 82
Şəhid təyyarəçi ............................................................................ 88
Şəhid Əbu Bəkr ............................................................................ 91
Əbu Bəkirim ................................................................................ 91
Şəhid anası .................................................................................. 92
O, bütün arzularını ən çox sevdiyi Azərbaycan bayrağına
büküb ən yüksək zirvəyə, Şəhidlik zirvəzinə sancdı .................... 93
Şəhid pilotun anım mərasimi...................................................... 98
Pərişan Musazadə ........................................................................ 99
Sevil Məmmədova ....................................................................... 107
Etibar Həsənov ............................................................................ 110
Anar Şirinov ................................................................................ 115
Sevər Həsənova ........................................................................... 117
Rövşən Vahidov ........................................................................... 119
Əbu Bəkr İsmayılovun 2007-2008-ci tədris ilinin
buraxılış mitinqindəki çıxışı...................................................... 123
Sadiq Salmanov ........................................................................... 124
Rəşad Əkbərov............................................................................. 128
Faiq Oruczadə ............................................................................. 133
Kamal Hüseynli ........................................................................... 139
Elvin Məhərrəmov ....................................................................... 141
Ruslan Musayev .......................................................................... 148
Fərid Bəkirov .............................................................................. 150
Vahid Mürsəlov ........................................................................... 152
Əbu Bəkr İsmayılovun şeirləri.................................................... 157
Şəhid Qurbanov Tural Gürşad oğlu............................................ 160
Milli Məclisin deputatı, akademik Rafael Hüseynov.................. 162
Quliyev Zabit Adil oğlu............................................................... 164

Son söz ......................................................................................... 165